RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 270 (8293) CÜMƏ AXŞAMI, 5 dekabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İslahatlar əhalinin sosial rifahının yüksəlməsini sürətləndirir

Son illər ölkədə genişmiqyaslı islahatlar həyata keçirilir. Həmin islahatlar həm iqtisadi, həm də sosial sahəni əhatə edir. Əhalinin sosial müdafiəsi aparılan islahatlarda xüsusi yer tutur. Prezident İlham Əliyev öz çıxışlarında dəfələrlə qeyd edib ki, islahatların əsas məqsədi Azərbaycan vətəndaşının rifah halının yaxşılaşdırılmasıdır.

Bu məqsədlə dövlət başçısı tərəfindən qəbul edilən qərarlara əsasən, əhalinin sosial müdafiəsi gücləndirilib, sosial ödənişlər, o cümlədən əməkhaqqı, pensiya və müavinətlər əhəmiyyətli dərəcədə artıb. Şəhid ailələrinə və müharibə əlillərinə ötən il nəzərdə tutulduğundan üç dəfə çox, yeni 626 mənzil təqdim edilib, cari ildə bundan da 50 faiz çox olmaqla 934 mənzil və fərdi ev verilməsi planlaşdırılıb. Bununla yanaşı, imtiyazlı vətəndaşların mənzil və avtomobillə təminatı da daxil olmaqla bir sıra mühüm sosial proqramların icrası genişləndirilir.

Prezident İlham Əliyevin 2 dekabr 2019-cu il tarixli "Əhalinin sosial müdafiəsinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" sərəncamı da sosial müdafiə cəhətdən həssas kateqoriyaya olan qayğının bir nümunəsidir. Həmin sərəncamda deyilir: "Əhalinin sosial müdafiəyə xüsusi ehtiyac duyan təbəqələrinin rifahının yüksəldilməsi, onların cəmiyyətə fəal inteqrasiyası istiqamətində son illərdə mühüm addımlar atılmış, bu qəbildən olan insanların çoxsaylı sosial proqramlara, o cümlədən sağlamlıq, reabilitasiya, ödənişsiz istirahət, texniki bərpa və nəqliyyat vasitələri ilə təminat proqramlarına cəlb olunması uğurla həyata keçirilmişdir. Xüsusən bu dövrdə bərpa-müalicə şəbəkəsinin bölgələr üzrə genişləndirilməsi təmin olunmuş, sağlamlıq imkanları məhdud uşaqların tibbi-sosial reabilitasiya işinin gücləndirilməsi məqsədilə uşaq-bərpa mərkəzləri yaradılmışdır". Həmin sərəncamla bu istiqamətdə görülən işlərin davam etdirilməsi, müxtəlif sosial xidmətlərin göstərilməsinin yaxşılaşdırılması məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 20 019 100 (iyirmi milyon on doqquz min yüz) manat vəsait ayrılmışdır. Həmin vəsait sözsüz ki, daha çox müasir tipli sosial-bərpa mərkəzlərinin tikilməsinə xidmət göstərəcək.

Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev bu vaxtadək dövlət başçısının diqqət və qayğısı sayəsində görülən işləri qeyd edərək deyib: "Digər tərəfdən, əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələri üzrə əhaliyə xidmətlərin keyfiyyətinin müasir əsaslar üzərində yüksəldilməsi təmin olunur. Xüsusilə Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST layihəsi bu vacib məqsədə nail olunmasına imkan verib. Bakıda və növbəti ildən etibarən regionlarda DOST mərkəzləri şəbəkəsi genişləndiriləcək.

Ardı 7-ci səh.

# "Bakutel-2019" sərgisində 23 ölkədən 238 şirkət iştirak edir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva dekabrın 4-də Bakı Ekspo Mərkəzində XXV Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisi - "Bakutel-2019" ilə tanış olublar.**



AZƏRTAC xəbər verir ki, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə və "Caspian Event Organisers" şirkətinin region üzrə direktoru Edvard Stroun dövlət başçısına və birinci xanıma 25 illik yubileyini qeyd edən builki sərgi haqqında məlumat verdilər.

Ardı 2-ci səh.

# Müstəqilliyə gedən yol Heydər Əliyevin adı ilə bağlıdır

Təhsillə gəncliyin üzvi surətdə vəhdət təşkil etməsi təbiidir. Müstəqil Azərbaycanın inkişafında, onun lider dövlətə çevrilməsində elm və təhsilin payı xüsusi çəkiyə malikdir.

Məhz buna görə də hələ keçmiş sovetlər birliyi dövründə Ümummilli Lider Heydər Əliyev bu sahənin inkişafına daha çox diqqət yetirmiş, gənclərin savadlı, bilikli, hərtərəfli inkişafı üçün müstəsna xidmətlər göstərmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin qərarı ilə təsis edilmiş Bakı Dövlət Universitetinin 100 illik yubiley tədbirində Prezident İlham Əliyev zəngin faktlara söykənən çıxışında bu məsələyə xüsusi diqqət yetirdi. Ölkə rəhbəri qeyd etdi ki, Azərbaycan Xalq Cümhuriyyəti xalqımız qarşısında böyük xidmətlər göstərib.

Ardı 7-ci səh.

# İslahatların yeni mərhələsi başlayır

## Prezidentin sorğusuna cavab olaraq Konstitusiya Məhkəməsinin Plenumu Milli Məclisin buraxılmasının Əsas Qanuna uyğun olması barədə qərar qəbul etdi

Parlamentə növbədənkənar seçkilərin təyin edilməsi barədə müraciət əsasında Milli Məclisin buraxılmasının Əsas Qanuna uyğunluğu barədə Prezidentin sorğusuna Konstitusiya Məhkəməsinin Plenumu dünən müsbət cavab verdi.

Bununla bağlı qəbul olunan qərarda deyilir ki, "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli qərarı Azərbaycan Konstitusiyasının $98^1$-ci maddəsinin 1-ci hissəsinə uyğun hesab edilsin. Bununla da Azərbaycanda islahatların siyasi yönümünün növbəti mərhələsinə başlanılmasının hüquqi baxımdan mümkünlüyü təsbit olundu. Beləliklə, islahatlar qanunvericilik hakimiyyətinə çatdı.

### Hədəf Azərbaycanı inkişaf etmiş ölkəyə çevirməkdir

Cəmiyyət həyatının istənilən sahəsində inkişafın, fəaliyyət dinamizminin və ahəngdarlığın təmin edilməsi yeni yanaşmaların tətbiqini, daha dəqiq ifadə etsək, zamanın nəbzini tutan islahatların həyata keçirilməsini tələb edir. Respublikamızın son illərdə nail olduğu inkişaf göstəriciləri də islahatların labüdlüyünün və uğurlu nəticəsinin ən gözəl nümunələri kimi beynəlxalq səviyyədə təqdir edilir. Siyasi, sosial-iqtisadi, mədəni-humanitar nailiyyətlərimizin hər biri məhz ardıcıl və sistemli islahatların nəticəsində mümkün olub.

Bu ildən isə Azərbaycan öz inkişafının tamamilə yeni mərhələsinə qədəm qoyub. Həm iqtisadiyyatda, həm sosial sferada tamamilə yeni, köklü islahatların təməli qoyulub. Yeniliklərin anonsunu isə cənab İlham Əliyev ötən il Milli Məclisdə andiçmə mərasimində vermişdi.

Ardı 7-ci səh.

# "Cənub qaz dəhlizi" iştirakçı ölkələrin hər birinə dividendlər gətirəcək

**"Cənub qaz dəhlizi"ni haqlı olaraq Avropanın enerji xəritəsini dəyişdirən layihə kimi dəyərləndirirlər. Çünki bu layihə Avropanın enerji təchizatının şaxələndirilməsində ciddi amilə çevriləcək, iştirakçı ölkələrin hər birinə dividendlər gətirəcək.**

"Cənub qaz dəhlizi" qarşıdan gələn 100 il ərzində Azərbaycan xalqına xidmət edəcək və iqtisadiyyatın inkişafına mühüm töhfələr verəcək. Ölkə qarşısında yeni imkanlar açılacaq. Hasilatın getdikcə artması Azərbaycanın regional qaz təchizatçısı kimi rolunu daha da gücləndirəcək. Nəticədə neft-qaz sektorundan daxil olan gəlirlər artacaq. Layihə çərçivəsində artıq ən qabaqcıl texnologiyalardan istifadə edilməklə dəniz qurğuları, yerüstü obyektlər tikilib, ixrac infrastrukturu yaradılıb.

Ardı 7-ci səh.

# Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin mətbuat xidmətinin məlumatı

Dekabrın 4-də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun iclası keçirilib.

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinə müraciət edilməsi barədə" qərarı əsasında Azərbaycan Respublikası Milli Məclisinin buraxılmasının Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olub-olmamasına dair sorğusuna baxılıb.

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev iclası açaraq Plenumun tərkibini elan edib və müzakirəyə çıxarılan məsələ barədə məlumat verib.

İclasda sorğuverən tərəfin nümayəndəsi qismində Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri Gündüz Kərimov, cavabverən tərəfin nümayəndələri kimi Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Nəsib Şükürov iştirak ediblər.

Çıxışlardan sonra Konstitusiya Məhkəməsi Plenumunun üzvləri gündəlikdəki məsələ ilə əlaqədar qərar qəbul etmək üçün müşavirə otağına keçiblər.

Müşavirədən sonra Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun qərarını elan edib.

Qərarın nəticəvi hissəsinə görə, "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli qərarı Azərbaycan Respublikası Konstitusiyasının $98^1$-ci maddəsinin I hissəsinə uyğun hesab olunub.

"Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli qərarı əsasında Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən buraxılması Azərbaycan Respublikası Konstitusiyasının $98^1$-ci maddəsinə uyğun hesab edilib.

Qərarda həmçinin qeyd edilib ki, Azərbaycan Respublikası Milli Məclisinin yeni çağırışı fəaliyyətə başlayanadək müstəsna olaraq Azərbaycan Respublikası Konstitusiyasının 111-ci və 112-ci maddələrində, 95-ci maddəsinin I hissəsinin 16-cı və 17-ci bəndlərində nəzərdə tutulmuş səlahiyyətlərin, habelə beynəlxalq təşkilatlarda təmsilçilik funksiyalarının həyata keçirilməsi üçün V çağırış Azərbaycan Respublikası Milli Məclisinin müvafiq səlahiyyətlərinin saxlanılması zəruridir.

Qəbul edilmiş qərar elan edildiyi andan qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

Bununla da Konstitusiya Məhkəməsi Plenumunun iclası bağlı elan edilib.

# “Bakutel-2019” sərgisində 23 ölkədən 238 şirkət iştirak edir













*Əvvəli 1-ci səh.*

Bildirildi ki, yubiley sərgisində 23 ölkədən 238 şirkət iştirak edir. Türkiyə, Rusiya, ABŞ, Belarus, BƏƏ, Fransa, İran, İsrail, İtaliya, Sloveniya, Xorvatiya və digər ölkələrin ticarət palataları və səfirliklərinin dəstəyi ilə aparıcı İT şirkətlərindən ibarət milli qruplar sərgidə təmsil olunur. Sərgiyə 11 ölkə milli pavilyonla qatılıb. Sərginin debütantlarının sayı ümumi iştirakçıların 30 faizini təşkil edir. Stendlərdə həm iş, həm də gündəlik həyat üçün “ağıllı” həllər təklif olunur. Hər il olduğu kimi, bu il də tədbirdə bir-birindən maraqlı layihələr təqdim edən stendlər qurulub. Sərgi Xəzər bölgəsində innovasiya və yüksək texnologiyalar sahəsində ən böyük hadisə olmaqla yanaşı, işgüzar əlaqələrin qurulması üçün də nadir məkandır.

Dövlət başçısı və birinci xanım İnnovasiyalar Agentliyinin stendi ilə tanış oldular. Burada agentliyin fəaliyyəti haqqında məlumat verildi. Qeyd olundu ki, agentlik regional investorları cəlb etmək üçün beynəlxalq ekspertlərin iştirakı ilə Fondlar Fondunun yaradılması üzərində iş aparır. Bu sahədə beynəlxalq təcrübə öyrənilir. Agentliyin indiyədək bir çox startapları həyata keçirilib. Bu startaplar sosial, süni intellekt, istehlakçılar, tibb və digər sahələri əhatə edir.

Dövlət başçısına Azərbaycanda startapçılar üçün yaradılan şərait barədə məlumat verildi. Bildirildi ki, İnnovasiyalar Agentliyi bütün regional startaplara Azərbaycanda öz şirkət nümayəndəliklərini qeydiyyatdan keçirməyə, yerli mütəxəssislərdən ibarət komanda formalaşdırmağa, məhsullarını adaptasiya etməyə və kommersiyalaşdırmağa kömək göstərir.

Bu stenddə Azərbaycan Prezidentinə və birinci xanıma startap layihələri barədə məlumat verildi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva “AzInTelecom”un stendində də təqdim olunan yeniliklərlə tanış oldular. Burada “Hökumət buludu” layihəsi, yeni məhsullar və layihələr təqdim edilir. Bundan başqa, eyni zamanda, proqram təminatı xidmətləri çərçivəsində yeniliklər nümayiş olunur. Stenddə, həmçinin Yevlaxda ehtiyat Data Mərkəzi, bulud texnologiyaları üzrə ən son xidmətlərin “Azcloud MeetUp” adlı emalatxanası barədə də məlumat almaq olar.

“Aztelekom” MMC-nin stendində məlumatın yüksək sürətlə ötürülməsini təmin edən müasir və səmərəli ayrılmış xətt xidməti, GPON və LTE texnologiyaları üzərindən göstərilən genişzolaqlı xidmətlər, İPTV və internetdə olan məzmunun filtrasiya xidməti təqdim olunur.

“Baktelecom” stendində sərgi ziyarətçilərinə Bakı şəhərini əhatə edən “Evədək optika” layihəsi və paytaxtətrafı ərazilərdə tətbiq edilən “Simsiz rabitə” şəbəkəsinin növbəti mərhələsi, həmçinin İPTV texnologiyası ilə rəqəmsal televiziya xidmətləri, mobil və stasionar telefonları ümumi şəbəkəyə birləşdirməyə imkan yaradan “Virtual ATS” xidməti təqdim olunur.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin əsas informasiya texnologiyaları infrastrukturu olan Məlumat Hesablama Mərkəzi ölkədə elektron imza üçün Milli Sertifikat Xidmətləri Mərkəzinin fəaliyyətini qanunvericiliyə əsasən təmin edən müəssisədir. Qırx beş ildən çoxdur ki, fəaliyyət göstərən Məlumat Hesablama Mərkəzi Azərbaycanda kompüter texnologiyası ilə hesablamalar və təhlillər aparan ilk qurumdur. Müəssisənin xidmətlərinə “özəl şəbəkələrin qurulması”, “proqram təminatı”, “məlumatın saxlanma və emalı sistemi”, “sistem inteqrasiya həlləri”, “veb-saytların yaradılması” və digər mühüm xidmətlər daxildir. Mərkəz fəaliyyət sahələrini genişləndirərək informasiya texnologiyalarının bir çox istiqamətlərini əhatə edir.

“Azərpoçt” MMC-nin stendində yeni “Postman” xidməti təqdim olunub. “Android” sistemi ilə çalışan mobil tətbiq poçtalyonların işini asanlaşdırmaq və onların fəaliyyətinə nəzarət etmək məqsədi daşıyır. Buradakı digər yenilik isə “Postpay” - elektron pul kisəsidir.

“Azərmarka” MMC-nin stendində markalı kitablar, bu il ərzində tədavülə buraxılan poçt markaları, suvenirlər təqdim edilir.

Dövlət başçısı və birinci xanım poçt markalarını möhürlədilər.

❖ ❖ ❖

Prezident İlham Əliyev sərgidə Rusiyanın “Rossiya 24” televiziya kanalına müsahibə verdi.

❖ ❖ ❖

Sərgidə İnnovasiyalar Agentliyi və “Zəfər” Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin yardımı ilə şəhid ailələrinin övladları üçün təmənnasız təşkil edilən STEM üzrə kursların iştirakçıları əldə etdikləri nailiyyətləri sərgi ziyarətçiləri ilə bölüşürlər. Kurs iştirakçıları hazırladıqları modelləri Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya nümayiş etdirdilər.

Belarus da “Bakutel-2019” sərgisinin iştirakçıları arasındadır. Bu ölkədən “Bakutel”də 6 şirkət iştirak edir. Onlar İKT-nin ən son yeniliklərini Bakı sərgisində nümayiş etdirirlər. Prezident İlham Əliyev burada Belarus və Azərbaycanın birgə buraxılışı olan markanı möhürlədi.

“Startup Avenue” stendində İnnovasiyalar Agentliyində fəaliyyət göstərən 26 startap layihəsi nümayiş olunur. İnnovasiyalar Agentliyinin “Hybrid Startups” proqramı çərçivəsində Rusiya, İtaliya, Yaponiya, Ukrayna və İrandan olan xarici rezidentlər də sərginin iştirakçıları arasındadırlar.





Rusiya Federasiyasının Elm və Ali Təhsil Nazirliyinin sərgidəki stendində bu ölkənin 14 universiteti və bir elmi-tədqiqat institutunun, ümumilikdə 35 layihəsi təqdim olunur. Bundan başqa, Rusiyanın 2 şirkəti də öz məhsullarını nümayiş etdirir.

Sərgidə İran İslam Respublikası da geniş təmsil olunur. Burada İrandan 15 şirkət məhsullarını təqdim edir. Şirkətlərin təqdim etdiyi layihələr arasında İKT ilə bağlı ən son yeniliklər nümayiş olunur.

Qardaş Türkiyə digər sərgilərdə olduğu kimi, bu sərgidə də təmsil olunur. Türkiyə şirkətləri peyk, İT, informasiya təhlükəsizliyi ilə bağlı innovativ məhsulları təqdim edirlər. Türkiyənin Nəqliyyat və İnfrastruktur Nazirliyi ilə yanaşı, 4 şirkətin yenilikləri də ziyarətçilərə nümayiş etdirilir.

Xorvatiya “Bakutel-2019”da ümumilikdə 5 şirkətlə təmsil olunur. Bu şirkətlərdən ikisi ilk dəfədir ki, sərgiyə qatılır. Şirkətlər müxtəlif məhsul və layihələrini, o cümlədən İT, mobil bankçılıq və digər xidmətləri təqdim edirlər.

Amerika Birləşmiş Ştatları sərginin iştirakçıları arasındadır. Bu ölkədən 4 şirkət İKT ilə bağlı müasir xidmətlərini təqdim edir. Bu xidmətlərin arasında İT sahəsində təhlükəsizlik və digər məhsullar var.

İsrail də sərgidə iştirak edir. Bu ölkənin şirkətləri “Bakutel”də innovativ məhsul və xidmətlərini təqdim edirlər.

Fransa stendində də ən son İT və informasiya təhlükəsizliyi məhsulları nümayiş olunur. Burada Fransanın 2 şirkəti ən son yeniliklərini sərgi iştirakçılarına nümayiş etdirir.

İtaliya stendi ilə tanışlıq zamanı məlumat verildi ki, burada 3 şirkət müxtəlif İT məhsullarını təqdim edir. İtaliya sərgidə, həmçinin milli pavilyonla təmsil olunur.

“Bakutel-2019 “sərgisində Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində Elektron Hökumətin İnkişafı Mərkəzi öz stendi ilə təmsil olunur. Burada mərkəzin idarə etdiyi, o cümlədən texniki cəhətdən ərsəyə gətirdiyi layihələr, qurumun əməkdaşları tərəfindən dövlət xidmətlərinin təkmilləşdirilməsini təmin edən İKT sahəsində həllər nümayiş olunur. Stenddə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya “myGov” portalı, “ASAN ödəniş”, “ASAN Viza”, “ASAN Finans” sistemləri və süni intellekt sahəsində mərkəzin gördüyü işlər barədə ətraflı məlumat verildi.

İT sahəsində dünya liderlərindən olan CİSCO şirkəti də sərginin iştirakçıları arasındadır. Bu şirkət ən son yenilik və məhsullarını, həmçinin İT həllərini sərgi iştirakçılarına təqdim edir.

Vətəndaşlara qeydiyyat prinsipi olmadan xidmət göstərən DOST mərkəzinin sosial sahədə innovativ yenilikləri də “Bakutel-2019”da təqdim edilir. Dövlət başçısına və birinci xanıma məlumat verildi ki, bu ilin mayında açılışı olan DOST mərkəzi ötən müddətdə 55 min vətəndaşa xidmət göstərib. Vətəndaş məmnunluğu səviyyəsi 95 faizdən çoxdur. Hazırda vətəndaşlara 132 xidmət göstərilir. Getdikcə təkmilləşdirilən bu xidmətlərin sayı artır. DOST Mərkəzinin müasir “Çağrı mərkəzi” 200 mindən çox zəng qəbul edib.

Bildirildi ki, bir neçə həftədən sonra Bakının Xəzər və Pirallahı rayonlarını əhatə edən 2 saylı DOST mərkəzi açılacaq. Növbəti il isə Bakı ilə yanaşı, bölgələrdə də beş mərkəzin açılması nəzərdə tutulur.

“Azərkosmos” Açıq Səhmdar Cəmiyyəti də sərgidə təmsil olunur. Qafqazda ilk və yeganə peyk operatoru olan “Azərkosmos” telekommunikasiya və coğrafi kəşfiyyat sahələri üçün yüksək keyfiyyətli peyk xidmətləri təqdim edir. Prezident İlham Əliyevə şoranlaşma ilə bağlı peyk vasitəsilə aparılan müşahidələr barədə məlumat verildi.

1987-ci ildə təsis edilən “Huawei” şirkəti sərgidə yeniliklərini təqdim edir. Beynəlxalq aləmdə aparıcı informasiya və kommunikasiya texnologiyaları infrastrukturu və ağıllı cihazların təminatçısı olan şirkət dünyada üç milyarddan çox insana xidmət göstərərək 170-dən artıq ölkədə və bölgədə təmsil olunur.

Rusiyanın Peyk Kommunikasiya Şirkəti də sərgidə məhsullarını təqdim edir.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sərginin “ROBOPARK” sahəsində təqdim olunan yeniliklərlə tanış oldular. Məlumat verildi ki, burada 20-dən çox interaktiv və əyləncəli proqramlaşdırma, həmçinin dronlar üzrə biliklər təqdim olunur.

Eyni zamanda, sərgidə müxtəlif robotlar da nümayiş etdirilir.

Dövlət başçısı və birinci xanım robotların danışığını dinlədilər və Azərbaycan musiqisi altında rəqsinə tamaşa etdilər.

Digər bir robotun pianoda ifası da maraqla qarşılandı.

Sonra xatirə şəkilləri çəkdirildi.

Daha sonra dövlət başçısına “Bakı Taxi” MMC-nin yeni elektrik mühərriki ilə işləyən avtomobil modeli barədə məlumat verildi. Bildirildi ki, elektrik enerjisi ilə işləyən yeni taksilər ekoloji cəhətdən zərərsizdir. Avtomobillərdə USB portlar, wifi və GPS quraşdırılıb.













# Kadr islahatları davam etdiriləcək



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rüstəm Xəlilovu Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı, Vüqar Novruzovu Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunması ilə əlaqədar qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən **Prezident İlham ƏLİYEV** dedi:

- Bu gün mən sizi icra başçısı vəzifəsinə təyin edirəm. Rüstəm Xəlilovu Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə, Vüqar Novruzovu Naftalan Şəhər İcra Hakimiyyəti başçısı vəzifəsinə təyin edirəm. Bu, böyük etimaddır. Siz bu etimadı öz işinizlə doğrultmalısınız.

Ölkəmizdə köklü islahatlar aparılır. Bu islahatlar, demək olar ki, bütün sahələri əhatə edir. İqtisadi sahədə, maliyyə sektorundakı islahatlar, şəffaflıqla bağlı olan tədbirlər artıq öz gözəl nəticələrini verməkdədir. Mənə verilən məlumata görə, bu ilin 11 ayında təkcə vergi və gömrük orqanları büdcəyə plandan əlavə 934 milyon manat vəsait daxil etmişlər. Bunun da başlıca səbəbi kadr islahatıdır. Çünki həm vergi, həm gömrük orqanlarında köklü kadr dəyişiklikləri həyata keçirildi, yeni rəhbərlər təyin edildi. Beləliklə, nəticə də göz qabağındadır.

Ona görə struktur islahatları ilə bərabər, kadr islahatları da aparılır. Struktur islahatlarına gəldikdə, cəmiyyət bu islahatları yüksək qiymətləndirir. Prezident Administrasiyasının, Nazirlər Kabinetinin yeni strukturları təsdiq edildi, Milli Məclis yenidən formalaşacaq. Bütün bunların bir məqsədi var: ölkəmizin uğurlu inkişafını təmin etmək, ölkədə mövcud olan gözəl ab-havanı qoruyub saxlamaq, gənc peşəkar kadrlara imkan vermək ki, onlar özlərini göstərsinlər. Ümumi idarəetmə işlərində vəziyyət müasir standartlara cavab verməlidir.

Ölkəmizin uğurlu inkişafı danılmaz həqiqətdir. Bütün mötəbər beynəlxalq qurumlar bunu qeyd edir. Ölkəmizin çox gözəl beynəlxalq imici vardır. Təkcə oktyabr-noyabr aylarında ölkəmizdə baş vermiş hadisələr, keçirilmiş mötəbər tədbirlər onu göstərir ki, Azərbaycanın beynəlxalq nüfuzu nə qədər yüksəkdir və nə qədər beynəlxalq dəstək göstərilir. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə Görüşü yüksək səviyyədə keçirildi və Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrliyi öz üzərinə götürmüşdür. Qoşulmama Hərəkatının Zirvə Görüşü yüksək səviyyədə keçirildi və 120 ölkənin dəstəyi ilə biz bu təşkilata sədr seçilmişik və üç il ərzində sədrlik edəcəyik. Dünya dini liderlərinin Zirvə Görüşü Azərbaycanda keçirilib və 70 ölkədən gəlmiş nümayəndələrin hər biri qeyd edirdi ki, Azərbaycan bu sahədə dünyada aparıcı rol oynayır.

Bizim apardığımız kadr və struktur islahatları, eyni zamanda, ölkəmizin beynəlxalq imicini daha da yüksəklərə qaldırır və vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir. Keçirilmiş son rəy sorğusunun nəticələrinə görə, xalqımızın mütləq əksəriyyəti bizim siyasətimizi dəstəkləyir və bəyənir.

Kadr islahatları davam etdiriləcək. Son vaxtlar aparılan islahatlar artıq öz nəticəsini verməkdədir. Cəmiyyətdə bu islahatlarla bağlı çox müsbət rəy formalaşıb və gözləntilər də vardır. Ona görə təyin edilmiş bütün yeni kadrlar qarşısında konkret vəzifələr qoyulur və bu kadrlar o vəzifələri icra etməlidirlər. Dövlət məmurları vəzifəyə gəlir mənbəyi kimi baxmamalıdırlar. Dövlət məmurları xalqa xidmət etməlidirlər. Onların başlıca missiyası bundan ibarətdir və siz də belə işləməlisiniz.

Rüstəm Xəlilov uzun illər Milli Məclisin deputatı kimi fəaliyyət göstərir. Əvvəlki dövrlərdə də böyük təcrübə toplamışdır. Əminəm ki, Hacıqabul rayonunda bu təcrübəni tətbiq edəcək və rayonun inkişafına töhfə verəcəkdir. Vüqar Novruzov gənc kadrdır və bir müddət Prezident Administrasiyasında işləyib, indi isə Xəzər rayonunda icra hakimiyyəti başçısının müavini işləyir. Yəni, bugünkü təyinat da mənim dediyim sözlərin təsdiqidir: təcrübə və gənclərin novatorluğu. Bax, bu sintez həm cəmiyyətdə mövcud olmalıdır, möhkəmlənməlidir, həm də iqtidar komandasında və bütün idarəetmə strukturlarında. Təcrübəli kadrların bilikləri, hazırlığı, eyni zamanda, gənclərin novatorluğu, dinamizmi, yeniliklərə meyilliliyi - bu prinsiplərin vəhdəti uğurlu inkişafımızı bundan sonra da şərtləndirəcəkdir.

Sizin əsas vəzifəniz ondan ibarət olmalıdır ki, rəhbərlik edəcəyiniz şəhər və rayonda iqtisadi inkişaf təmin edilsin, işsizliklə bağlı problemlər öz həllini tapsın. Siz vətəndaşlarla daim təmasda olmalısınız. Mövcud bütün olan problemləri, ilk növbədə, çox dərindən təhlil etməlisiniz və problemlərin həlli üçün iş planı tutulmalıdır. Təbii ki, problemlərin bir hissəsinin həlli mərkəzi icra orqanlarının səlahiyyətindədir. Belə olan halda, mərkəzi icra orqanları qarşısında məsələ qaldırmalısınız, eyni zamanda, Prezident Administrasiyasına məlumat verməlisiniz. O məsələlər ki, sizin fəaliyyətinizdən asılıdır, onları özünüz həll etməlisiniz və daim vətəndaşlardan onları narahat edən məsələləri eşitməlisiniz. Ona görə vətəndaşlarla sizin ünsiyyətiniz formal xarakter yox, işgüzar xarakter daşımalıdır və bu, sizin iş qrafikinizdə prioritet məsələ olmalıdır.

İşsizliklə bağlı problemlər bütövlükdə Azərbaycanda öz həllini tapır və beynəlxalq qurumlar da bu sahədəki uğurlarımızı qeyd edir. Ancaq mən bunu dəfələrlə demişəm, bəzi qonşu ölkələrdən fərqli olaraq bizim əhalimiz artır. Azərbaycan Cənubi Qafqazda yeganə ölkədir ki, əhali artır və sovet dövründən sonra - müstəqillik illərində təqribən 30 faizə yaxın artıbdır, 7 milyondan 10 milyona çatıbdır. Bütün bunlar, əlbəttə, tələb edir ki, yeni iş yerləri yaradılsın. İş yerlərinin yaradılması üçün investisiya layihələri icra edilməlidir. Ona görə icra başçıları da həm yerli, həm də xarici biznes dairələri ilə sıx təmaslar qurmalıdırlar, şəhər və rayonlara investisiyaları cəlb etməlidirlər ki, yerli istehsal artsın və işsizlik daim aşağı səviyyədə olsun.

Hacıqabul rayonunun potensialının inkişafı üçün mənim göstərişimlə Hacıqabul sənaye zonası yaradılır. Bu zonanın böyük potensialı olacaqdır və orada xüsusi güzəştlər rejimi tətbiq ediləcəkdir. Bilirəm ki, bu, sahibkarlar tərəfindən də yüksək qiymətləndirilir. Belə təcrübə artıq var, həm Sumqayıtda, həm Neftçalada, Masallıda, digər şəhər və rayonlarımızda. Mingəçevirdə sənaye zonaları yaradılıbdır və yaradılır. Ona görə sənaye zonasının fəaliyyətinə böyük diqqət verilməlidir. Digər layihələr, o cümlədən kənd təsərrüfatının inkişafı ilə bağlı olan layihələr icra edilməlidir. Kənd təsərrüfatında məhsuldarlığın artımı gündəlikdə duran əsas məsələlərdən biridir. Hesab edirəm ki, bu il biz rekord göstəriciyə nail olmuşuq. Taxılçılıqda orta məhsuldarlıq hər hektardan 32 sentner olubdur. Bu, son illər ərzində ən yüksək nəticədir və daha da artacaq. Pambıqçılıqda hələ ki yığım başa çatmayıb, az qalıb, amma artıq hektardan 29 sentner pambıq götürmüşük. Pambıqçılar yaxşı bilirlər ki, Azərbaycan tarixində cəmi üç, ya dörd il məhsuldarlıq 30 sentnerə yaxın, yaxud da ondan çox olmuşdur. Onlardan biri də 2019-cu ildir. Ona görə kənd təsərrüfatı, xüsusilə indi, - əlbəttə, bu, Hacıqabul rayonuna aiddir, - inkişaf etməlidir.

Naftalan şəhərini müasir kurort mərkəzinə çevirmək cəhdlərimiz, hesab edirəm ki, çox uğurludur. Mən Prezident kimi ilk dəfə Naftalana gələndə ürəyim ağrıdı, çünki gördüm, demək olar ki, şəhər dağılmış vəziyyətdədir. İnfrastruktur yox, işıq yox, qaz yox, su yox, yollar bərbad. Sovet vaxtında tikilmiş sanatoriyalar dağılmış və şəhərdə minlərlə köçkün məskunlaşmışdı, onların da vəziyyəti çox ağır idi. Ona görə göstəriş verdim və tapşırdım ki, vəsait ayrılsın. İlk növbədə, biz köçkünləri köçürdük və onlar üçün gözəl evlər tikdirdik. Ondan sonra investorları cəlb etdik və onlar investisiya qoymağa başladılar. Bununla paralel olaraq, Naftalan şəhərindəki bütün hündürmərtəbəli binalar əsaslı şəkildə təmir olundu, yeni parklar salındı, mərkəzi şəhər xəstəxanası, beşulduzlu üç hotel - “Çinar”, “Qarabağ” və “Qaşaltı” açıldı. Bütün açılışlarda mən şəxsən iştirak etmişəm. Hazırda dördulduzlu və üçulduzlu hotellərin tikintisi davam etdirilir. Sovet vaxtında Naftalana hər il müalicə üçün 70 min adam gəlmişdi. Biz indi bu hədəfə doğru gedirik. Artıq təqribən 30-40 min insan gəlir dincəlməyə və müalicə almağa. Naftalanı beynəlxalq turizm mərkəzi kimi inkişaf etdirmək bizim başlıca vəzifəmizdir. Şəhər icra hakimiyyəti bu işlərə böyük diqqət verməlidir. Naftalanda yaşayan vətəndaşların mütləq əksəriyyəti xidmət sektorunda fəaliyyət göstərir.

Bir sözlə, sizə göstərilən bu etimad, doğrudan da, sizin üçün böyük avansdır. Çünki indiki şəraitdə kadrlara qarşı tələbkarlıq artır. Kadrlar qarşısında çox ciddi vəzifələr qoyulur, xüsusilə pozuntularla bağlı, rüşvətxorluq, korrupsiya sıfır dərəcəsində olmalıdır. İnvestorları incitməməlisiniz, əksinə, onlara kömək göstərməlisiniz, onları cəlb etməlisiniz ki, vətəndaşlar sizin işinizdən razı qalsınlar. Əgər vətəndaşlar razı olsalar, - atalar sözü var, “Xalqın gözü tərəzidir”, - mən də razı olacağam və sizin fəaliyyətinizə yüksək qiymət verəcəyəm. Yox əgər mənim etimadımı doğrultmasanız, onda sizi çox ciddi cəza gözləyir. Əminəm ki, siz bu məsuliyyəti dərk edirsiniz və müasir dövrün tələblərinə cavab verərək rəhbərlik edəcəyiniz Naftalan şəhərinin, Hacıqabul rayonunun inkişafına öz töhfənizi verəcəksiniz.

# Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri bütün sahələrdə uğurla inkişaf edir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Türkiyə Respublikasının Kənd Təsərrüfatı və Meşəçilik naziri Bekir Pakdemirlinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirildi, Türkiyənin Kənd Təsərrüfatı və Meşəçilik naziri Bekir Pakdemirlinin ölkəmizə səfərinin kənd təsərrüfatı sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi işinə töhfə verdiyi və bu sahədə əlaqələrin genişləndirilməsi ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığı qeyd olundu.

Söhbət zamanı İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin Kənd Təsərrüfatı nazirlərinin Bakıda keçirilən iclasının əhəmiyyətinə toxunuldu, mötəbər beynəlxalq tədbirlərin Azərbaycanda yüksək səviyyədə təşkil olunması məmnunluqla qeyd edildi.

## Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyinin 100 illik yubileyinin qeyd edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2020-ci ilin iyun ayında Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyinin 100 illiyi tamam olur.

Milli Azərbaycan Tarixi Muzeyi mühüm mədəni-maarif və elmi tədqiqat mərkəzi kimi yarandığı vaxtdan etibarən uğurlu inkişaf yolu keçmişdir. Respublikanın bu ilk ən böyük muzeyinin Azərbaycan xalqının qədim zamanlardan müasir dövrə qədərki tarixinin bütün mərhələlərini əks etdirən mədəniyyət nümunələrinin toplanılması, qorunması, nəşri, ekspozisiya və sərgilərdə nümayişi sahəsində diqqətəlayiq xidmətləri vardır. Bakının memarlıq baxımından qiymətli tikililərindən sayılan binada yerləşmiş Muzeyin tarixi-mədəni irsimizin misilsiz yadigarlarının mühafizə olunduğu zəngin elmi fondlarında hazırda üç yüz mindən artıq eksponat saxlanılır. Muzey əməkdaşları tarix, muzeyşünaslıq və numizmatika istiqamətlərində araşdırmalar aparmaqla yanaşı, arxeoloji qazıntılar nəticəsində Azərbaycan tarixinə dair bir sıra abidələr üzə çıxarmış və əsaslı tədqiq etmişlər. Muzey çoxşaxəli fəaliyyətini bu gün də tarix elminin yeni nailiyyətləri və muzeyşünaslığın dünya təcrübəsi ilə təsdiq olunmuş prinsipləri zəminində müvəffəqiyyətlə davam etdirir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycan xalqının çoxəsrlik tarixi-mədəni nailiyyətlərinin təbliğinə, həmçinin ölkədə tarix elminin inkişafına layiqli töhfələrini nəzərə alaraq Milli Azərbaycan Tarixi Muzeyinin 100 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə birlikdə AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinin 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 dekabr 2019-cu il*

## Tailandın Kralı Əlahəzrət Maha Vaciralonqkorn Bodindradebayavaranqkuna

Əlahəzrət!

Tailand Krallığının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu xoş gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Tailand xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 dekabr 2019-cu il*

## Ə.K.Muxtarovun Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Əhməd Kərəm oğlu Muxtarov Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 dekabr 2019-cu il*

## R.G.Xəlilovun Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Rüstəm Gülabba oğlu Xəlilov Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 dekabr 2019-cu il*

## V.V.Novruzovun Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Vüqar Vahid oğlu Novruzov Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 dekabr 2019-cu il*

## “Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 21 may tarixli 2830 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 21 may tarixli 2830 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 5, maddə 419; 2009, № 1, maddə 17; 2010, № 2, maddələr 80, 104, № 9, maddə 773; 2012, № 2, maddə 134; 2014, № 2, maddə 112, № 5, maddə 477, № 11, maddə 1414; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2018, № 8, maddə 1677) 1-ci hissəsi ilə təsdiq edilmiş Komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**“Komissiyanın həmsədri**

Azərbaycan Respublikasının iqtisadiyyat naziri

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Azərbaycan Respublikası maliyyə nazirinin müavini

Azərbaycan Respublikası energetika nazirinin müavini

Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini

Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini

Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini

Azərbaycan Respublikası təhsil nazirinin müavini

Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini

“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti

Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini

Azərbaycan Respublikasının Birləşmiş Ərəb Əmirliklərində fövqəladə və səlahiyyətli səfiri.”.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Birləşmiş Ərəb Əmirlikləri tərəfinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 dekabr 2019-cu il*

# Birinci vitse-prezident Mehriban Əliyeva Xalq artisti Əlibaba Məmmədovun evində qonaq olub

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva dekabrın 4-də milli musiqi mədəniyyətimizin görkəmli nümayəndəsi, Xalq artisti Əlibaba Məmmədovun evində qonaq olub.**







Xalq mahnılarının, muğam ifaçılığının təşəkkülündə özünəməxsus dəstxəti, xidmətləri olan ustad xanəndələrimizdən biri də Xalq artisti Əlibaba Məmmədovdur.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva xalqımızın sevimli ifaçısının evinə qonaq gəldi. Mehriban Əliyevanın gəlişi Əlibaba müəllim üçün gözəl və gözlənilməz bir ziyarət oldu.

**Birinci vitse-prezident Mehriban Əliyeva dedi:** Salam, hörmətli Əlibaba müəllim. Çox şadam sizi görməyə.

**Xalq artisti Əlibaba Məmmədov:** Nə xoşbəxtçilik. Çox böyük zəhmət vermisiniz özünüzə. İnanırsınız ki, Allaha and olsun, mən nə boyda həyəcan keçirirəm ki, mənim üçün böyük bir şəxsiyyət, böyük bir insan bizə qonaq gəlib.

**Birinci vitse-prezident Mehriban Əliyeva:** Sağ olun. Sizi görməyə çox şadam.

**Xalq artisti Əlibaba Məmmədov:** Mən Sizi təbrik etmək istəyirəm, Birinci vitse-prezident seçilməyinizə görə bu, bir. İkincisi, "Heydər Əliyev" ordeni ilə təltif olunduğunuza görə, - bunların hamısına baxmışam, - bu, iki. Üçüncüsü, Rusiyanın Prezidenti Sizə böyük bir mükafat verdi, bütün dünya buna baxırdı. Sizi inandırım ki, mən bunlara hər dəfə baxdıqca həyəcanlanırdım.

**Birinci vitse-prezident Mehriban Əliyeva:** Çox sağ olun, Əlibaba müəllim, çox sağ olun.

**Xalq artisti Əlibaba Məmmədov:** Təbrik edirəm. Siz çox böyük işlər görmüsünüz, hələ də görürsünüz və hələ də görəcəksiniz. Bilirsiniz, amma bu üç iş elə bir işlərdir ki, nə bilim, tarixdən də o yanadır, bunu tarix yaza bilməz, bu, mümkün deyil. Allah Sizi var eləsin.

**Birinci vitse-prezident Mehriban Əliyeva:** Çox sağ olun, Əlibaba müəllim.

**Xalq artisti Əlibaba Məmmədov:** Siz bizim xalqımızın sevimlisisiniz. Bu adı qazanmaq böyük bir şərəfdir. Vallah, düz deyirəm. Siz xalqımızın sevimlisisiniz.

**Birinci vitse-prezident Mehriban Əliyeva:** Mənim üçün belə sözləri sizin kimi insandan eşitmək böyük şərəfdir. İnanın mənə, belə duyğuları hiss etmək çox xoşdur, Əlibaba müəllim.

**Xalq artisti Əlibaba Məmmədov:** Sağ olun. Baxıram, bir dəqiqə buraxmıram, harada olursunuz görürəm, həmişə, necə deyərlər, ürəyimdəsiniz.

**Birinci vitse-prezident Mehriban Əliyeva:** Çox sağ olun, Əlibaba müəllim. Mən də sizə demək istəyirəm ki, çox yaxşı xatırlayıram ilk dəfə sizinlə tanış olmağımızı. O zaman Heydər Əliyev Fondunun böyük bir layihəsinə start verdik. Yəqin ki, yadınızdadır, bizim milli sərvətimiz olan muğamın qorunmasına yönəlmiş bir layihə idi, siz böyük yardım göstərdiniz və bu illər ərzində sizin dəstəyinizlə, iştirakınızla birlikdə böyük işlər gördük. Siz Azərbaycanın görkəmli xanəndələrindən birisiniz. Sizin özünüzə məxsus dəstxətiniz var, çox gözəl səsə malik olan ustadsınız və bütün Azərbaycan xalqının sevimlisisiniz. Sizi hamı sevir. Onu da qeyd etmək istəyirəm ki, siz Azərbaycanın milli-mənəvi ənənələrinin daşıyıcısınız. Ona görə də böyük hörmətə malik olan bir insansınız. Mən sizinlə ünsiyyətdə olanda özüm üçün hər dəfə nəsə yeni bir şey aşkar etmişəm, öyrənmişəm. Siz böyük müəllimsiniz, siz 50 ildən çoxdur ki, musiqi kollecində dərs deyirsiniz və yeni gənc xanəndələr nəslinin yetişməsində sizin misilsiz xidmətləriniz olub. Ona görə Əlibaba müəllim, bir daha çox sağ olun, sizi görməyə çox şadam və ən əsası, sizə möhkəm cansağlığı arzulamaq istəyirəm.

**Xalq artisti Əlibaba Məmmədov:** Çox sağ olun, var olun. Vallah bilmirəm nə deyim, mən çox söz bilirəm, mən hər şeyi bilirəm, amma Sizi görmüşəm yadımdan çıxıb. Mən də Sizi təbrik edirəm. Məsələ burasındadır ki, Putinin dediyi o sözləri bütün dünya eşitdi. Hamımız fəxr etdik. Bilirsiniz də, bu, hörmət, qayğı idi, çox gözəl hadisə idi. Siz mənə bir ağsaqqal, sənətkar kimi həmişə hörmət etmisiniz, qayğı göstərmisiniz. Mən Sizin qayğınızı heç vaxt unutmamışam, heç vaxt da unutmayacağam, heç mümkün də deyil.

**Birinci vitse-prezident Mehriban Əliyeva:** Çox sağ olun.

**Xalq artisti Əlibaba Məmmədov:** Amma bir şeyi də qeyd edim ki, Siz məni təzədən tarixə salmısınız. Nəyə görə, mənim 100 dənə mahnım var, mən onları 50 ildə yaratmışam, hər ildə 2 dənəsini.

**Birinci vitse-prezident Mehriban Əliyeva:** Özü də çox gözəl mahnılardır.

**Xalq artisti Əlibaba Məmmədov:** Bu mahnılar əlli ildir camaatın dilində oxunur. Mən Sizdən xahiş etdim ki, onlar itməsin, batmasın, o mənfur qonşularımız götürüb deyirdilər ki, bizimdir. Siz də o saat çox böyük həvəslə gözəl bir layihə yaratdınız.

**Birinci vitse-prezident Mehriban Əliyeva:** Elədir. Bu, bizim mədəni irsimizdir, Əlibaba müəllim. Sizin yaradıcılıq irsiniz Azərbaycan xalqının mədəni irsidir. Əlbəttə, biz bunu saxlamalıyıq, qorumalıyıq.

**Xalq artisti Əlibaba Məmmədov:** Doğrudan da, Siz təkcə mənə yox, xalqa böyük xidmət etdiniz. Xalqımızın musiqisi zənginləşdi, yüz dənə mahnı var, hamısı xalq mahnısıdır. Özü də orada yad nəfəslər heç vaxt olmayıb, yenə də olmayacaq. O yaxşılığı mən necə unudum, kim unuda bilər? Xalqımız da unutmayacaq. Bilirsiniz, Siz çox işlər görmüsünüz, danışmaqla qurtarmır. Amma mən bu sözü deyirəm ki, Siz xalqın sevimlisisiniz, bu, böyük şərəfdir. Xalq sevsə sənətkarı, ona dağ bata bilməz.

**Birinci vitse-prezident Mehriban Əliyeva:** Çox sağ olun. Mənim üçün böyük şərəfdir belə sözləri sizdən eşitmək. İnanın mənə, doğrudan, böyük şərəfdir. Çox sağ olun.

**Xalq artisti Əlibaba Məmmədov:** Mən olanı deyirəm, vallah, Siz çox xeyirxah adamsınız. Çox xeyirxah işlər görürsünüz, zəmanəmizin Hacı Zeynalabdinisiniz.

**Birinci vitse-prezident Mehriban Əliyeva:** Sağ olun, Əlibaba müəllim. Mən Prezidentin də böyük salamlarını sizə çatdırıram.

**Xalq artisti Əlibaba Məmmədov:** Prezidentimizi də bağrıma basıram.

**Birinci vitse-prezident Mehriban Əliyeva:** O, sizi çox sevir, dedi ki, mənim böyük salamlarımı Əlibaba müəllimə çatdır. Sizə möhkəm cansağlığı arzuladı.

**Xalq artisti Əlibaba Məmmədov:** Sağ olsun, var olsun. Öz aramızdı, baxın, 15 ildə nə qədər işlər görmüsünüz, kim edə bilər? Prezidentimiz 15 ildir bizə rəhbərlik edir, xalqımızı idarə edir. Baxın, görün, Azərbaycan o Azərbaycandır, Bakı o Bakıdır?

**Birinci vitse-prezident Mehriban Əliyeva:** Bəli, ölkəmizdə böyük işlər görülüb.

**Xalq artisti Əlibaba Məmmədov:** Böyük işlər görüb, yenə də görür, indi lap böyük işlər görür. Bunun hamısını yerinə qoyub. Bilirsiniz, mən siyasətçi deyiləm, mən muğam ifaçısıyam, az-dan-çoxdan şeiriyyət bilirəm, bir də muğamat bilirəm. Başqa bir şeylə işim yoxdur. Amma gözüm görür də, vallah. Bəzən deyirəm ki, bunların ağlı yoxdur, gözləri də yoxdur? Baxmırlar, görmürlər ki, nə işlər görülür? Xalqımızın adından, musiqiçilərin adından, öz adımdan deyirəm ki, var olun, dünyada nə gözəl şeylər var hamısı Sizə qismət olsun.

**Birinci vitse-prezident Mehriban Əliyeva:** Çox sağ olun. Mən sizin dəstəyinizi hər zaman hiss etmişəm.

Sonda Birinci vitse-prezident Mehriban Əliyeva milli musiqi mədəniyyətimizin görkəmli nümayəndəsi, Xalq artisti, muğam, təsnif və xalq mahnılarının mahir ifaçısı Əlibaba Məmmədova cansağlığı və gələcək fəaliyyətində uğurlar arzuladı.

# AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

## "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli Qərarının Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair

## Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun QƏRARI

**4 dekabr 2019-cu il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze (məruzəçi-hakim), Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə, məhkəmə katibi Fəraid Əliyevin, sorğuverən orqanın nümayəndəsi Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri Gündüz Kərimovun, cavabverən orqanın nümayəndələri Azərbaycan Respublikası Milli Məclisinin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli və Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri Səfa Mirzəyevin, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Nəsib Şükürovun iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-ci bəndinə müvafiq olaraq Azərbaycan Respublikası Prezidentinin sorğusu əsasında konstitusiya məhkəmə icraatı qaydasında "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli Qərarının Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair konstitusiya işinə baxdı.

İş üzrə hakim R.Qvaladzenin məruzəsini, tərəflərin nümayəndələrinin çıxışlarını və ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**M Ü Ə Y Y Ə N E T D İ:**

Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət edərək "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli Qərarının Azərbaycan Respublikası Konstitusiyasının $98^1$-ci maddəsinin I hissəsinə uyğunluğunun yoxlanılmasını məqsədəmüvafiq hesab etmişdir.

Sorğuda göstərilmişdir ki, Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının 99 səs çoxluğu ilə "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Qərar qəbul edilmişdir.

Həmin Qərar ilə Azərbaycan Respublikasının Prezidentindən Azərbaycan Respublikası Konstitusiyasının $98^1$-ci maddəsinə əsasən Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi xahiş edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti hesab etmişdir ki, Azərbaycan Respublikası Milli Məclisinin Qərarı üzrə yekun qərar qəbul etməzdən əvvəl hazırkı şəraitdə Azərbaycan Respublikası Milli Məclisinin buraxılmasının Azərbaycan Respublikası Konstitusiyasının $98^1$-ci maddəsinə uyğunluğuna dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin mövqeyinin öyrənilməsi zəruridir.

Azərbaycan Respublikası Prezidentinin sorğusu ilə bağlı Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakıları qeyd edir.

Sorğudan və ona əlavə edilmiş sənədlərdən göründüyü kimi, Azərbaycan Respublikasının Milli Məclisi "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" 2019-cu il 2 dekabr tarixli 1717-VQR nömrəli Qərar qəbul etmişdir.

Həmin Qərara əsasən, Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının mütləq əksəriyyəti hesab etmişdir ki, Azərbaycan Respublikasında həyata keçirilən köklü islahatların daha da sürətləndirilməsi üçün Azərbaycan Respublikası Milli Məclisinin də fəaliyyətinin təkmilləşdirilməsinə, səmərəliliyinin artırılmasına, yenilənməsinə, ölkənin dinamik inkişafı və hərtərəfli dərin islahatlar strategiyasına uyğunlaşdırılmasına ehtiyac duyulur. Qərarda, həmçinin qeyd edilmişdir ki, Azərbaycan Respublikasının Milli Məclisi ölkədə həyata keçirilən islahatların genişləndirilməsi və dərinləşdirilməsi prosesindən kənarda qalmamalıdır. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının mütləq əksəriyyəti belə vəziyyətdə parlament fəaliyyətinin həyata keçirilməsinin mümkün olmayacağı qənaətinə gəlmiş və növbədənkənar seçkilərin keçirilməsinin zəruri olduğunu bildirmişdir.

Sorğuda qaldırılan məsələnin həlli üçün Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Azərbaycan Respublikası Konstitusiyasının bəzi normalarına diqqət yetirilməsini vacib hesab edir.

Azərbaycan Respublikası Konstitusiyasının 81-ci maddəsinə görə, Azərbaycan Respublikasında qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir.

Azərbaycan Respublikası Konstitusiyasının 82-ci maddəsinə müvafiq olaraq, Azərbaycan Respublikasının Milli Məclisi 125 deputatdan ibarətdir.

Azərbaycan Respublikası Konstitusiyasının 84-cü maddəsinin I hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Milli Məclisinin hər çağırışının səlahiyyət müddəti 5 ildir.

Azərbaycan Respublikası Konstitusiyasının $98^1$-ci maddəsinin I hissəsinə əsasən, Azərbaycan Respublikası Milli Məclisinin eyni çağırışı bir il ərzində iki dəfə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimadsızlıq göstərdikdə və ya Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin və Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin kollegial fəaliyyəti üçün zəruri olan sayda üzvlüyə namizədləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən iki dəfə təqdim edildikdən sonra, qanunla müəyyən edilmiş müddətdə təyin etmədikdə, habelə bu Konstitusiyanın 94-cü və 95-ci maddələrində, 96-cı maddəsinin II, III, IV və V hissələrində, 97-ci maddəsində göstərilən vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etmədikdə Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Milli Məclisini buraxır.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu məsələnin həlli üçün Azərbaycan Respublikası Konstitusiyasının $98^1$-ci maddəsinin I hissəsində nəzərdə tutulan "vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etmədikdə" müddəasının yaranmış vəziyyətə uyğun açıqlanmasını zəruri hesab edir.

Azərbaycan Respublikasının Milli Məclisi hakimiyyətin bölünməsi prinsipinə əsasən qanunvericilik hakimiyyətini həyata keçirdiyi üçün əsas vəzifəsi qanunların və qərarların qəbul edilməsidir və onun müəyyən etdiyi ümumi qaydalar, habelə həll etdiyi məsələlər Azərbaycan Respublikası Konstitusiyasının 94-cü və 95-ci maddələrində təsbit edilmişdir.

Müasir demokratik cəmiyyət üçün parlamentin fəallığı böyük əhəmiyyət kəsb edir. Qabaqcıl və mütərəqqi hüquqi aktların qəbul edilməsi ölkədə ictimai münasibətlərin ədalət və hüququn aliliyi əsasında tənzimlənməsini təmin edir. Bu baxımdan, qanunvericinin üzərinə düşən vəzifələrin məhz ölkənin sürətli inkişafına cavab verəcək şəkildə həyata keçirilməsi vacibdir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Azərbaycan Respublikası Konstitusiyasının $98^1$-ci maddəsində təsbit edilmiş "vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etmədikdə" müddəası ilə bağlı qeyd edir ki, aradan qaldırıla bilməyən səbəblər dedikdə, parlamentin mövcud tərkibdə vəzifələrinin icra edilməsini qeyri-mümkün edən səbəblər başa düşülür. Bu baxımdan, Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyası ilə ona verilmiş səlahiyyətlərinin həyata keçirilməsi ilə bağlı fəaliyyətini obyektiv qiymətləndirməklə öz işini davam etdirib-etdirməməsinin mümkünlüyünə dair qərar qəbul edə bilər.

Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli Qərarından da göründüyü kimi, Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının mütləq əksəriyyəti parlament fəaliyyətinin həyata keçirilməsinin mümkünsüzlüyü barədə qəti mövqe ortaya qoymuşdur.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının mütləq əksəriyyətinin parlamentin öz səlahiyyətlərini artıq həyata keçirə bilməməsi barədə qəti mövqeyinin formalaşmasını nəzərə alaraq hesab edir ki, "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli Qərarı Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycan Respublikası Milli Məclisinin buraxılması üçün Azərbaycan Respublikası Konstitusiyasının $98^1$-ci maddəsinin I hissəsində müəyyən edilmiş əsası yaradır.

Belə olan halda Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli 1717-VQR nömrəli Qərarı əsasında Azərbaycan Respublikası Milli Məclisinin buraxılması Azərbaycan Respublikası Konstitusiyasının $98^1$-ci maddəsinə uyğundur.

Həmçinin qeyd edilməlidir ki, parlament buraxıldıqda qanunvericilik hakimiyyətinin fasiləsiz fəaliyyətinin təmin edilməsi, növbədənkənar parlament seçkilərinin keçirilməsi zamanı parlamentin səlahiyyətlərinin müəyyən dərəcədə saxlanılması zəruridir.

Bununla bağlı qeyd edilməlidir ki, Azərbaycan Respublikası Konstitusiyasının 111-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası ərazisinin müəyyən hissəsi faktik işğal olunduqda, xarici dövlət və ya dövlətlər Azərbaycan Respublikasına müharibə elan etdikdə, Azərbaycan Respublikasına qarşı real silahlı hücum təhlükəsi yarandıqda, Azərbaycan Respublikasının ərazisi blokadaya alındıqda, habelə blokada üçün real təhlükə olduqda Azərbaycan Respublikasının bütün ərazisində və ayrı-ayrı yerlərində hərbi vəziyyət elan edir və bu barədə qəbul etdiyi fərmanı 24 saat müddətində Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə verir.

Azərbaycan Respublikası Konstitusiyasının 112-ci maddəsinə görə isə, Azərbaycan Respublikasının Prezidenti təbii fəlakətlər, epidemiyalar, epizootiyalar, böyük ekoloji və başqa qəzalar baş verdikdə, habelə Azərbaycan Respublikasının ərazi bütövlüyünün pozulmasına, dövlətə qarşı qiyama və ya dövlət çevrilişinə yönəldilən hərəkətlər edildikdə, zorakılıqla müşayiət olunan kütləvi iğtişaşlar yarandıqda, vətəndaşların həyatı və təhlükəsizliyi, yaxud dövlət təsisatlarının normal fəaliyyəti üçün qorxu törədən digər münaqişələr meydana gəldikdə Azərbaycan Respublikasının ayrı-ayrı yerlərində fövqəladə vəziyyət tətbiq edir və bu barədə qəbul etdiyi fərmanı 24 saat müddətində Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə verir.

Göründüyü kimi, Azərbaycan Respublikası Milli Məclisinin fəaliyyəti dövlətin, cəmiyyətin və insanların qorunması üçün Azərbaycan Respublikası Prezidentinin hərbi və fövqəladə vəziyyətin elan edilməsi barədə fərmanlarının təsdiq olunması və s. bu kimi həyati əhəmiyyətli funksiyaların həyata keçirilməsi ilə də bağlıdır. Buna görə həmin funksiyaların icrası ilə bağlı Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyətlərinin parlamentin yeni tərkibi formalaşanadək saxlanılması zəruri hesab edilməlidir.

Eyni zamanda, Azərbaycan Respublikası Milli Məclisinin deputatları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərlə, habelə bir sıra beynəlxalq təşəbbüslərlə bağlı müxtəlif beynəlxalq parlamentlərarası əməkdaşlıq qurumlarının fəaliyyətində iştirak edirlər. Bu səbəbdən parlament buraxıldıqdan sonra da həmin səlahiyyətlərin müvəqqəti saxlanılması zəruri hesab edilir.

Qeyd olunanları nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Azərbaycan Respublikası Milli Məclisinin yeni çağırışı fəaliyyətə başlayanadək müstəsna olaraq Azərbaycan Respublikası Konstitusiyasının 111-ci və 112-ci maddələrində, 95-ci maddəsinin I hissəsinin 16-cı və 17-ci bəndlərində nəzərdə tutulmuş səlahiyyətlərin, habelə beynəlxalq təşkilatlarda təmsilçilik funksiyalarının həyata keçirilməsi üçün V çağırış Azərbaycan Respublikası Milli Məclisinin müvafiq səlahiyyətlərinin saxlanılması zəruridir.

Göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

- "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli 1717-VQR nömrəli Qərarı Azərbaycan Respublikası Konstitusiyasının $98^1$-ci maddəsinin I hissəsinə uyğun hesab edilməlidir;
- "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli 1717-VQR nömrəli Qərarı əsasında Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən buraxılması Azərbaycan Respublikası Konstitusiyasının $98^1$-ci maddəsinə uyğun hesab edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-ci bəndini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 52, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**Q Ə R A R A A L D I:**

1. "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli 1717-VQR nömrəli Qərarı Azərbaycan Respublikası Konstitusiyasının $98^1$-ci maddəsinin I hissəsinə uyğun hesab edilsin.
2. "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli 1717-VQR nömrəli Qərarı əsasında Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən buraxılması Azərbaycan Respublikası Konstitusiyasının $98^1$-ci maddəsinə uyğun hesab edilsin.
3. Qərar elan edildiyi andan qüvvəyə minir.
4. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində, "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.
5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

*Sədr* *Fərhad ABDULLAYEV*

# Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında

## Azərbaycan Respublikasının Qanunu

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə və 96-cı maddəsinin VI hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydasını müəyyən edir və bu sahədə yaranan münasibətləri tənzimləyir.

**Maddə 1. Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququ**

Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinin I hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Milli Məclisində qanunvericilik təşəbbüsü hüququ (qanun layihəsini və başqa məsələləri Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə təqdim etmək hüququ) Azərbaycan Respublikasının seçki hüququ olan 40 min vətəndaşına mənsubdur.

**Maddə 2. Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə ilə bağlı Azərbaycan Respublikasının qanunvericiliyi**

Azərbaycan Respublikasının seçki hüququ olan 40 min vətəndaşının qanunvericilik təşəbbüsü (bundan sonra - vətəndaşların qanunvericilik təşəbbüsü) hüququndan istifadə ilə bağlı Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunundan, bu Qanundan, Azərbaycan Respublikasının Seçki Məcəlləsindən, digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

**Maddə 3. Vətəndaşların qanunvericilik təşəbbüsü qaydasında təqdim etdiyi qanun (qərar) layihəsinə dair tələblər**

3.1. Vətəndaşların qanunvericilik təşəbbüsü qaydasında təqdim etdiyi qanun layihəsi "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 50-ci, 53-58-ci və 62.4-cü maddələrində müəyyən edilmiş tələblərə uyğun olmalıdır.

3.2. Vətəndaşların qanunvericilik təşəbbüsü qaydasında təqdim etdiyi qanun (qərar) layihəsində (bundan sonra - layihə) aşağıdakı məsələlər nəzərdə tutula bilməz:

3.2.1. dövlət büdcəsi, dövlət rüsumu, vergilər və gömrük işi;

3.2.2. əmək haqqının məbləği və onun ödənilməsi qaydası;

3.2.3. cinayət və ya inzibati xətalar;

3.2.4. ailə münasibətləri;

3.2.5. ərazi quruluşu və inzibati ərazi bölgüsü;

3.2.6. dövlətlərarası və Azərbaycan Respublikasının qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası müqavilələrin təsdiq və ləğv edilməsi;

3.2.7. seçki və referendum;

3.2.8. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad;

3.2.9. amnistiya;

3.2.10. seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi müvafiq olaraq qanunvericilik və (və ya) icra hakimiyyəti orqanlarının səlahiyyətlərinə aid edilmiş vəzifəli şəxslərin seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi.

3.3. Vətəndaşların qanunvericilik təşəbbüsü qaydasında Konstitusiya qanunlarının layihələri təqdim oluna bilməz.

**Maddə 4. Vətəndaşların qanunvericilik təşəbbüsü hüququndan istifadə ilə bağlı təşəbbüs qrupunun yaradılması**

4.1. Layihəni Azərbaycan Respublikası Milli Məclisinin (bundan sonra - Milli Məclis) müzakirəsinə təqdim etmək təklifi ilə çıxış edən seçki hüququ olan ən azı 300 nəfər Azərbaycan Respublikasının vətəndaşı tərəfindən vətəndaşların qanunvericilik təşəbbüsü hüququndan istifadə ilə bağlı təşəbbüs qrupu (bundan sonra - təşəbbüs qrupu) yaradılır.

4.2. Bir təşəbbüs qrupu öz fəaliyyəti dövründə yalnız bir layihəni Milli Məclisin müzakirəsinə təqdim etmək təklifi ilə çıxış edə bilər.

4.3. Təşəbbüs qrupunun yaradılmasının məqsədləri Milli Məclisin müzakirəsinə təqdim edilməsi təklif olunan layihənin dəstəklənməsi üçün imza toplanması və qanunvericilik təşəbbüsü ilə çıxış edən vətəndaşların mənafelərinin müdafiə edilməsidir.

4.4. Təşəbbüs qrupunun ilk iclasında onun yaradılması barədə qərar qəbul olunur, təşəbbüs qrupunun sədri və ən azı iki sədr müavini, həmçinin seçki dairələri üzrə koordinatorları seçilir və təklif olunan layihənin mətni təsdiq olunur. Həmin iclasın protokolu iclasın sədri və katibi tərəfindən imzalanır və iclasda iştirak edən vətəndaşların siyahısı protokola əlavə olunur. Bu siyahıda onların soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, şəxsiyyət vəsiqəsinin nömrəsi və etibarlılıq müddəti, həmçinin vətəndaşın təklif olunan layihənin lehinə və ya əleyhinə səs verməsi qeyd olunur. Siyahıda qeyd edilən hər bir vətəndaş özünə aid məlumatları imzası ilə təsdiq edir.

4.5. Təşəbbüs qrupunu onun sədri təmsil edir. Sədr müvəqqəti olmadıqda onun səlahiyyətlərini sədrin müəyyən etdiyi müavinlərdən biri icra edir.

4.6. Təşəbbüs qrupunun iclası onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Təşəbbüs qrupunun iclasında qərarlar sadə səs çoxluğu ilə qəbul edilir.

**Maddə 5. Təşəbbüs qrupunun və layihənin qeydiyyatı**

5.1. Təşəbbüs qrupu onun yaradıldığı gündən bir ay ərzində təşəbbüs qrupunun və təklif olunan layihənin qeydiyyata alınması üçün ərizə ilə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) müraciət edir.

5.2. Təşəbbüs qrupunun və təklif olunan layihənin qeydiyyata alınması barədə ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

5.2.1. bu Qanunun 4.4-cü maddəsinə uyğun olaraq tərtib olunmuş təşəbbüs qrupunun yaradılması, onun sədrinin və müavinlərinin, həmçinin seçki dairələri üzrə koordinatorlarının seçilməsi və layihənin təsdiqi barədə iclas protokolu və həmin protokola əlavə edilən iclas iştirakçılarının siyahısı;

5.2.2. bu Qanunun 3-cü maddəsində müəyyən edilmiş tələblərə uyğun olaraq tərtib edilmiş layihə (kağız daşıyıcısında və eyni zamanda, elektron daşıyıcıda);

5.2.3. layihənin qəbul edilməsi zərurətinin əsaslandırılması;

5.2.4. layihəyə dair ekspert rəyləri;

5.2.5. layihəni hazırlamış şəxslərin siyahısı;

5.2.6. layihəyə aid digər sənədlər (təşəbbüs qrupunun qərarına əsasən).

5.3. Bu Qanunun 5.2-ci maddəsində nəzərdə tutulan sənədlər Mərkəzi Seçki Komissiyasına daxil olduğu gündən iki ay ərzində Mərkəzi Seçki Komissiyası tərəfindən təşəbbüs qrupunun və təklif olunan layihənin bu Qanuna uyğun olaraq qeydiyyata alınması və yaxud bundan imtina edilməsi barədə qərar qəbul edilir.

5.4. Mərkəzi Seçki Komissiyası təşəbbüs qrupunun təqdim etdiyi sənədlər əsasında təşəbbüs qrupunun yaradılmasının bu Qanunun tələblərinə uyğunluğunu yoxlayır. Təşəbbüs qrupunun təqdim etdiyi layihə və bu Qanunun 5.2.3-5.2.6-cı maddələrində göstərilən sənədlər layihənin bu Qanunun 3-cü maddəsində müəyyən edilmiş tələblərə uyğun olub-olmaması barədə bir ay ərzində rəyin hazırlanması üçün Mərkəzi Seçki Komissiyası tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) göndərilir. Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaitinin istifadəsini nəzərdə tutan layihə və bu Qanunun 5.2.3-5.2.6-cı maddələrində göstərilən sənədlər "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğun olaraq bir ay ərzində maliyyə ekspertizası rəyinin hazırlanması üçün həmçinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) göndərilir.

5.5. Təşəbbüs qrupunun və təklif olunan layihənin qeydiyyata alınması barədə qərar qəbul edildiyi gündən həmin layihə Milli Məclisə təqdim edilənədək layihədə dəyişiklik edilə bilməz.

5.6. Təşəbbüs qrupunun və təklif olunan layihənin qeydiyyata alındığı gündən 3 iş günü müddətində təşəbbüs qrupunun və təklif olunan layihənin qeydiyyata alınması barədə qərarın surəti və imza toplanması üçün imza vərəqələrinin nümunəsi təşəbbüs qrupunun sədrinə təqdim edilir, həmçinin təşəbbüs qrupunun sədrinə, müavinlərinə və seçki dairələri üzrə koordinatorlarına müvafiq vəsiqələr verilir.

5.7. İmza toplanması üçün imza vərəqələrinin və təşəbbüs qrupunun sədrinə, müavinlərinə və seçki dairələri üzrə koordinatorlarına verilən vəsiqələrin nümunələri Mərkəzi Seçki Komissiyası tərəfindən təsdiq olunur.

5.8. Təşəbbüs qrupunun və təklif olunan layihənin qeydiyyata alınmasından aşağıdakı hallarda imtina edilir:

5.8.1. təşəbbüs qrupunun yaradılmasının bu Qanunla müəyyən edilmiş qaydası pozulduqda;

5.8.2. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəyinə əsasən təşəbbüs qrupunun təqdim etdiyi layihə bu Qanunun 3-cü maddəsində müəyyən edilmiş tələblərə uyğun olmadıqda;

5.8.3. Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaitinin istifadəsini nəzərdə tutan layihəyə dair müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəyinə əsasən layihənin tətbiqinin maliyyələşdirilməsi üçün müvafiq vəsait olmadıqda.

5.9. Təşəbbüs qrupunun və təklif olunan layihənin qeydiyyata alınmasından imtina barədə Mərkəzi Seçki Komissiyasının qərarından apelyasiya instansiyası məhkəməsinə şikayət verilə bilər.

**Maddə 6. Layihənin dəstəklənməsi üçün vətəndaşların imzalarının toplanması qaydası**

6.1. Milli Məclisin müzakirəsinə təqdim edilməsi təklif olunan layihənin dəstəklənməsi üçün vətəndaşların imzalarının toplanması təşəbbüs qrupunun və təklif olunan layihənin qeydiyyata alındığı gündən iki ay ərzində yalnız təşəbbüs qrupunun üzvləri tərəfindən həyata keçirilir.

6.2. Təşəbbüs qrupunun üzvləri Azərbaycan Respublikasının seçki hüququ olan ən azı 40 min vətəndaşının imzasını toplamalıdırlar. İmzaların toplanması ən azı 60 seçki dairəsinin ərazisini əhatə etməli və hər seçki dairəsinin ərazisindən ən azı 500 imza toplanmalıdır.

6.3. İmza toplanması üçün imza vərəqəsində layihənin adı, imza toplayan təşəbbüs qrupu üzvünün soyadı, adı, atasının adı, şəxsiyyət vəsiqəsinin nömrəsi və etibarlılıq müddəti, təşəbbüs qrupunun və təklif olunan layihənin qeydiyyata alınması barədə qərarın tarixi və nömrəsi, təklif olunan layihəni dəstəkləyən vətəndaşın soyadı, adı, atasının adı, yaşayış yerinin ünvanı, şəxsiyyət vəsiqəsinin nömrəsi və etibarlılıq müddəti göstərilməlidir.

6.4. Təşəbbüs qrupunun imza toplayan üzvü vətəndaşa təklif olunan layihənin tam mətnini təqdim etməli, layihənin məzmununu izah etməli və oxuması üçün vaxt verməlidir.

6.5. Bir imza vərəqəsinə yalnız eyni seçki dairəsinin ərazisi üzrə seçici siyahılarında olan vətəndaşlar daxil edilir.

6.6. Layihəni dəstəkləyən vətəndaş imza vərəqəsində öz imzasını qoyur, soyadını yazır və imzalama tarixini qeyd edir.

6.7. Layihəni dəstəkləyən vətəndaş yalnız bir dəfə imza qoya bilər.

6.8. Dövlət orqanlarının, bələdiyyə qurumlarının və mülkiyyət formasından asılı olmayaraq hüquqi şəxslərin imza toplanmasında iştirakına yol verilmir. İmza toplanması prosesində vətəndaşları imza qoymağa məcbur etmək və ya imza qoymağa imkan verməmək, yaxud bunlara görə onları hər hansı formada mükafatlandırmaq qadağandır.

6.9. İmza toplanması prosesinin və vətəndaşların qanunvericilik təşəbbüsü hüququndan istifadə ilə bağlı bu Qanunla nəzərdə tutulan digər tədbirlərin maliyyələşdirilməsi üçün xarici dövlətlərin, beynəlxalq təşkilatların, xarici hüquqi şəxslərin, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, həmçinin təsisçisi xarici dövlət, beynəlxalq təşkilat, xarici hüquqi şəxs, əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olan hüquqi şəxslərin vəsaitindən istifadə oluna bilməz. Bu qadağaya əməl olunmaması müvafiq məhkəmə tərəfindən təsdiqlənərsə, bu, Mərkəzi Seçki Komissiyası tərəfindən təşəbbüs qrupunun və təklif olunan layihənin qeydiyyata alınması barədə qərarının ləğv edilməsi üçün əsas hesab edilir.

6.10. Azərbaycan Respublikasının seçki hüququ olan ən azı 40 min vətəndaşının imzası toplandıqdan sonra vətəndaşların imzalarının toplanmasının nəticələri haqqında protokol tərtib edilir, təşəbbüs qrupunun sədri və seçki dairələri üzrə koordinatorları tərəfindən imzalanır.

6.11. Vətəndaşların imzalarının toplanmasının nəticələri haqqında protokolun nümunəsi Mərkəzi Seçki Komissiyası tərəfindən təsdiq olunur.

**Maddə 7. İmza vərəqələrində olan məlumatların yoxlanılması və imza toplanmasının nəticələrinin təsdiqi**

7.1. Bu Qanunun 6.10-cu maddəsində nəzərdə tutulan protokol imzalandığı gündən bir ay ərzində həmin protokolun 2 nüsxəsi və imza vərəqələri təşəbbüs qrupu tərəfindən Mərkəzi Seçki Komissiyasına təqdim olunur. Mərkəzi Seçki Komissiyasına təqdim edilən imza vərəqələri nömrələnməli və qovluq formasında səhifələnməlidir.

7.2. Mərkəzi Seçki Komissiyası sənədləri qəbul edərkən imza vərəqələri olan hər bir qovluğu möhürü ilə təsdiqləyir, təqdim olunmuş imza vərəqələrinin sayının vətəndaşların imzalarının toplanmasının nəticələri haqqında protokola uyğunluğunu yoxlayır, sonra isə onların qəbul edilmə tarixini qeyd edərək təşəbbüs qrupunun sədrinə, qəbul edilmiş imza vərəqələrinin sayını və oradakı imzaların sayını göstərməklə, sənədlərin qəbulu barədə yazılı arayış verir.

7.3. Mərkəzi Seçki Komissiyası iki ay müddətində Azərbaycan Respublikası Seçki Məcəlləsinin 59-cu maddəsi ilə müəyyən edilmiş qaydada imza vərəqələrində olan məlumatların düzgünlüyünü, həmçinin təşəbbüs qrupunun bu Qanunun tələblərinə riayət etməsini yoxlayır.

7.4. Aşağıdakı imzalar qeyri-düzgün (etibarsız) hesab edilir:

7.4.1. Azərbaycan Respublikası Seçki Məcəlləsinin 59-cu maddəsinə əsasən qeyri-düzgün (etibarsız) hesab edilən imza;

7.4.2. bu Qanunun 6.6-6.9-cu maddələrinin tələbləri pozulmaqla toplanmış imza;

7.4.3. imza vərəqəsinə imza qoymuş vətəndaşlar eyni seçki dairəsinin ərazisi üzrə seçici siyahılarında olmadıqda, yaxud imza vərəqəsi imza toplayan təşəbbüs qrupunun üzvü tərəfindən imzalanmadıqda və ya onun imzası qeyri-düzgün olduqda həmin imza vərəqəsindəki bütün imzalar.

7.5. İmza vərəqələrinin yoxlanılmasının nəticələri haqqında Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun olaraq yaradılmış işçi qrupunun rəhbəri (Mərkəzi Seçki Komissiyasının həlledici səs hüquqlu üzvü) tərəfindən protokol tərtib edilir, imzalanır və qərar qəbul olunması üçün Mərkəzi Seçki Komissiyasına təqdim edilir. Protokolda vətəndaşların yoxlanılmış imzalarının sayı, habelə əsası qeyd olunmaqla etibarsız sayılmış imzaların sayı göstərilir. Protokol Mərkəzi Seçki Komissiyasının müvafiq qərarına əlavə olunur.

7.6. Bu Qanunun 7.7-ci maddəsində nəzərdə tutulan hallar olmadıqda, Mərkəzi Seçki Komissiyası tərəfindən təşəbbüs qrupunun bu Qanunun tələblərinə riayət etməsi barədə qərar qəbul edilir. Həmin qərarın və bu Qanunun 7.5-ci maddəsində nəzərdə tutulan protokolun surəti qərarın qəbul edildiyi gündən 3 iş günü müddətində təşəbbüs qrupunun sədrinə təqdim olunur.

7.7. Təşəbbüs qrupunun bu Qanunun tələblərinə riayət etməməsi barədə Mərkəzi Seçki Komissiyasının qərarının qəbul edilməsi üçün əsaslar aşağıdakılardır:

7.7.1. imzaların toplanması zamanı bu Qanunun 6.8-ci və 6.9-cu maddələrinin tələblərinin pozulması;

7.7.2. bu Qanunun 7.1-ci maddəsində göstərilən sənədlərin düzgün rəsmiləşdirilməməsi və ya olmaması;

7.7.3. etibarlı imzaların lazımi saydan az olması.

7.8. Bu Qanunun 7.7.2-ci maddəsində göstərilən hallar müəyyən edildikdə, təşəbbüs qrupunun sədrinə bu barədə yazılı məlumat verilir və müvafiq çatışmazlıqların Mərkəzi Seçki Komissiyasının müvafiq iclasının tarixinə ən geci 3 iş günü qalanadək aradan qaldırılması üçün vaxt verilir.

7.9. Cinayət məsuliyyətinə səbəb ola biləcək hüquqpozmanın əlamətləri aşkar edildikdə Mərkəzi Seçki Komissiyası təqsirli olan şəxslərin məsuliyyətə cəlb edilməsi məsələsinə baxılması üçün müvafiq sənəd və materialları Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərir.

7.10. Təşəbbüs qrupunun bu Qanunun tələblərinə riayət etməməsi barədə Mərkəzi Seçki Komissiyasının qərarının və bu Qanunun 7.5-ci maddəsində nəzərdə tutulan protokolun surəti həmin qərarın qəbul edildiyi gündən 3 iş günü müddətində təşəbbüs qrupunun sədrinə təqdim olunur. Lazımi sayda imzaların olmadığı aşkar olunduğu hallarda təşəbbüs qrupu bu Qanunun 7.5-ci maddəsində nəzərdə tutulan protokolun surəti ilə yanaşı, imzaların etibarsız sayılmasının əsasları göstərilməklə müvafiq qovluğun nömrəsi, müvafiq imza vərəqəsindəki sətrin nömrəsi qeyd olunan yoxlamanın nəticəsi barədə cədvəlin surətini də almaq hüququna malikdir.

7.11. Təşəbbüs qrupunun bu Qanunun tələblərinə riayət etməməsi barədə Mərkəzi Seçki Komissiyasının qərarından apelyasiya instansiyası məhkəməsinə şikayət verilə bilər.

**Maddə 8. Layihənin Milli Məclisə təqdim edilməsi və müzakirəsi**

8.1. Təşəbbüs qrupunun bu Qanunun tələblərinə riayət etməsi barədə Mərkəzi Seçki Komissiyasının qərarı qəbul edildiyi gündən bir ay ərzində layihə və bu Qanunun 5.2.3-5.2.6-cı maddələrində göstərilən sənədlər təşəbbüs qrupu tərəfindən Milli Məclisə təqdim olunur.

8.2. Layihə təqdim olunmuş şəkildə iki ay ərzində Milli Məclisin müzakirəsinə çıxarılır və səsə qoyulur. Layihədə yalnız texniki xarakter daşıyan dəyişikliklər edilə bilər.

**Maddə 9. Layihənin geri çağırılması**

9.1. Vətəndaşların qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisin müzakirəsinə təqdim olunmuş layihə yekun oxunuşda baxılana qədər təşəbbüs qrupunun iclasında üzvlərinin üçdə iki səs çoxluğu ilə qəbul edilmiş qərar əsasında geri çağırıla bilər.

9.2. Layihənin geri çağırılması haqqında qərarın qəbul edildiyi iclasın protokolu iclasın sədri və katibi tərəfindən imzalanır, həmçinin layihənin geri çağırılmasını dəstəkləyən təşəbbüs qrupunun üzvlərinin siyahısı protokola əlavə olunur. Bu siyahıda onların soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, şəxsiyyət vəsiqəsinin nömrəsi və etibarlılıq müddəti qeyd olunur. Siyahıda qeyd edilən hər bir vətəndaş özünə aid məlumatları imzası ilə təsdiq edir.

9.3. Bu Qanunun 9.2-ci maddəsində nəzərdə tutulan protokol Milli Məclisə daxil olduqda geri çağırılmış layihə Milli Məclisin gündəliyindən çıxarılır və təşəbbüs qrupunun sədrinə bu barədə məlumat verilir.

**Maddə 10. Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərinin pozulmasına görə şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 oktyabr 2019-cu il*

# "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli 1689-VQ nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli 1689-VQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. həmin Qanunun 5.9-cu və 7.11-ci maddələrinin icrası ilə əlaqədar Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki:

3.1. "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" Azərbaycan Respublikası Qanununun 5.4-cü maddəsinin ikinci və üçüncü cümlələrində, 5.8.2-ci və 5.8.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

3.2. həmin Qanunun 5.4-cü maddəsinin ikinci cümləsində və 5.8.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzərdə tutulur;

3.3. həmin Qanunun 5.4-cü maddəsinin üçüncü cümləsində və 5.8.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 dekabr 2019-cu il*

# *Təhsil Nazirliyi:* İlkin mərhələdə 5 beynəlxalq ikili diplom proqramının təsis olunması planlaşdırılır

Dekabrın 4-də Təhsil Nazirliyində PISA (Programme for International Student Assessment) - Beynəlxalq Şagird Qiymətləndirilməsi Proqramının 2018-ci il üzrə nəticələri və beynəlxalq ikili diplom proqramlarına həsr olunmuş mətbuat konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Təhsil nazirinin müşaviri Elnur Məmmədov Azərbaycan Prezidenti İlham Əliyevin təhsilə xüsusi önəm verdiyini vurğulayıb, bu sahənin inkişafı istiqamətində həyata keçirilən proqram və layihələrdən danışıb.

Sonra nazirliyin Təhsilin inkişafı proqramları şöbəsinin müdiri Emin Əmrullayev, Beynəlxalq əməkdaşlıq şöbəsinin müdir müavini Tural Əhmədov, ictimaiyyətlə əlaqələr sektorunun baş məsləhətçisi Billurə Hacızadə çıxış ediblər. Konfransda PISA proqramı haqqında ümumi məlumat verilib. Qeyd olunub ki, PISA qiymətləndirməsi İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (Organisation for Economic Co-operation and Development) tərəfindən 3 ildən bir keçirilir. PISA 15 yaşlı şagirdlərin oxu, riyaziyyat və təbiət elmləri üzrə məktəbdə qazandığı biliklərdən həyatda, məişətdə qarşılaşdıqları problemləri həll etmək üçün istifadə etmək bacarığını ölçür. PISA tədqiqatında 80-dən artıq ölkə iştirak edir.

Bildirilib ki, Azərbaycanı 2018-ci ildə PISA tədqiqatında Bakı şəhərindəki 197 ümumtəhsil məktəbindən 6827 nəfər 15 yaşlı şagird təmsil edib. Şagirdlərimizin riyaziyyat üzrə orta göstəricisi 420 bal, oxu üzrə 389 bal, təbiət elmləri üzrə isə 398 bal təşkil edib.

Daha sonra "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində beynəlxalq ikili diplom proqramları barədə ətraflı məlumat verilib. Qeyd edilib ki, Azərbaycan ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları ilə müasirləşdirilməsi əsas hədəflərdəndir.

Dövlət proqramı çərçivəsində ilkin mərhələdə 5 beynəlxalq ikili diplom proqramının təsis olunması planlaşdırılır. Beynəlxalq ikili diplom proqramlarının ölkəmizin inkişaf prioritetlərinə uyğun sahələr (kənd təsərrüfatı, tibb, təhsil, informasiya texnologiyaları, mühəndislik və digər) üzrə həyata keçirilməsi nəzərdə tutulur.

Mətbuat konfransında, həmçinin beynəlxalq ikili diplom proqramlarının həyata keçiriləcəyi xarici tərəfdaş ali təhsil müəssisələrinin, ixtisas proqramlarının və təhsil səviyyələrinin seçim meyarları media nümayəndələrinin nəzərinə çatdırılıb, proqramın maliyyələşdirilməsi qaydaları barədə məlumat verilib.

# Prezident Administrasiyasının məsul işçiləri bölgələrdə vətəndaşların müraciətlərini dinləyiblər

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçiləri şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, dekabrın 4-də Sumqayıt şəhəri, Şabran, Füzuli, Salyan və Xocalı rayonlarının sakinləri ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən keçirilən görüşlərdə sakinlərin qaldırdıqları məsələlər diqqətlə dinlənilib, bütün məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində tapşırıqlar verilib. Bəzi müraciətlər yerində həll edilib. Araşdırma tələb edən müraciətlər nəzarətə götürülüb və onların həlli istiqamətində aidiyyəti üzrə göstərişlər verilib.

Görüşlərdə qeyd olunub ki, Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. İlk növbədə, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlmiş bu tədbirlər bir daha təsdiqləyir ki, dövlət başçısının həyata keçirdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Son vaxtlar sosial-iqtisadi sahədə aparılan əsaslı islahatlar Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində reallaşdırılan tədbirlərin davamıdır.

Diqqətə çatdırılıb ki, Azərbaycanda sosial-iqtisadi sahədə inqilabi islahatlar həyata keçirilməkdədir. Bu islahatlar, ilk növbədə, əhalinin rifahının yaxşılaşdırılmasına, vətəndaş məmnunluğuna yönəlib. Prezident İlham Əliyev hələ 2018-ci ilin sonlarında bəyan etmişdi ki, qarşıdakı dövrdə əhalinin sosial durumunun daha da yaxşılaşdırılması prioritet olacaq. Bu məqsədlə 2019-cu ilin əvvəlində dövlət başçısı iki böyük sosial islahat paketini təsdiqlədi. Birinci paketdə 3 milyon vətəndaşın maaş, pensiya, sosial müavinətlərinin artırılmasına, mühüm sosial məsələlərin həllinə 1,6 milyard manat yönəldildi və icra olundu. İkinci paketin icrası ilə bağlı hazırlıq işləri də tamamlanıb və sentyabrın 1-dən minimum əməkhaqqı 250 manata çatdırılıb, əlavə olaraq 400 min nəfərin maaşı 20-50 faiz artırılıb. Oktyabrın 1-dən isə pensiyaların artımı 750 min nəfərə şamil olunub. Hər iki paketin ümumi məbləği cari il üçün 2,3 milyard manat, gələn il üçün isə daha 3 milyard manat təşkil edir. Bu iki sosial islahat paketi ümumilikdə 4,2 milyon vətəndaşı əhatə edir. Minimum pensiya 72 faiz artırılıb. Minimum əməkhaqqının 250 manata çatdırılmasından sonra Azərbaycan bu göstərici üzrə MDB-də ikinci sırada qərarlaşıb.

Bundan başqa, müavinətlərin və təqaüdlərin artırılması 300 min əlilliyi olan şəxsi, 500 min məcburi köçkünü, 100 mindən çox tələbəni, ümumilikdə 1,3 milyon insanı əhatə edir. Ən əsası, bu addımlar aztəminatlı təbəqəni əhatə etməklə yanaşı, həmin kateqoriyaya aid insanların sosial durumunu əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq.

Azərbaycan Prezidentinin digər təşəbbüsü sosial sığorta sahəsində inqilabi irəliləyişi təmin edib. Belə ki, 2006-2018-ci illərdə sığortaya hətta cüzi məbləğ ödəyənlərə belə 25 illik sığorta stajı hesablanıb. İl ərzində pensiyaya çıxan vətəndaşların 80 faizi bundan yararlana biləcək.

Keçirilən görüşlərdə, həmçinin məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulmasının, insanlara layiqli xidmət göstərilməsinin, etik davranış qaydalarına əməl olunmasının vacibliyi vurğulanıb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün yaradılan rahat və əlverişli şəraitdən razılıqlarını ifadə edib, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# Azərbaycan nümayəndə heyəti İran Prezidenti ilə görüşüb

İranda səfərdə olan Azərbaycanın Baş Nazirinin müavini, Azərbaycan ilə İran arasındakı iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti İran Prezidenti Həsən Ruhani ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, Şahin Mustafayev Prezident İlham Əliyevin məktubunu Prezident Həsən Ruhaniyə təqdim edib. Bildirib ki, Prezident İlham Əliyev Sizinlə dostluğa və səmimi münasibətlərə böyük əhəmiyyət verir. Azərbaycan Prezidenti hesab edir ki, dostluq əlaqələri iki ölkə arasındakı münasibətlərin daha da inkişafına təkan verəcək və qarşılıqlı əlaqələr xalqlarımızın mənafeyinə xidmət edəcək.

Prezident Həsən Ruhani məktuba görə təşəkkürünü bildirib və onun da səmimi salamlarını Azərbaycan Prezidentinə çatdırmağı xahiş edib. Prezident Həsən Ruhani deyib ki, İran ilə Azərbaycan yaxın qonşu olmaqla yanaşı, həm də yaxın dost və qardaş dövlətlərdir. Hər iki dövlət qlobal əhəmiyyətə malik olan Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin formalaşmasında mühüm rol oynayır. Bu layihəyə daxil olan dəmir yolu xətti İrandan Azərbaycana və Rusiyaya, oradan isə Avropaya uzanacaq. Bu layihədən yalnız İran ilə Azərbaycan deyil, həmçinin regionun digər dövlətləri də faydalanacaq. Biz, həmçinin İran, Azərbaycan və Rusiya üçtərəfli əlaqələrinin inkişafında da maraqlıyıq.

İran Prezidenti iki ölkə arasında digər sahələrdə olduğu kimi, turizm, yüksək texnologiyalar və ekologiya sahəsində də qarşılıqlı əməkdaşlıq əlaqələrinin inkişaf edəcəyinə ümidvar olduğunu bildirib.

Görüşdə Azərbaycanın İrandakı səfiri Bünyad Hüseynov və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov da iştirak ediblər.

# Azərbaycan nümayəndə heyəti İran Prezidenti Administrasiyasının rəhbəri ilə görüşüb

Azərbaycanın Baş Nazirinin müavini, Azərbaycan ilə İran arasındakı iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti İran Prezidenti Administrasiyasının rəhbəri Mahmud Vaezi ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, görüşdə iki ölkə arasında müxtəlif sahələr üzrə əməkdaşlıq əlaqələrinin inkişaf istiqamətləri müzakirə edilib.

Baş nazirin müavini Şahin Mustafayev iki ölkə arasındakı əlaqələrin yüksək səviyyədə olduğunu bildirib. O deyib ki, bu gün iki ölkə prezidentinin siyasi iradəsi sayəsində Tehran-Bakı münasibətləri daha da inkişaf edir.

Qeyd olunub ki, dövlətlərimiz arasındakı siyasi, iqtisadi, mədəni, ticari, nəqliyyat və humanitar sahələrində əlaqələr yüksələn xətlə inkişaf edir. Azərbaycan bu əlaqələrin daha da genişlənməsində maraqlıdır.

İran Prezidenti Administrasiyasının rəhbəri Mahmud Vaezi rəsmi Tehran ilə Bakı arasında ticarət-iqtisadi əlaqələrin inkişaf etdiyini diqqətə çatdırıb, iki dost və qardaş ölkə arasındakı əlaqələrin strateji xarakter daşıdığını bildirib. Bildirib ki, İran və Azərbaycan regional və beynəlxalq təşkilatlar çərçivəsində də yaxından əməkdaşlıq edirlər.

Görüşdə ikitərəfli əlaqələrin daha da genişləndirilməsi yolları və əldə olunan razılaşmaların icrası prosesinin sürətləndirilməsi məsələləri nəzərdən keçirilib.

Sonra qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

# Azərbaycan ilə İran arasında enerji sahəsində əməkdaşlığın perspektivləri müzakirə edilib

Azərbaycan Respublikası Baş Nazirinin müavini, Azərbaycan ilə İran arasındakı iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti İrana səfər edib.



AZƏRTAC xəbər verir ki, dekabrın 3-də Tehranda Şahin Mustafayev ilə İranın Energetika naziri Rza Ərdakanian arasında görüş keçirilib.

Şahin Mustafayev qeyd edib ki, İran ilə Azərbaycan arasındakı iqtisadi əməkdaşlıq əlaqələri yüksələn xətt üzrə inkişaf edir. Bu əlaqələrin inkişafında hər iki ölkənin prezidentlərinin siyasi iradəsi və səmimi dostluq münasibətləri böyük rol oynayır.

Hazırda dost və qardaş ölkələrimiz arasında mühüm iqtisadi layihələr həyata keçirilir. Qarşılıqlı ticarət dövriyyəsi 3 dəfədən çox artıb, gömrük-keçid məntəqələrində sadələşdirilmiş sistem yaradılıb və vətəndaşların gediş-gəlişi asanlaşıb. Qarşılıqlı rəsmi səfərlərin və Azərbaycanda fəaliyyət göstərən İran şirkətlərinin sayında da artım müşahidə olunur.

Enerji sahəsində də əməkdaşlıq davam edir. Ordubad-Maraza, Xudafərin, "Qız qalası" su elektrik stansiyalarında işlər davam etdirilir. Bu layihələr hər iki ölkənin əhalisinin sosial vəziyyətinin yaxşılaşması ilə yanaşı, ümumilikdə iqtisadi inkişafa da böyük təkan verəcək.

Şahin Mustafayev diqqətə çatdırıb ki, qarşılıqlı əməkdaşlıq nəticəsində böyük uğurlar əldə olunub. Lakin hər iki ölkə böyük iqtisadi potensiala malikdir və bu potensialdan daha səmərəli istifadə etmək lazımdır.

İranın Energetika naziri Rza Ərdakanian bildirib ki, İran yaxın qonşuları ilə iqtisadi əlaqələrin genişlənməsində maraqlıdır. Azərbaycan İranın yaxın qonşusu olmaqla yanaşı, həm də dost və qardaş dövlətdir. Ordubad-Maraza, "Qız qalası", Xudafərin su elektrik stansiyaları ilə yanaşı, Astarada 500 meqavat gücündə qaz elektrik stansiyasının tikintisi layihəsi də var. Bu layihə sərhəd rayonlarının iqtisadi inkişafında mühüm rol oynayacaq. Nazir qeyd edib ki, qarşılıqlı əməkdaşlıq çərçivəsində həyata keçirilən bu layihələr hər iki xalqın mənafeyinə xidmət edəcək.

Görüşdə su elektrik stansiyalarının tikintisinin davam etdirilməsi, turbinlərin quraşdırılması, maliyyə, enerji mübadiləsi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Azərbaycanın İrandakı səfiri Bünyad Hüseynov və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov da görüşdə iştirak ediblər.

# Azərbaycan ilə İran arasında nəqliyyat sahəsində əldə olunan uğurlardan danışılıb

Azərbaycan Respublikası Baş Nazirinin müavini, Azərbaycan ilə İran arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti İranda səfərdədir.



AZƏRTAC xəbər verir ki, dekabrın 3-də Şahin Mustafayev İranın Yol və Şəhərsalma naziri Məhəmməd İslami ilə görüşüb.

Görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Həsən Ruhani arasında qarşılıqlı hörmətə və etimada əsaslanan münasibətlərin ölkələrimizin əlaqələrinin bütün sahələrdə genişlənməsində mühüm rolu vurğulanıb.

Ölkələrimiz arasındakı əlaqələrdən danışan Baş Nazirin müavini Şahin Mustafayev son illərdə əməkdaşlığın daha da genişləndiyini diqqətə çatdırıb. Bildirilib ki, son 5 ildə Azərbaycan və İran prezidentləri arasında 13 görüş olub, 100-dən çox qarşılıqlı səfərlər təşkil edilib, 24 biznes forumu və işgüzar görüş keçirilib. İndiyədək ölkələrimiz arasında 150-dən çox sənəd imzalanıb. Azərbaycanda sənaye, tikinti, xidmət, rabitə, ticarət, nəqliyyat, kənd təsərrüfatı və digər sahələrdə 1500-dək İran şirkəti fəaliyyət göstərir. İran tərəfindən Azərbaycan iqtisadiyyatına 3,4 milyard dollar investisiya yatırılıb. Baş Nazirin müavini ölkələrimizin sənaye, energetika, kənd təsərrüfatı, ticarət, səhiyyə, turizm, sərhəd-gömrük və digər sahələrlə yanaşı, nəqliyyat-tranzit sahəsində də uğurla əməkdaşlıq etdiyini, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafında hər iki ölkənin rolunu vurğulayıb. Şahin Mustafayev nəqliyyat dəhlizinin inkişafının Azərbaycan-İran iqtisadi əməkdaşlığının, xüsusilə yükdaşımalar, ticarət və turizm əlaqələrinin genişlənməsinə müsbət təsir göstərəcəyini qeyd edib.

İranın Yol və Şəhərsalma naziri Məhəmməd İslami ölkəsinin Azərbaycanla əlaqələrin genişlənməsinə xüsusi önəm verdiyini, Azərbaycan-İran əməkdaşlığının inkişafı istiqamətində ardıcıl tədbirlərin həyata keçirildiyini bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Səfa MİRZƏYEV: "Konstitusiya Məhkəməsi Milli Məclisin səlahiyyətlərinin parlamentin yeni tərkibi formalaşanadək saxlanılmasını nəzərə alıb"

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli Qərarının Azərbaycan Respublikası Konstitusiyasına uyğun hesab olunmasına dair qərar qəbul edib. Bunun əsasında Konstitusiyanın 98[1]-ci maddəsinə görə Milli Məclisin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi haqqında qəbul olunacaq qərar Konstitusiyaya uyğun hesab edilib.

AZƏRTAC xəbər verir ki, bunu Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev dekabrın 4-də jurnalistlərə müsahibəsində deyib. S.Mirzəyev bildirib ki, eyni zamanda, Konstitusiya Məhkəməsi Konstitusiyanın 111-ci, 112-ci maddələrində təsbit edilən funksiyaların icrası ilə əlaqədar Milli Məclisin səlahiyyətlərinin parlamentin yeni tərkibi formalaşanadək saxlanılmasını nəzərə alıb. Yəni, müharibə vəziyyəti olanda, yaxud Azərbaycana hücum təhlükəsi yarananda, eləcə də fövqəladə təbii hallar baş verəndə, kütləvi iğtişaşlar nəticəsində fövqəladə vəziyyətin təyin olunması ilə əlaqədar yaranmış məsələlərdə mütləq Milli Məclisin təsdiqi lazımdır. Ona görə də bu səlahiyyətlərin yerinə yetirilməsi üçün nəzərdə tutulur ki, Milli Məclis yeni seçkilər keçirilənə qədər öz səlahiyyətlərini saxlasın. Eyni zamanda, Azərbaycanın və Milli Məclisin beynəlxalq öhdəlikləri var və bu öhdəliklərin yerinə yetirilməsi üçün Milli Məclis fəaliyyətini davam etdirəcək.

"Burada yeganə məhdudiyyət ondan ibarətdir ki, Milli Məclis qanun və qərar qəbul etmək üçün yeni seçkilərə qədər toplaşmayacaq. Konstitusiya Məhkəməsinin qərarına qədər deputatların xarici səfərləri müvəqqəti dayandırılmışdı. Artıq Konstitusiya Məhkəməsinin qərarı var. Bu yaxınlarda Avropa Şurasının və digər beynəlxalq təşkilatların yığıncaqları olacaq və Milli Məclisin üzvləri həmin iclaslara qatılacaqlar. Bundan başqa, dekabrın 18-də Bakıda Türkdilli Ölkələrin Parlament Assambleyasının iclası keçirilməlidir, o iclas da keçiriləcək. Sadəcə, qanun və qərarların qəbul edilməsinə dair parlamentin plenar iclasları keçirilməyəcək. Yeni qanunları altıncı çağırış parlament qəbul edəcək".

# Müdafiə naziri cəbhəboyu zonada yerləşən hərbi hissələrdə olub

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən Müdafiə Nazirliyinin rəhbər heyəti cəbhəboyu zonada yerləşən hərbi hissələrdə və döyüş mövqelərində olublar.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, döyüş postlarında növbə çəkən şəxsi heyətlə görüşən Müdafiə naziri general-polkovnik Zakir Həsənov müdafiənin dayanıqlılığını, qısa hazırlığının vəziyyətini, hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji hazırlığını yoxlayıb, komanda-müşahidə məntəqəsindən düşmən mövqelərini izləyib.

Əməliyyat şəraitinin vəziyyəti barədə məruzələri dinlədikdən sonra Müdafiə naziri bölmələrin daim döyüşə hazır vəziyyətdə olmasını təmin etmək məqsədilə müvafiq tapşırıqlar verib.

Sonra nazirliyin rəhbər heyəti Horadiz şəhərində yerləşən Aprel şəhidlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək önünə gül dəstələri qoyub, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsini hörmət və ehtiramla yad ediblər.

Müdafiə Nazirliyinin rəhbərliyi səfər çərçivəsində şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi məqsədilə inşa olunan "Şəhidlər bulağı"nın açılış mərasimində iştirak edib. Sonra ərazidə uzunömürlülüyün simvolu olan çinar ağacları əkilib.

Müdafiə naziri cəbhəboyu zonaya yaxın ərazidə yeni istifadəyə verilmiş mühəndis şəhərciyində də olub. Bildirilib ki, mühəndis hazırlığının yüksək səviyyədə təşkili və yerinə yetirilməsini təmin etmək, şəxsi heyətin mühəndis təminatı tapşırıqlarını mürəkkəb döyüş şəraitində ərazinin relyefini nəzərə almaqla yerinə yetirməsi vərdişlərini təkmilləşdirmək üçün şəhərcikdə lazımi infrastruktur yaradılıb.

Real döyüş şəraitinə uyğun inşa edilən təlim mərkəzində xüsusi texnikanın mürəkkəb relyef və sərt iqlim şəraitində idarə olunması üzrə praktiki vərdişlərin təkmilləşdirilməsi, həmçinin döyüş tapşırıqlarının məşq etdirilməsi nəzərdə tutulub.

Müdafiə naziri mühəndis qoşunlarının komandanlığına şəxsi heyətin döyüşə hazırlıq səviyyəsinin artırılması və döyüş vasitələrinin effektiv istifadəsi ilə bağlı müvafiq tapşırıqlar verib.

# Cəbhəboyu zonada yeni inşa edilən mühəndis təyinatlı hərbi obyektlərin açılışı olub

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi Azərbaycan Ordusunun modernizasiyası və yenidənqurma işləri planına əsasən həyata keçirilən fəaliyyətlər davam etdirilir.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhəboyu zonada yeni inşa edilən mühəndis təyinatlı hərbi obyektlərin açılışında iştirak ediblər.

Müdafiə Nazirliyinin rəhbərliyi yeni istifadəyə verilən qərargah binası ilə də tanış olub. Qeyd olunub ki, qərargahdakı inzibati və xidməti iş otaqları mərkəzləşdirilmiş istilik sistemi, işıq, su, qaz və kommunikasiya xətləri, mebel avadanlıqları ilə təmin olunub. Müdafiə nazirinə məruzə edilib ki, mühəndis-istehkam hərbi hissələrinin yerinə yetirdiyi vəzifələr nəzərə alınmaqla, bu bölmələrin texniki baxımdan təkmilləşdirilməsi və döyüş potensialının artırılması üçün müasir texnika alınaraq qoşunların sərəncamına verilib. Hərbi əməliyyatların mühəndis təminatının yerinə yetirilməsi zamanı tətbiq olunan müxtəlif növ texnikanın saxlandığı park, şəxsi heyətin hazırlığı üçün nəzərdə tutulan taktiki sinif otaqları və digər inzibati binalar müvafiq avadanlıqlar və əyani təbliğat vasitələri ilə tam təchiz edilib.

General-polkovnik Z.Həsənov mühəndis qoşunların komandanlığına bölmələrin döyüş qabiliyyətinin artırılması və döyüş vasitələrinin effektiv istifadəsi ilə bağlı müvafiq tapşırıqlar verib.

Sonda nazirliyin rəhbərliyi şəxsi heyətlə birlikdə nahar edib.

# Azərbaycanda ilk dəfə iki dövlətin nazirlikləri arasında memorandum elektron imza ilə imzalanıb

"Bakutel 2019" sərgisi çərçivəsində dekabrın 4-də Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Belarusun Rabitə və İnformasiya Nazirliyi arasında dövlətlərarası memorandum elektron imza ilə imzalanıb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, memorandumda biznes subyektləri arasında elektron imzaların qarşılıqlı tanınması əks olunub. Sənədi Azərbaycan tərəfdən Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə və Belarus tərəfindən isə Rabitə və İnformasiya naziri Konstantin Şulqan imzalayıblar.

Qeyd edək ki, elektron imza ilə imzalanan bu e-memorandum nəinki Azərbaycan və Belarus, eləcə də MDB ölkələri arasında ilkdir.

Sənədlərin elektron imzalanması Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyində çalışan yerli mütəxəssislər tərəfindən hazırlanan AzDoc sənəd dövriyyəsi sistemi üzərindən həyata keçirilib.

Ölkələrarası elektron imzaların qarşılıqlı tanınması vətəndaş, biznes subyektləri, dövlət qurumları arasında münasibətlərin yeni müstəvidə inkişafına şərait yaradacaq. Həmçinin ölkəmizin beynəlxalq hesabatlarda daha da yüksəlməsinə gətirib çıxaracaq.

# Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Beynəlxalq Telekommunikasiya İttifaqı regional təşəbbüs layihəsi imzalayıb

Dekabrın 4-də Bakıda Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Beynəlxalq Telekommunikasiya İttifaqı (ITU) arasında regional təşəbbüs layihəsi imzalanıb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə ölkəmizdə səfərdə olan Beynəlxalq Telekommunikasiya İttifaqının baş katibi Houlin Jao ilə ikitərəfli görüş keçirib. Görüşdə ölkəmizin sözügedən təşkilatın ali idarəetmə orqanı olan Şuranın üzvü kimi fəaliyyəti və qurumla gələcək əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparılıb.

Tərəflər arasında regional təşəbbüs layihəsi imzalanıb. Müqaviləyə əsasən, ITU-nun maliyyə dəstəyi ilə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "İKT LAB" Tətbiq və Tədris Mərkəzi tərəfindən 2020-2021-ci illərdə "Qadınlar üçün IT sahədə multimedia onlayn kurs və veb portalın inkişafı" adlı layihə həyata keçiriləcək. Qeyd edilən layihə qadınların və qızların rəqəmsal hazırlığının inkişafına xüsusi töhfə verəcək. Layihənin icrası nəticəsində onlayn portal yaradılacaq və burada ana dilimizdə interaktiv multimedia kursları keçiriləcək. Kursları bitirən xanımlar ITU-nun onlayn sertifikatı ilə təltif ediləcək. Layihənin əsas məqsədi ölkəmizin hər bir nöqtəsində xanımların İKT sahəsi, xüsusilə proqramlaşdırma üzrə karyera qurmasına dəstək verməkdir. Eyni zamanda, ödənişsiz onlayn kurslara qoşulan xanımlar "İKT LAB" Tətbiq və Tədris Mərkəzinin ölkənin 19 regionunda olan tədris mərkəzlərində sərbəst şəkildə onlayn kurslarda iştirak edə biləcəklər. Onlayn təlimlərə 2020-ci ildə başlanılacaq.

Nazir Ramin Quluzadə, həmçinin İran İslam Respublikasının Rabitə və İnformasiya Texnologiyaları naziri Məhəmməd Cavad Azəri Cahromi ilə görüşüb. R.Quluzadə görüşdə "Bakutel 2019" 25-ci Yubiley Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisində İranın 15 şirkəti və startapının iştirakının əhəmiyyətini vurğulayıb.

Danışıqlar zamanı sərhədyanı ərazilərdə radiotezlik resurslarından istifadənin koordinasiya edilməsi, o cümlədən iki ölkə arasında innovasiyalar və startap ekosisteminin inkişafı sahələrində perspektiv əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparılıb.

# Müstəqilliyə gedən yol Heydər Əliyevin adı ilə bağlıdır

Əvvəli 1-ci səh.




AXC-nin yadigarı olan Bakı Dövlət Universiteti yeni ictimai-siyasi dövrdə fəaliyyətini davam etdirib. Ötən yüz il ərzində bu ali təhsil müəssisəsinin 200 minə yaxın məzunu müxtəlif sahələrdə bilik və bacarıqlarını göstərib. Onların arasından görkəmli elm adamları - alimlər, ictimai xadimlər, siyasətçilər, müxtəlif sahələrin mütəxəssisləri çıxıb.

Müasir Azərbaycanın qurucusu Heydər Əliyev də Bakı Dövlət Universitetinin məzunu idi. O, həm sovet, həm müstəqillik illərində, eləcə də sonrakı dövrdə xalq və dövlət qarşısında misilsiz xidmətlər göstərib.

Həmin illəri unutmayan insanlar yaxşı xatırlayırlar ki, Ulu Öndər Heydər Əliyev təhsil sahəsinə çox böyük diqqət yetirirdi. Gənclərin SSRİ-nin yüksək kateqoriyalı aparıcı ali təhsil müəssisələrində oxumaları üçün bütün imkanlardan istifadə edirdi. Məhz bu qayğının nəticəsi idi ki, o zamanlar hər il təxminən 800 nəfərə qədər gəncimiz Bakıda imtahanlar verib, Moskva, Sankt-Peterburq (Leninqrad) kimi nəhəng şəhərlərdəki aparıcı ali məktəblərdə oxuyub, mütəxəssis kimi yetişərək Azərbaycanın xalq təsərrüfatının inkişafında xidmət göstərirdilər. Bu, ilk növbədə Azərbaycanın gələcəyi üçün güclü kadr potensialının yaradılması demək idi. Həmin illərdə yüksək təhsil almış kadrlar Azərbaycanı bu gün layiqincə təmsil edirlər.

Ötən əsrin 70-ci illərində Ulu Öndər Heydər Əliyevin yürütdüyü siyasət xalq tərəfindən rəğbətlə və böyük məhəbbətlə qarşılanmışdı. Odur ki, Azərbaycan 1990-cı illərin əvvəllərində böyük fəlakətlə üz-üzə qalanda doğma xalqı Ümummilli Lideri haraya çağırdı. Çünki o illər ərzində gördüyü işlər Azərbaycan xalqının qəlbində Heydər Əliyevə böyük inam hissini saxlayırdı. Məhz buna görə xalq birmənalı şəkildə müstəqilliyə gedən yolu Heydər Əliyevin adı ilə bağlayır. Yaxın tariximizdən bilirik ki, Ümummilli Liderin təşəbbüsü ilə Naxçıvan Ali Məclisinin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi təsis olundu və bununla bağlı qərar qəbul edildi. Daha bir inkarolunmaz fakt isə ondan ibarətdir ki, Ulu Öndər müstəqilliyin ilk illərindən Azərbaycanda rəhbər olsaydı, bir qarış torpağımız da işğal olunmaz, xalqımız və dövlətimiz təcavüzə məruz qalmazdı.

Azərbaycan Prezidenti tədbir iştirakçılarının nəzərinə çatdırdı ki, gənclər də bu tarixi bilməlidirlər: "Mən dəfələrlə bunu demişəm. Biz - bu tarixi yaşayan insanlar, əlbəttə ki, heç vaxt bunu unutmayacağıq. Bugünkü uğurlu inkişafımızı hər zaman qiymətləndirəcəyik. Gənclər bunu görməyiblər. Onlara elə gəlir ki, həmişə belə olub. Onlara elə gəlir ki, Azərbaycan həmişə belə çiçəklənən, firavan dövlət olub. Belə deyildi. Biz o günləri yaxşı xatırlayırıq. Xalq Cəbhəsi-Müsavat cütlüyünün xəyanətkar hakimiyyəti dövründə on minlərlə insan saatlarla çörək növbəsində dayanırdı. Əlisilahlı quldurlar meydan oxuyurdular, şəhərlərimizdə insanları incidirdilər, oğurlayırdılar, işgəncələr verirdilər, jurnalistləri döyürdülər. Məhz Xalq Cəbhəsi-Müsavat hakimiyyəti - özünü demokrat adlandıran bu ünsürlər Azərbaycanda senzura tətbiq etmişdilər. Heydər Əliyev hakimiyyətə gələndən sonra senzuranı ləğv etdi. Gənclər bu tarixi bilməlidirlər. Müəllimlər bu tarixi onlara çatdırmalıdırlar ki, həm həqiqəti bilsinlər, həm də Azərbaycan gələcəkdə heç vaxt bu ağır vəziyyətə düşməsin".

Dövlət başçısının yubiley tədbirində vurğuladığı kimi, bizi bizdən çox sevən, istəyən ola bilməz. Bunun dəfələrlə şahidi olmuşuq. Bəzi xarici dairələr, guya, Azərbaycana kömək etmək istədiklərini bildirirlər. Bu saxta canıyananlıq məkrliliyini gizlədə bilmir. Azərbaycan Prezidenti də məhz bu məsələyə toxunaraq deyir: "...Siz Azərbaycanı bu qədər sevirsinizsə, nə üçün o vaxt bizə kömək etməmisiniz?! Nə üçün ağır vəziyyətdə olan ölkəyə kömək etməmisiniz?! İndi sıra ilə düzülüblər bizə kredit vermək istəyənlər. Biz almırıq. Biz özümüz kredit veririk. Bizim xarici dövlət borcumuz ümumi daxili məhsulun 17 faizini təşkil edir. Bu göstəriciyə görə biz dünyada doqquzuncu yerdəyik.

Bu gün əsl müstəqillik dövrüdür. Çünki bu gün biz özümüz öz gələcəyimizi müəyyən edirik. Bu gün biz özümüz qərarları qəbul edirik. Bu gün Azərbaycanda xalqın iradəsi hökm sürür. Bu gün Azərbaycan dünya miqyasında müasir, öz tarixinə, ənənələrinə sadiq, sürətlə inkişaf edən dinamik ölkədir. Heç kimdən asılı deyilik və elə etməliyik ki, heç vaxt heç kimdən asılı olmayaq. Buna görə güclü olmalıyıq, vətənpərvər olmalıyıq, iqtisadiyyatımız daha da güclü olmalıdır, güclü ordumuz olmalıdır. Bugünkü hakimiyyətdə bütün bunlar var və hər kəs görür ki, heç kim bizim işimizə müdaxilə edə bilməz".

Daha bir məsələ: xaricdəki anti-Azərbaycan dairələr artıq açıq şəkildə bilirlər və etiraf da edirlər ki, burada sağlam müxalifət yoxdur, ayrı-ayrı satqın dəstələr mövcuddur. Onlara pul təminatı da azaldığı üçün daha iyrənc bir yola əl atır, gəncləri əsas hədəf seçir, onları yoldan çıxarmaq, beyinlərini zəhərləmək istəyirlər. Lakin bu xalq ötən əsrin 90-cı illərindəki deyil. Ona görə də onların bu bəd niyyətləri həyata keçə bilmir. Çünki Azərbaycan gəncliyi vətənpərvərliyi, Vətənsevərliyi ilə tanınır. Buna görə də dövlət başçısı bu bəd niyyətə qarşı tələbə və müəllimləri ayıq-sayıq olmağa səsləyib: müəllimlər gənclərə nəinki bilikləri vermək, onları həm də vətənpərvərlik ruhunda tərbiyə etməlidirlər. Respublikamızın hərtərəfli inkişafının göstəricilərindən biri də internet istifadəçilərinin faizində öz əksini tapır. Belə ki, bu gün sosial şəbəkələrdən istifadə ölkə əhalisinin 80 faizini üstələyir. Bu həm də Azərbaycanda azad, demokratik cəmiyyət formalaşması, azad medianın mövcudluğu deməkdir. Bu, eyni zamanda Azərbaycandan qaçıb, xarici ölkələrdə öz doğma Vətəninə qarayaxma kampaniyası aparanlara sərt cavabdır.

Azərbaycan Prezidentinin istədiyi və tələbi odur ki, gənclər tarixi yaxşı bilməlidirlər: "...Əgər tarixi yaxşı bilsələr, görərlər ki, tariximizdə heç vaxt heç bir kənar qüvvə, heç bir yad dairə bizim xoşbəxtliyimizi istəməyib, əksinə, bizi əzmək istəyib, özünə ram etmək istəyib, sərvətlərimizi talamaq istəyib, bizi alçaltmaq istəyib. Əgər belə olmasaydı, bizim çoxəsrlik tariximizin böyük hissəsi müstəmləkəçilik tarixi olmazdı. Heç kim bizim işimizə müdaxilə edə bilməz, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Qoy ləkələsinlər, qoy yalan-uydurma yaysınlar, bizə yapışmır. Əsas odur ki, biz öz həyatımızı ləyaqətlə yaşayaq. Ləyaqətli insanlar kimi, Vətənə bağlı olan insanlar kimi, mərd insanlar kimi yaşayaq, quraq, yaradaq, bütün yad qüvvələrə cavabımızı verək və öz inkişaf yolumuzu davam etdirək".

Dövlət başçısı müəllim peşəsinin çox şərəfli, məsuliyyətli, çox ağır olduğunu xüsusi vurğulayaraq qeyd etdi ki, onlar hər zaman tələbə qarşısında öz biliklərini nümayiş etdirməlidirlər: "...Tələbələr də indi hər şeyi görürlər, seçə bilirlər. Ona görə müəllimlər daim öz biliklərini artırmalıdırlar. Tələbələrə də sözüm odur ki, bilikli olsunlar. Bugünkü dünyada tanışlıqla, tapşırıqla oxumaq mümkün deyil".

Gənclərdə vətənpərvərlik çox güclü olmalıdır. Onlar ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Bax belə gənclər ölkəmizi gələcəyə inamla apara bilərlər. Azərbaycan Prezidenti hesab edir ki, bugünkü gənclərin mütləq əksəriyyəti bu meyarlara cavab verir - bilikli, savadlı, Vətənə bağlı, vətənpərvər və dünyaya açıq.

*Məhəmməd NƏRİMANOĞLU,*
*"Azərbaycan"*

# İslahatlar əhalinin sosial rifahının yüksəlməsini sürətləndirir

Əvvəli 1-ci səh.

Prioritet fəaliyyət istiqaməti kimi reabilitasiya və sosial xidmət infrastrukturunun müasirləşdirilməsi və genişləndirilməsi işlərinin davam etdirilməsidir. Ötən ay Yevlax və Naftalan şəhərlərində əlilliyi olan şəxslər üçün Regional Bərpa Mərkəzləri, Mərdəkan Müalicə Pansionatı əsaslı təmir və yenidənqurmadan sonra müasir avadanlıqlarla təchiz edilməklə istifadəyə verilib. Bu ilin sonuna qədər daha bir sıra sosial obyektlər həssas qruplardan olan vətəndaşların istifadəsinə veriləcək, gələn il də bu istiqamətdə görülən işlər davam edəcək".

Cari ilin 10 ayı ərzində nazirliyin bərpa mərkəzləri tərəfindən 7241 nəfər əlilliyi olan şəxsə stasionar, 1867 nəfər əlilliyi olan şəxslərə isə ambulator qaydada reabilitasiya xidmətləri göstərilib. Yeni reabilitasiya mərkəzləri istifadəyə verildikcə bu kateqoriyadan olan insanlara daha çox və keyfiyyətli xidmət göstəriləcək.

Son dövrlərdə sosial xidmətlərin əhatə dairəsi xeyli genişlənib. Bununla yanaşı, göstərilən xidmətlərə, sosial xidmətçilərin fəaliyyətinə nəzarət sistemi də gücləndirilib. Məqsəd bu sahədə mövcud nöqsanları aradan qaldırmaqla vətəndaşlara yüksək səviyyədə xidmət göstərməkdir. Bununla yanaşı, ümumilikdə sosial xidmətlərin keyfiyyətinin artırılması, eyni zamanda bu sahədə fəaliyyət mexanizmini yenidən qurmaqla təkmilləşdirilməsinə ehtiyac var. Bu məqsədlə nazirlik bir sıra tədbirlərin həyata keçirilməsini planlaşdırır. Xüsusilə Peşə Reabilitasiyası Mərkəzinin imkanlarından daha geniş istifadə edilməlidir. Həmçinin nazirlik tərəfindən sosial obyektlərin tikintisi və təmirinə, sosial xidmətlərin təşkilinə, əlilliyi olan şəxslərin tibbi və sosial reabilitasiyası sahələrində aparılan işlərə xüsusi diqqət yetirilir.

Nazirlik ümumilikdə sosial yardımın aztəminatlı ailələrə daha əlçatan olmasının təmin edilməsi işlərini aparır və proqramın əhatə dairəsini genişləndirməyə səy göstərir. Eyni zamanda təyinatının şəffaflaşdırılması və ünvanlılığının təmin edilməsinə diqqət yetirilir. Səbəb bu sahədə əvvəllər mövcud nöqsanları aradan qaldırmaqdır.

Aparılan araşdırma və təhlillər nəticəsində məlum olub ki, 1800 nəfər saxta yollarla ünvanlı dövlət sosial yardımı alıb. Həmin şəxslərə yönələn yardımlar dərhal dayandırılıb. Bununla yanaşı, daha minədək şəxsin də saxta şəkildə sosial yardım aldığına dair şübhələr var. Faktlar təsdiq olunarsa, onlarla bağlı da eyni tədbirlər görüləcək. Saxta yollarla sosial yardım almağa şərait yaradan, bunun üçün bilərəkdən qısa müddətli əmək müqavilələri bağlayan, yaxud əmək müqavilələrində əməkhaqlarını reallıqda olduğundan az göstərməklə işçilərinin böyük qisminin sosial yardıma çıxışına süni imkan yaradanlarla bağlı hüquq mühafizə orqanlarına müraciət olunacaq.

Lakin ünvanlı sosial yardım almağa haqqı olan vətəndaşlar bu imkanlardan istifadə edir. Hazırda təqribən 70 min ailəyə ünvanlı sosial yardım ödənilir ki, bu da 280 min insanı əhatə edir. Onlara ödənilən məbləğin ailə başına düşən orta rəqəmi 200 manat civarındadır. Qeyd edək ki, bu, kifayət qədər ciddi rəqəmdir. Təkcə il ərzində bu qrupdan olan vətəndaşlara ödəniləcək ünvanlı yardımın məbləği 170 milyon manatdır.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# "Cənub qaz dəhlizi" iştirakçı ölkələrin hər birinə dividendlər gətirəcək

Əvvəli 1-ci səh.

"Cənub qaz dəhlizi"nin uzunluğu 3500 kilometrdir. Dəhlizi təşkil edən, bir-birinə möhkəm "halqa" ilə bağlanan üç kəmər 1,2 trilyon kubmetr ehtiyata malik "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində hasil olunan qazın Avropa bazarına ötürülməsini təmin edəcək. Layihə 40 milyard dollar həcmində dəyərləndirilir.

"Cənub qaz dəhlizi"nin icrasında yeddi ölkə - Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya iştirak edir. Üç Balkan ölkəsi - Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro "Cənub qaz dəhlizi"nə çoxdan maraq göstərirdi. Azərbaycan bu ölkələrlə də Avropada enerji sahəsində əməkdaşlığın genişləndirilməsinə dair anlaşma memorandumu imzalayıb. Dəhlizin gələn il istifadəyə veriləcək son hissəsi - Trans-Adriatik Qaz Boru Kəməri mövcud, eləcə də planlaşdırılan infrastrukturlarla, məsələn, İon-Adriatik boru kəməri və Yunanıstan-Bolqarıstan xəttilə birləşdirilə bilər.

Ən önəmlisi odur ki, sözügedən ölkələrin hər biri layihədən faydalanacaq. Məsələn, Gürcüstan Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsindən bəhrələnib. Təkcə genişləndirmə həyata keçirilərkən bu ölkəyə xeyli investisiya təmin edilib, yeni iş yerləri açılıb, yerli təchizatçılardan və xidmətlərdən istifadə olunub.

Eləcə də dəhlizin Türkiyədən keçən hissəsi - Trans-Anadolu Qaz Boru Kəmərinin tikintisində yüzlərlə yerli sakin çalışıb. Kəmər artıq il yarımdır istifadəyə verilib və ötən müddət ərzində Türkiyə bu xətlə 4 milyard kubmetrdən çox Azərbaycan qazı alıb.

"Şahdəniz" qazı Yunanıstan, Bolqarıstan və İtaliyadakı istehlakçılar üçün yeni qaz mənbəyini təmin edəcək. "Cənub qaz dəhlizi" çoxsaylı faydalarla yanaşı, Avropanın enerji strukturunda ekologiyanın təmizliyinə də xidmət edəcək. Axı təbii qaz ən təmiz yanan mədən yanacağıdır.

Xatırladaq ki, "Cənub qaz dəhlizi"nin təməli 2014-cü il sentyabrın 20-də - "Əsrin müqaviləsi"nin 20 illik yubileyi günü Səngəçal terminalında qoyulub. Layihənin nəhəngliyini nəzərə alsaq, onun təməlqoyma və açılış mərasimləri arasındakı vaxt çox qısa olub. 4 ilə yaxın bir vaxt ərzində qazanılan böyük uğur - "Cənub qaz dəhlizi"nin işə düşməsi Azərbaycanın bundan əvvəl həyata keçirdiyi qlobal neft-qaz və ixrac layihələrinin təcrübəsinə əsaslanır. Belə ki, Azərbaycan üçüncü minilliyin nəhəng mühəndis qurğusu olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərini də təxminən 4 ilə çəkib. Sonra bu kəmərlə yanaşı, "Şahdəniz-1" qazını Azərbaycanın 13 rayonundan keçməklə Gürcüstana və Türkiyəyə çatdıran Bakı-Tbilisi-Ərzurum boru xəttini inşa edib. Əslində Bakı-Tbilisi-Ərzurum kəməri "Cənub qaz dəhlizi"nin bünövrəsi, başlanğıcı rolunu oynayıb.

"Cənub qaz dəhlizi"nin açılış mərasimində Prezident İlham Əliyev demişdir: "2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verildi. Bu da çox önəmli layihədir. Bu layihə olmadan "Şahdəniz" yatağının işlənməsi mümkün deyildi. Beləliklə, ilk dəfə olaraq 2007-ci ildə Azərbaycan qazı Gürcüstana və Türkiyəyə nəql edilməyə başlamışdır... Doğrudan da bunlar tarixi nailiyyətlərdir. "Şahdəniz" yatağının gələcək işlənilməsi ilə bağlı addımlar atılmağa başlanıldı. Əlbəttə, biz hamımız yaxşı bilirdik ki, böyük həcmdə Azərbaycan qazını dünya bazarlarına çıxarmaq üçün qaz kəməri lazımdır. Beləliklə, "Cənub qaz dəhlizi"nin yaradılması ilə bağlı praktiki işlərə start verildi. Çox ciddi işlər, danışıqlar aparıldı".

Nəql olunan təbii yanacağın 9 Avropa şirkəti tərəfindən alınması nəzərdə tutulub. Bunlar ingilis-holland "Shell", Bolqarıstanın "Bulgargaz", Yunanıstanın DEPA, Almaniyanın "Uniper", Fransanın "Engie", İtaliyanın "Hera Trading", "Edison", "Enel" və İsveçrənin AXPO şirkətləridir.

"Cənub qaz dəhlizi" Məşvərət Şurasının indiyədək beş iclası keçirilib. Bu tədbirlərin hamısına Azərbaycan evsahibliyi edib. Cari ilin fevral ayında keçirilən beşinci toplantıda adıçəkilən ölkələrlə yanaşı, Böyük Britaniyadan, Macarıstandan, Rumıniyadan, Serbiyadan, San-Marinodan və Türkmənistandan olan nümayəndələr də iştirak ediblər. Bu, layihənin qlobal xarakterini və böyük beynəlxalq əməkdaşlıq platforması üzərində ucaldığını göstərir. Eyni zamanda layihəyə maraq göstərən dövlətlərin sayının getdikcə artdığını təsdiqləyir.

Bir sözlə, "Cənub qaz dəhlizi" Azərbaycanın təşəbbüsü və liderliyi ilə həyata keçirilən nəhəng layihədir. Bu layihə Azərbaycanın regionda və Avropada əhəmiyyətinin artmasını, Azərbaycanla Qərb arasında münasibətlərin daha yüksək pilləyə qalxmasını şərtləndirəcək. Azərbaycanın təkcə qaz hasil edən ölkə kimi deyil, həm də onu ixrac edən ölkə kimi şöhrətini artıracaq.

"Cənub qaz dəhlizi", həmçinin region ölkələrinin öz enerji resurslarını dünya bazarına çıxarmaq üçün yeni mənbə olacaq. Regionun və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində böyük rol oynayacaq. Dövlətlər və xalqlar arasında qarşılıqlı əməkdaşlığın, işgüzar əlaqələrin inkişafına xidmət edəcək. Layihənin iştirakçısı olan bütün ölkələr, şirkətlər mənfəət əldə edəcək və insanların rifahı yüksələcək.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Lavrovun bəyanatında "əhali" sözünün qeyd olunması Dağlıq Qarabağın azərbaycanlı icmasının mövqeyinə uyğundur

**Məlum olduğu kimi, Rusiyanın Xarici İşlər naziri Sergey Lavrovun Bakıya səfəri zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsi diqqət mərkəzində olub.**

Rusiyanın Xarici İşlər naziri xüsusilə Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icmaları arasında birbaşa təmasların bərpa olunmasının əhəmiyyətini qeyd edib, bunun çox perspektivli mövzu olduğunu bildirib. S.Lavrov, həmçinin Dağlıq Qarabağın bütün əhalisinin istənilən halda gələcəkdə necə yaşayacaqlarını birgə müəyyən edəcəklərinin önəmini vurğulayıb. S.Lavrovun sözügedən bəyanatında "əhali" sözünün qeyd olunması Dağlıq Qarabağın azərbaycanlı icmasının bu qəbildən olan bəyanatlarının ruhuna uyğundur.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının bəyanatında yer alıb.

"Bizim əvvəlki bəyanatlarımızda dəfələrlə bildirildiyi kimi, Ermənistan qoşunlarının işğal olunmuş ərazilərimizdən çıxarılması, azərbaycanlı məcburi köçkünlərin öz doğma torpaqlarına geri qayıtması və ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin bərpa edilməsindən sonra, Dağlıq Qarabağ bölgəsində erməni icması ilə sülh şəraitində birgə yaşayışın yenidən bərpa edilməsinin tərəfdarıyıq.

Dağlıq Qarabağın əzəli azərbaycanlı sakinləri öz torpaqlarına qayıtmayınca, bölgənin hər hansı formada inkişafından söhbət gedə bilməz. Bizim ali məqsədimiz öz yurdumuza qayıtmaq, dağıdılmış tarixi, mədəni, dini irsimizi bərpa etmək və Dağlıq Qarabağda yenidən insanların dinc, xoşbəxt şəkildə yaşayışını təmin etməkdir. Yalnız belə olan halda bölgəmizdə ədalətli və daimi sülhün bərqərar edilməsi mümkündür", - deyə bəyanatda vurğulanır.

# İslahatların yeni mərhələsi başlayır

## Prezidentin sorğusuna cavab olaraq Konstitusiya Məhkəməsinin Plenumu Milli Məclisin buraxılmasının Əsas Qanuna uyğun olması barədə qərar qəbul etdi

Əvvəli 1-ci səh.

Prezidentin toxunduğu məsələlərin real həyata sürətlə vəsiqə alması da göstərir ki, ölkədə artıq yeni inkişaf dövrü başlayıb. Bu dövrün xüsusilə diqqəti çəkən məqamlarından biri 2019-cu ilin əvvəllərindən başlanan yeni islahatlardır. İdarəetmədə çevikliyi artırmaq məqsədilə başlanan struktur islahatları daha sonra sosial sferanı əhatə etdi. Milyonlarla vətəndaşın rifahında əhəmiyyətli dərəcədə hiss olunan sosial islahatlar çərçivəsində çoxmənzilli binalarda vətəndaşların mülkiyyət hüquqlarının təmin olunması ilə bağlı uzun illərdir mövcud olan çətinliklər, o cümlədən problemli kreditlər məsələsi öz hüquqi həllini tapdı.

*"2019-cu ildən başlayan islahatların əsas hədəfi Azərbaycanı müasir, inkişaf edən və gələcəkdə inkişaf etmiş ölkəyə çevirməkdir, ölkədə mövcud olan nöqsanları aradan qaldırmaqdır, vətəndaşları narahat edən problemləri tamamilə gündəlikdən çıxarmaqdır, insanların rifah halını yaxşılaşdırmaqdır, daha güclü, qüdrətli dövlət qurmaqdır".* Prezident İlham Əliyevin fevral ayında söylədiyi bu fikirlər ilin əvvəlindən ölkədə başlanan islahatların məzmun mahiyyətini tam dolğunluğu ilə əks etdirir. Cənab Prezidentin qeyd etdiyi məsələlərin nəticəsi olaraq aprel ayının əvvəllərindən ölkədə həyata keçirilən islahatlara biri də əlavə edildi. 3 aprel tarixli fərmanla bu dəfə islahatlar məhkəmə-hüquq sistemini əhatə etdi.

Təbii ki, daha sürətli inkişafa nail olmaq, zamanla, müasir çağırışlarla ayaqlaşmaq üçün islahatlar da kompleks xarakter daşımalı, dövlət idarəetməsinin bütün qollarını əhatə etməlidir. İlham Əliyev məsələyə bu prizmadan yanaşır və islahatların bütün hakimiyyət orqanlarına sirayət etməsini zəruri sayır. Təsadüfi deyil ki, məhkəmə islahatlarından sonra struktur islahatlarının davamı olaraq dövlət hakimiyyətinin digər qolu olan icra hakimiyyəti ilə də bağlı mühüm qərarlar qəbul edildi. O cümlədən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının işinin təkmilləşdirilməsi və qarşıya qoyulan vəzifələrdən irəli gələrək strukturun tərkibi yenidən formalaşdırıldı.

Bütün bunlar, o cümlədən Nazirlər Kabinetində, yerli icra hakimiyyəti orqanlarında, regional idarəetmə orqanlarında, ümumiyyətlə, dövlət və cəmiyyət həyatının bütün sahələrində aparılan struktur və kadr islahatları ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmaqdadır.

### Parlament islahatlardan geri qalmamalıdır

Artıq dövlət hakimiyyətinin iki qolunda və qeyd edildiyi kimi cəmiyyət həyatının digər sferalarında keçirilən islahatların qanunvericilik hakimiyyətini də əhatə etməsi ölkədə baş verən köklü yeniliklərdən irəli gələn sosial və siyasi sifarişdir. Bu baxımdan dərinləşən islahatlara paralel olaraq siyasi islahatların davam etdirilməsi, indiki halda qanunverici orqanın yenilənməsi mühüm əhəmiyyət kəsb edir. Milli Məclis də ölkədə həyata keçirilən islahatların daha da genişlənməsi və dərinləşməsi prosesindən kənarda qalmamalı, dövlətçiliyə xidmət nümunəsi göstərməlidir.

Milli Məclisdə çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasının üzvü olan deputatların təşəbbüsü ilə parlamentin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi barədə Prezidentə müraciətin edilməsi də bu zərurətdən irəli gəlir. Müraciətdə deyilir: *"Azərbaycan Respublikasının Milli Məclisi hesab edir ki, Azərbaycan parlamenti ölkədə aparılan genişmiqyaslı institusional və kadr islahatlarından geri qalmamalı, fəaliyyətini yenidən qurmalıdır. Buna görə də Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan Respublikası Konstitusiyasının 94-cü və 95-ci maddələrində nəzərdə tutulmuş səlahiyyətlərinin yuxarıda qeyd olunan müasir çağırışlara uyğun həyata keçirilməsi və xalqın etimadının yenidən qazanılması üçün Milli Məclis buraxılmalı və parlamentə növbədənkənar seçkilər keçirilməlidir".*

YAP deputat korpusunun bu təşəbbüsü ölkədə aparılan genişmiqyaslı islahatların yaratdığı hüquqi, siyasi tələblərlə bağlıdır. Ona görə də parlamentdə YAP-ı təmsil edən Milli Məclisin üzvləri haqlı olaraq Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən islahatların hakimiyyətin digər qolları kimi parlamenti də əhatə etməsini vacib sayırlar. Bu qərar Azərbaycanın müstəqilliyi tarixində ilk belə siyasi hadisədir. Bu mənada YAP həm yarananda, həm hakim partiya statusunu qazandıqda və sonrakı fəaliyyətində olduğu kimi bu dəfə də siyasi nümunə ortaya qoydu.

Azərbaycan yeni dövrə qədəm qoyub. İslahatlar məzmununa görə məqsədyönlü və konkret hədəfə doğru hesablanıb. Ən əsası bu islahatlar məhdud sfera ilə məhdudlaşmayaraq kompleks xarakter daşıyır. Xüsusən çevikliyin, operativliyin, şəffaflığın, vətəndaş məmnuniyyətinin təmin olunması bu dövrdə dövlət idarəetməsinin qarşısında duran əsas vəzifələrdir. Ona görə də islahatların bütün dövlət idarəetmə sistemini əhatə etməsi vacibdir. İcra və məhkəmə hakimiyyətindən sonra islahatlar həm də qanunvericilik hakimiyyətini əhatə edəcək. Hakimiyyətin bütün qollarında islahatların keçirilməsi isə həm də onların qarşılarında duran uzlaşdırılmış vəzifələrin müasir çağırışlara tələb olunan səviyyədə cavab verə bilmək baxımından icrasında mühüm əhəmiyyət kəsb edəcək.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# “Azercell” “BakuTel” çərçivəsində yeni əməkdaşlıqlara imza atdı







**Davamlı texnoloji inkişaf üçün yeni imkanlardan faydalanaraq “Bakutel-2019” Telekommunikasiya sərgisi çərçivəsində “Azercell” “Ericsson” şirkəti ilə Azərbaycanda 5G-nin inkişafını sürətləndirmək məqsədilə strateji tərəfdaşlığa başlayır.**

“Bakutel” sərgisinin ilk günü imzalanan Anlaşma Memorandumu, 5G ilə bağlı layihələrin, sınaqların sınağı və 2020-2022-ci illər üçün texniki sınaqların fəaliyyət planı xəritəsini əhatə edir.

Bu ilin noyabr ayında “Azercell” tərəfindən Azərbaycanda ilk dəfə olaraq 5G şəbəkəsinin flaqman mağazasında uğurla sınaqdan keçirilməsindən sonra “Azercell” və “Ericsson” Bakı şəhərinin mərkəzində 5G şəbəkəsini sınaqdan keçirməyə davam etdilər. Tərəfdaşlar ziyarətçilərə mobil cihazlarda 5G şəbəkəsindən yararlanmaq imkanı verən, Fəvvarələr Meydanında yerləşən kommersiya-öncəsi 5G pilot zonasını yaratmış oldular.

Ölkənin əsas telekom sərgisi - “Bakutel 2019” tədbirində şirkətlər açıq 5G sürət testi zamanı 1 Gigabit yükləmə həddinə çataraq beşinci nəsil mobil internet bağlantısının inkişaf etmiş imkanlarını nümayiş etdirdilər. Ziyarətçilər Birgə Multisensor Kommunikasiya, 5G konfrans və VR multiplayer oyun zonaları kimi üç 5G demo imkanlarının şahidi oldular.

“Azercell” və “Ericsson” “Bakutel 2019” sərgisində 5G istifadə imkanlarının inkişafını, mədən sənayesində, kənd təsərrüfatında, istehsalatda, mənzil və kommunal təsərrüfatlarında IoT (Əşyaların interneti) texnologiyasının tətbiqi daxil olan, amma bununla məhdudlaşmayan 5G kommersiya-öncəsi pilot zonasını genişləndirmək planını əhatə edən Anlaşma Memorandumu imzaladılar.

“Şirkət olaraq, biz hər zaman gələcəyin qurulmasını prioritet tutub, ən son texnoloji yeniliklər dövründə yüksək sürətli mobil internet və daimi innovativ həllər təqdim etməyə hədəflənirik. Daimi tərəfdaşımız “Ericsson” ilə birlikdə “Azercell” ölkədə ilk 5G pilot şəbəkəsini istifadəyə verərək, özünü dünyanın mobil bazarındakı liderləri ilə bərabər səviyyəyə çatdırdı. İnanırıq ki, 5G mobil internet bağlantısı üçün böyük bir addım olmaqla yanaşı, müəssisə və sənaye sahələrində daha yüksək məhsuldarlıq, effektivlik və müsbət müştəri təcrübəsi qazandırmaq üçün yeni imkanlar açacaq” deyə “Azercell”in prezidenti Vahid Mürsəliyev bildirib.

“Azercell”in hazırda mövcud olan ən qabaqcıl telekomunikasiya texnologiyası olan 5G dünyasına səyahətdə dəstək göstərməkdən məmnunuq. Hal-hazırda “Ericsson” tərəfindən təchiz edilmiş 24 canlı 5G şəbəkəsi dörd qitənin 14 ölkəsində istifadəyə verilmişdir. Bu ölkələrdə istehlakçılar 5G satış xidmətlərindən çox razıdırlar, bu texnologiya çox sürətlə yayılır. Bu gün Azərbaycandakı əsas tərəfdaşımız olan “Azercell” ilə birlikdə 5G-nin verə biləcəyi daha geniş imkanlar, innovativ həllər və tətbiqlərə yol açmaqdan qürur duyuruq" deyə “Ericsson”un Şərqi Avropa və Orta Asiya bölgəsi üzrə prezidenti Sebastian Tolstoy qeyd edib.

Qeyd edək ki, sərgi çərçivəsində, “Azercell” şirkətinin prezidenti Vahid Mürsəliyev həmçinin “SmartCell” həllinin tətbiqi ilə bağlı Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Məlumat Hesablama Mərkəzinin direktoru Elnar Əsədov ilə Anlaşma Memorandumu imzalayıb. Məlumat üçün bildirək ki, “SmartCell” - üz tanıma texnologiyası (Face ID) ilə mobil nömrələrin satışını həyata keçirən rəqəmsal nömrə satışı sistemidir.

*“Azərbaycan”*

# “AzerTelecom” “BakuTel” sərgisində “Azerbaijan Digital Hub” proqramını təqdim edir






**Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral internet provayderi “AzerTelecom” şirkəti 3-6 dekabr tarixləri arasında Bakıda keçirilən “BakuTel” 2019 - 25-ci Yubiley Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgisində Azərbaycanın Regional Rəqəmsal Mərkəzə çevrilməsi istiqamətində icra etdiyi “Azerbaijan Digital Hub” proqramını təqdim edir.**

“AzerTelecom” şirkətinin baş direktoru Fuad Allahverdiyevin sözlərinə əsasən, sərgidə proqramın icra mərhələləri çərçivəsində həyata keçirilən layihələr barədə sərginin yerli və xarici iştirakçılarına ətraflı məlumat verilir. “AzerTelecom” 2018-ci ildən başlayaraq Azərbaycanın Qafqaz, MDB, Orta və Cənubi Asiya, Yaxın Şərq və ətraf regionlar üçün rəqəmsal mərkəzə çevrilməsi üçün “Azerbaijan Digital Hub” proqramının icrasına başlayıb. Proqram 3 mərhələdən ibarət olmaqla, magistral infrastruktur quruculuğunu, Bakının İnternet Mübadilə Mərkəzinə çevrilməsini, Azərbaycanda iri Data mərkəzin tikilməsini və ümumilikdə rəqəmsal ekosistemin qurulmasını nəzərdə tutur.

Biz hazırda “Digital Hub” proqramı çərçivəsində ilkin infrastruktur quruculuğu mərhələsindəyik və həm ölkə daxilində, həm də ölkə xaricində iri infrastruktur quruculuğu layihələri icra edirik. Ölkə xaricində magistral infrastruktur quruculuğu Azərbaycan və Orta Asiya ölkələri arasında Xəzər dənizinin dibi ilə yüksək məlumatötürmə imkanlarına malik magistral kabel xəttinin çəkilməsini nəzərdə tutur. İki istiqamətdən - Azərbaycan-Qazaxıstan və Azərbaycan-Türkmənistan marşrutlarından ibarət olan layihə Azərbaycandan keçməklə Avropa ilə Asiya arasında Rəqəmsal İpək yolunu formalaşdıracaq. Şirkətimizin iştirakı ilə bu yaxınlarda dövlət-özəl sektor konsorsiumu da təsis edilib və biz konsorsiumun Azərbaycanın regionda rəqəmsal qovşaq olaraq mövqeyinin daha da güclənməsi, rəqəmsal texnologiyaların müxtəlif sahələrdə tətbiqinin daha da genişlənməsinə töhfə verməsi istiqamətində fəaliyyət göstəririk” deyə Fuad Allahverdiyev bildirib.

Sərgidə “Azerbaijan Digital Hub” proqramının logosu da təqdim olunub.

“AzerTelecom” - Azərbaycanın telekommunikasiya operatorudur. Şirkət ölkənin ilk mobil operatoru və ən sürətli mobil internet provayderi olan “Bakcell” şirkətinin törəmə müəssisəsidir. “AzerTelecom” şaxələnmiş şəbəkə vasitəsilə Azərbaycanı beynəlxalq internet şəbəkəsi ilə birləşdirir. Şirkət telekommunikasiya sektorunda yerli və xarici şirkətlərə müxtəlif qabaqcıl xidmətlər təqdim edir.

*“Azərbaycan”*

# Bakıda İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Kənd Təsərrüfatı nazirlərinin VI iclası keçirilib

## Azərbaycan Regional Aqrar Tədqiqatlar və İnnovasiya Mərkəzinin yaradılması təşəbbüsü ilə çıxış edib

**Bakıda İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) üzv ölkələrin Kənd Təsərrüfatı nazirlərinin VI iclası keçirilib.**



Tədbirdə Kənd Təsərrüfatı naziri İnam Kərimov, Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev, Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli, ECO-nun Baş Katibinin müavini Sayed Yahya Axlaqi, ECO-ya üzv ölkələrin Kənd Təsərrüfatı nazirləri - Türkiyənin Kənd Təsərrüfatı və Meşəçilik naziri Bekir Pakdemirli, Qırğızıstanın Kənd Təsərrüfatı, Qida Sənayesi və Meliorasiya naziri Erkinbek Çoduyev, Özbəkistanın Kənd Təsərrüfatı naziri Jamşid Xocayev, Tacikistanın Kənd Təsərrüfatı naziri Sattori Izzatullo, Qazaxıstanın Kənd Təsərrüfatı nazirinin müavini Nurbek Dairmekov, Kənd Təsərrüfatı Nazirliyi Aparatının və tabeli qurumların mütəxəssisləri, üzv ölkələrin kənd təsərrüfatı nazirliklərinin mütəxəssisləri və ECO-nun müvafiq qurumlarının nümayəndələri, təşkilatın katibliyinin rəhbər şəxsləri və əməkdaşları, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) Azərbaycan nümayəndəliyinin təmsilçiləri, Türkiyə-Azərbaycan Dostluq Qrupunun rəhbəri Şamil Ayrım, Türkiyə Böyük Millət Məclisinin Kənd Təsərrüfatı və Meşə Komissiyasının sədri, eləcə də BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) və Dünya Bankının rəsmiləri, aqrar sahə üzrə ekspertlər iştirak edib.

İclası açan Kənd Təsərrüfatı naziri İnam Kərimov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yürütdüyü siyasət nəticəsində iqtisadiyyatın digər sahələri kimi, aqrar sahə də keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyub: “Azərbaycan bölgədə sürətlə inkişaf edən iqtisadiyyata sahib olan ölkədir. Son 15 il ərzində iqtisadiyyatımız üç dəfədən çox artıb. Beynəlxalq təşkilatların hazırladıqları hesabatlarda Azərbaycanda sosial-iqtisadi islahatların uğurla aparıldığı qeyd olunur. Dünya Bankının “Doing Business 2020” hesabatında Azərbaycanın dünyanın ən çox islahat aparan 20 ölkəsindən biri seçilməsi bunu bir daha sübut edir. Ölkədə aqrar sahə qeyri-neft sektorunun ən aparıcı sahəsi elan edilib. Son illər bu istiqamətdə ölkəmizdə sistemli şəkildə həyata keçirilən islahatların, o cümlədən göstərilən yüksək dövlət qayğısının nəticəsi olaraq kənd təsərrüfatı sahəsində istehsal göstəriciləri davamlı olaraq yüksəlib. Təkcə bu ilin doqquz ayında aqrar sektorda artım yeddi faizdən çox olub. Prezident İlham Əliyev tərəfindən həyata keçirilən aqrar islahatlar kənd təsərrüfatının daha da inkişafını nəzərdə tutur və bu məqsədlə dövlət tərəfindən çox böyük dəstək tədbirləri həyata keçirilir”.

İqtisadi Əməkdaşlıq Təşkilatının regional əməkdaşlıq və həmrəyliyin vacib platformalarından biri olduğunu deyən nazir İnam Kərimov əlavə edib ki, üzv ölkələr arasında iqtisadiyyat və ticarət sahəsində əlaqələrin genişləndirilməsi üçün böyük potensial mövcuddur. Regional əməkdaşlığın genişləndirilməsinin vacib olduğunu diqqətə çatdıran İnam Kərimov ECO-ya üzv ölkələrin Regional Aqrar Tədqiqatlar və İnnovasiya Mərkəzinin (ECO-RARiN) yaradılması təşəbbüsü ilə çıxış edib: “Mərkəzin fəaliyyəti ilə bağlı sənəd layihəsi Azərbaycanın Kənd Təsərrüfatı Nazirliyi tərəfindən hazırlanaraq yerli dövlət qurumları və üzv ölkələrlə razılaşdırılıb. Mərkəzin yaradılmasında əsas məqsəd aqrar tədqiqatlar, innovasiyaların tətbiqi və müasir texnologiyaların ötürülməsində ECO-ya üzv ölkələr arasında regional səviyyədə sıx və səmərəli əməkdaşlığın qurulmasına nail olmaqdır. Bu məqsədlə üzv ölkələrdə fəaliyyət göstərən bütün müvafiq qurumlar və ya mərkəzlər sıx əməkdaşlıq edəcək”.

Tədbirdə çıxış edən ECO-nun Baş Katibinin müavini Sayed Yahya Axlaqi təşkilatın fəaliyyət planı, icra olunan layihələr və həyata keçirilən tədbirlər barədə məlumat verib. O, ECO-ya üzv ölkələri kənd təsərrüfatı sahəsində mövcud potensialdan tam istifadə etməyə çağırıb.

Daha sonra Kənd Təsərrüfatı naziri İnam Kərimov İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) üzv ölkələrin kənd təsərrüfatı nazirlərinin VI iclasının sədri seçilib və tədbirin gündəliyi təsdiqlənib.

Tədbirdə çıxış edən Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev iqlim dəyişiklikləri və qida təhlükəsizliyi istiqamətində regional əməkdaşlığın gücləndirilməsinin vacib olduğunu diqqətə çatdırıb.

Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli isə Azərbaycanda qida təhlükəsizliyinin təmin edilməsi istiqamətində görülən işlər barədə iclas iştirakçılarını məlumatlandırıb.

Tədbirdə üzv ölkələrin Kənd Təsərrüfatı nazirləri, ECO-nun ixtisaslaşmış agentlikləri - regional təsisatlarının rəhbərləri çıxış edərək təşkilata üzv ölkələr arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq imkanlarına toxunublar. İclasda ECO ölkələri arasında aqrar sahədə əməkdaşlığın mövcud vəziyyəti, təşkilatın və onun ixtisaslaşmış orqanlarının həyata keçirdiyi regional layihələr, üzv ölkələr tərəfindən irəli sürülən yeni təşəbbüslər və gələcək əməkdaşlıq istiqamətləri ətraflı müzakirə olunub.

İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin kənd təsərrüfatı nazirlərinin VI iclasının sonunda ECO regionunda kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi sahəsində əməkdaşlıq üzrə Bakı Bəyannaməsi və iclasın hesabatı qəbul edilib. Bakı Bəyannaməsində üzv ölkələr arasında kənd təsərrüfatı və ticarət sahəsində əməkdaşlığın inkişaf etdirilməsinin perspektivləri, ECO-ya üzv ölkələrin Regional Aqrar Tədqiqatlar və İnnovasiya Mərkəzinin yaradılması və digər məsələlər öz əksini tapıb.

Sonda birgə foto çəkdirilib.

# İrandan Azərbaycana külli miqdarda narkotik maddənin keçirilməsinin qarşısı alınıb

Dövlət Sərhəd Xidmətinin (DSX) əməkdaşları narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində tədbirləri davam etdirirlər.

Cari il noyabrın 29-da Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının “Göytəpə” sərhəd dəstəsinin xidməti ərazisində Yardımlı rayonunun Qaravuldaş kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində İran İslam Respublikasından Azərbaycan Respublikasına doğru hərəkət edən 1 nəfər naməlum şəxsin hərəkəti sərhəd naryadı tərəfindən müşahidə edilib.

Sərhəd naryadının “dayan” əmrinə tabe olmayan sərhəd pozucusuna qarşı silahdan havaya xəbərdarlıq məqsədilə atəş açılıb, lakin sərhəd pozucusu əlindəki bağlamanı əraziyə ataraq havanın qaranlıq olmasından və relyefin mürəkkəbliyindən istifadə edərək geriyə qaçıb. Həmin ərazi dərhal qapadılaraq axtarış tədbirləri keçirilib. Nəticədə içərisində ümumi çəkisi 4 kiloqram 618 qram marixuana olan 1 ədəd qara rəngli torba aşkar olunaraq götürülüb.

Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

*“Azərbaycan”*

## Holcim Azərbaycan Təchizat və Müqavilələr şöbəsi *tərəfindən tender elanı*

Holcim Azərbaycan ASC təchizatcı şirkətlər bazasını artırmaq məqsədi ilə aşağıda göstərilən xidmət üzrə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən şirkətləri əməkdaşlıq etməyə dəvət edir:

**- Arc Flash PPE**

Holcim Azərbaycan ASC-nin işçiləri üçün nəzərdə tutulan ARC Flash tipli avadanlığın sifarişi

Maraqlı tərəflər yuxarıda göstərilən xidmətin adını qeyd edib, şirkətin profayl məlumatlarını 10 dekabr 2019-cu il tarixinədək offer-aze@lafargeholcim.com elektron ünvanına göndərə bilər.

Holcim Azerbaijan ASC -nin tələblərinə uyğun olan sirkətlərə əlavə məlumat veriləcək.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində təkliflər sorğusu metodu ilə Bakı şəhəri Nizami və Xəzər rayonlarında yeni açılacaq DOST mərkəzləri üçün LOT 1 - mebel üzlük, arakəsmələr, barrisol və digər inventarların satın alınması və LOT 2 - mebel və digər inventarların satın alınması ilə əlaqədar satınalma müsabiqəsinin qalibi “Dekoriko” MMC olmuşdur.

*Tender komissiyası*

## “BANK RESPUBLİKA” ASC SƏHMDARLARININ NƏZƏRİNƏ!

**Səhmdarların növbədənkənar ümumi yığıncağı 07 yanvar 2020-ci il saat 11:00-da Xaqani küçəsi, 21 ünvanında yerləşən bankın Baş Ofisində keçiriləcək.**

1. İclasın sədrinin və katibinin təyin edilməsi.
2. İclasın gündəliyinin təsdiq edilməsi.
3. “Bank Respublika” ASC-də Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında.
4. “Bank Respublika” ASC-nin ilin maliyyə nəticələri, Mükafatlandırma siyasətinin təsdiqi və mükafatın ödənilməsi haqqında.
5. “Bank Respublika” ASC-nin Səhmdarların Ümumi Yığıncağının Əsasnaməsinin təsdiq edilməsi haqqında.
6. “Bank Respublika” ASC-nin Müşahidə Şurasının Əsasnaməsinin təsdiq edilməsi haqqında.

*Tender komissiyası*

# Pambıq qəbulu məntəqələrinə 293 min tondan çox məhsul təhvil verilib

**Dekabrın 4-dək ölkə üzrə pambıq qəbulu məntəqələrinə 293 min 119 ton məhsul təhvil verilib.**

Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 32,5 faiz çoxdur. Keçən il dekabrın 4-dək 221 min 284 ton pambıq tədarük olunmuşdu.

Bu il Azərbaycanda 100111 hektar ərazidə pambıq əkilib. Saatlı (13741 hektar), Ağcabədi (10452 hektar), Biləsuvar (10257 hektar), Bərdə (10140 hektar), Beyləqan (9706 hektar), Sabirabad (8630 hektar) və İmişli (7492 hektar) ən çox pambıq əkini aparılmış rayonlardandır.

AZƏRTAC respublikada pambıq tədarükünə dair dekabrın 4-nə olan operativ məlumatı təqdim edir.

**04.12.2019-cu il tarixə pambıq tədarükünə dair operativ məlumat**

| Rayonlar | Əkin sahəsi, hektar | | | 04 dekabr tarixə pambıq qəbulu məntəqələrinə təhvil verilmişdir, ton | | |
|---|---|---|---|---|---|---|
| | 2019-cu il | 2018-ci il | 2019-cu il 2018-ci ilə nisbətən | 2019-cu il | 2018-ci il | 2019-cu il 2018-ci ilə nisbətən |
| **Respublika üzrə cəmi** | **100111,7** | **132512,0** | **75,5%** | **293119,84** | **221284,57** | **132,5%** |
| Ağcabədi rayonu | 10452,3 | 10000,0 | 104,5% | 32022,64 | 22301,99 | 143,6% |
| Ağdam rayonu | 2600,0 | 3100,0 | 83,9% | 7280,24 | 5357,27 | 135,9% |
| Ağdaş rayonu | - | 3185,0 | - | - | 3688,00 | - |
| Ağsu rayonu | 1000,0 | 2600,0 | 38,5% | 993,56 | 1830,33 | 54,3% |
| Beyləqan rayonu | 9706,1 | 9560,0 | 101,5% | 29306,40 | 20753,71 | 141,2% |
| Bərdə rayonu | 10140,0 | 9630,0 | 105,3% | 33947,47 | 24122,90 | 140,7% |
| Biləsuvar rayonu | 10257,7 | 12000,0 | 85,5% | 29878,12 | 21025,25 | 142,1% |
| Cəlilabad rayonu | 507,7 | 505,0 | 100,5% | 1226,55 | 1166,00 | 105,2% |
| Füzuli rayonu | 800,0 | 2100,0 | 38,1% | 1623,68 | 1977,20 | 82,1% |
| Goranboy rayonu | 3102,2 | 5000,0 | 62,0% | 7258,15 | 8622,20 | 84,2% |
| Hacıqabul rayonu | 400,0 | 1300,0 | 30,8% | 565,21 | 1129,59 | 50,0% |
| İmişli rayonu | 7492,3 | 13645,0 | 54,9% | 19684,77 | 17474,24 | 112,7% |
| Kürdəmir rayonu | 2809,2 | 5030,0 | 55,8% | 6284,89 | 6249,19 | 100,6% |
| Neftçala rayonu | 5087,0 | 7000,0 | 72,7% | 16041,93 | 9806,34 | 1,6 dəfə |
| Saatlı rayonu | 13741,0 | 15815,0 | 86,9% | 41635,19 | 29228,81 | 142,4% |
| Sabirabad rayonu | 8630,0 | 13055,0 | 66,1% | 25109,54 | 16536,21 | 1,5 dəfə |
| Salyan rayonu | 4788,2 | 7055,0 | 67,9% | 15855,49 | 9956,31 | 1,6 dəfə |
| Samux rayonu | - | 400,0 | - | - | 913,17 | - |
| Tərtər rayonu | 3427,2 | 3300,0 | 103,9% | 11920,92 | 7773,59 | 1,5 dəfə |
| Ucar rayonu | 500,0 | 2500,0 | 20,0% | 959,82 | 1555,93 | 61,7% |
| Yevlax şəhəri | 2406,8 | 2500,0 | 96,3% | 6307,93 | 5128,85 | 123,0% |
| Zərdab rayonu | 2264,0 | 3232,0 | 70,0% | 5217,34 | 4687,49 | 111,3% |

**Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi**

# Naxçıvanda Şeyxülislam Allahşükür Paşazadənin 70 illik yubileyi qeyd olunub



**Dekabrın 4-də Naxçıvanda Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin isə 40 illik yubileyi qeyd olunub.**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, tədbir müqəddəs "Qurani-Kərim"dən ayələrin oxunması ilə başlanıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2019-cu il 9 aprel tarixli Sərəncamına əsasən Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin isə 40 illik yubileyinin ölkəmizdə geniş qeyd olunduğunu bildirib, yubileylər münasibətilə Allahşükür Paşazadə Həzrətlərini təbrik edib, ona uzun ömür və möhkəm cansağlığı arzulayıb.

Ali Məclisin Sədri deyib: Tarixə nəzər salsaq, aydın görmək mümkündür ki, din o yerdə mənəvi dəyər kimi formalaşır ki, orada dövlət başçıları dini dəyərlərə qayğı ilə yanaşır, din xadimlərinin fəaliyyətinə hərtərəfli şərait yaradırlar. Ötən əsrin 70-80-ci illəri və 1993-cü ildən sonrakı dövr Azərbaycan tarixində belə bir mərhələ təşkil etmişdir. Ümummilli Liderimiz Heydər Əliyev ölkəmizə hər iki rəhbərliyi dövründə dinə münasibətdə fərqli yanaşma ortaya qoymuş, dini-mənəvi dəyərlərimizin qorunub yaşadılması qayğısına qalmışdır. Bu gün ölkə Prezidenti tərəfindən davam etdirilən bu siyasət, Azərbaycanda formalaşmış dövlət-din münasibətləri, tolerantlıq və dini həmrəylik dünyada nümunə kimi qəbul edilir. Görkəmli din xadimi Şeyxülislam Allahşükür Paşazadə də fəaliyyətində Ümummilli Liderin ideyalarına sonsuz sədaqəti ilə seçilmiş, islam dininin düzgün təbliği, cəmiyyətdə dini-mənəvi həmrəyliyin möhkəmləndirilməsi və dövlət-din münasibətlərinin inkişafında mühüm xidmətlər göstərmişdir. Ulu Öndərimiz Heydər Əliyev deyirdi ki, "Müqəddəs dinimiz olan islamın gözəl ənənələrinin ölkəmizdə, eləcə də bütün Qafqaz bölgəsində qorunub saxlanılması və möhkəmləndirilməsində Şeyxülislam Allahşükür Paşazadənin xüsusi xidmətləri vardır. Onun Qafqaz Müsəlmanları İdarəsinə rəhbərlik etdiyi illər ərzində bu dini qurum islam dəyərlərinin geniş təbliğ olunması, müsəlmanların dini-mənəvi birliyinin möhkəmləndirilməsi, onların cəmiyyətin həyatında fəallığının artırılması işində böyük rol oynayan mühüm mərkəzlərdən birinə çevrilmişdir".

Ali Məclisin Sədri deyib: Şeyxülislam Allahşükür Paşazadə hələ orta məktəb illərində yerli ruhanilərdən dini təhsil almış, Buxarada "Mir-Ərəb" mədrəsəsinə daxil olmuş, buranı bitirdikdən sonra isə Daşkənd İslam Universitetində ali dini təhsilini davam etdirmişdir. Təhsilini başa vurub Azərbaycana qayıtdıqdan sonra Allahşükür Paşazadə Qafqaz Müsəlmanları İdarəsinin məsul katibi, Təzəpir məscidinin axundu və Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini, Naxçıvan Muxtar Respublikasının qazısı vəzifələrində çalışmışdır. 1980-ci ildə Qafqaz Müsəlmanları İdarəsinin sədri seçilən Allahşükür Paşazadənin şeyxülislamlıq fəaliyyətinin ilk illəri Sovet imperiyasının çətin dövrlərinə təsadüf etmişdir. Lakin müxtəlif siyasi hadisələrin real şahidi və iştirakçısı olmasına baxmayaraq, Şeyx Həzrətləri vətəndaşlıq mövqeyini və azərbaycançılıq ideyalarına sədaqətini hər zaman ləyaqətlə nümayiş etdirmişdir. Fərqli quruluşlarda fəaliyyət göstərsə də o, sülhməramlı tədbirlərin bilavasitə təşkilatçısı və təbliğatçısı kimi böyük şöhrət və nüfuz qazanmışdır. Sovetlər Birliyi dövründəki dörd müsəlman ruhani idarəsindən yalnız Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi Şeyxülislam Allahşükür Paşazadənin şəxsi nüfuzu sayəsində öz mahiyyətini qoruyub saxlamış, bu gün Qafqaz Müsəlmanları İdarəsi kimi regionun ən güclü dini mərkəzinə çevrilmişdir.

Qeyd olunub ki, istər keçmiş Sovetlər Birliyi dövründə, istərsə də müstəqillik illərində Allahşükür Paşazadə xalqımız üçün taleyüklü məsələlərdə təkcə din xadimi kimi deyil, həm də ictimai fəaliyyəti ilə əsl vətəndaşlıq mövqeyi nümayiş etdirmişdir. 1989-cu ildə ilk müsəlman din xadimi olaraq SSRİ Ali Sovetinə xalq deputatı, həmçinin 1990-1995-ci illərdə Azərbaycan Respublikasının Milli Məclisinə Naxçıvan seçki dairəsindən deputat seçilən Şeyxülislam Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin, bütövlükdə Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində səmərəli və məhsuldar fəaliyyəti ilə seçilir. 20 Yanvar hadisələri zamanı dini rəhbər kimi imperiya qüvvələrinə qarşı mübarizədə göstərdiyi böyük fədakarlıq və tutduğu ədalətli mövqe, sonrakı dövrdə xalqımıza qarşı törədilmiş soyqırımları ilə bağlı dünya ölkələrinin dövlət başçılarına, parlamentlərinə və nüfuzlu beynəlxalq təşkilatlara müraciətləri bunu bir daha təsdiq edir. Ulu Öndər Şeyx Həzrətlərinin müstəqil Azərbaycan naminə gördüyü işləri belə dəyərləndirirdi: "Azərbaycan xalqının azadlıq uğrunda mübarizəsində Allahşükür Paşazadənin tutduğu əsl vətəndaş mövqeyi onun ölkədə cərəyan edən mürəkkəb ictimai-siyasi prosesləri obyektiv qiymətləndirmək, yaranmış problemlərin həllində dini amilin gücündən düzgün istifadə etmək bacarığını nümayiş etdirdi".

Ali Məclisin Sədri deyib: Qafqazda millətlərarası, dinlərarası və məzhəblərarası ayrı-seçkiliyin aradan qaldırılması, islam həmrəyliyinin və tolerantlığın təmin olunması sahəsində Şeyx Həzrətlərinin mühüm xidmətləri vardır. Qafqaz Xalqları Ali Dini Şurasının Sədri kimi onun regiondakı münaqişələrin sülh yolu ilə həlli və sabitliyin əldə olunması, dinlər və məzhəblər arasındakı dostluq və dözümlülük münasibətlərinin möhkəmləndirilməsi naminə gördüyü işlər böyük dəyərə malikdir. Bir çox beynəlxalq dini qurum və mərkəzlərin rəhbərliyində təmsil olunan Şeyxülislamın mötəbər beynəlxalq konfranslarda dinlərarası dialoq və əməkdaşlıqla bağlı irəli sürdüyü təşəbbüslər daim yüksək dəyərləndirilir. Allahşükür Paşazadə görkəmli din alimidir. Elmlə dinin vəhdətini yaradan, dini təhsilin vacibliyini önə sürən Şeyxülislam tarix və ilahiyyat elmləri üzrə çoxsaylı monoqrafiyaların, elmi əsərlərin və məqalələrin müəllifidir. O, Qafqaz Müsəlmanları İdarəsinin nəzdində Elmi-Dini Şura yaratmış və ölkənin görkəmli elm və din xadimlərini bu ali qurumun işinə cəlb etmiş, Azərbaycan Respublikasının Prezidenti Yanında Ali Attestasiya Komissiyasının Ekspertlər Şurasına üzv seçilmişdir. Dini maarifçiliyi daim ön planda saxlayan Şeyxülislam Allahşükür Paşazadənin əsərləri tədqiqatçılar üçün həm islamşünaslıq, islam mədəniyyəti və təfriqəçilik, həm də Qurani-Kərimin təfsiri və tərcüməsi tarixinə dair qiymətli mənbələrdir.

Ali Məclisin Sədri deyib: Şeyxülislam Allahşükür Paşazadə ölkəmizdə və beynəlxalq aləmdə böyük nüfuza malik olan şəxsiyyətdir. Onun Azərbaycan dövləti və xalqı qarşısındakı xidmətləri yüksək qiymətləndirilmiş, ölkəmizin nüfuzlu mükafatları olan "Şərəf", "İstiqlal", "Şöhrət" və "Heydər Əliyev" ordenləri ilə təltif olunmuşdur. Lakin şəxsiyyəti ilə fəaliyyəti bir-birini tamamlayan, mənəvi borc anlayışını daim uca tutan Şeyx Həzrətləri çıxışlarının birində həyatda qazandığı bütün uğurların səbəbini belə izah etmişdir: "Heydər Əliyev həzrətləri bizi tolerantlığa, qardaşlığa, dinlər arasında dialoqa və bir-birinə hörmətə çağırırdı və bunu bizə öyrətdi. Bu siyasət bu gün də davam edir".

Şeyxülislam Allahşükür Paşazadənin ölkə Prezidenti tərəfindən uğurla davam etdirilən Heydər Əliyev yoluna sonsuz sədaqəti, dövlət-din münasibətlərinin möhkəmləndirilməsi və Azərbaycan həqiqətlərinin müdafiəsi sahəsindəki çoxşaxəli fəaliyyəti əsl vətənpərvərlik nümunəsidir. Dövlət başçısının müvafiq sərəncamında da deyildiyi kimi: "Şeyxülislam Allahşükür Paşazadə bütün həyatı boyu cəmiyyətdə mənəvi-əxlaqi dəyərlərin və milli həmrəyliyin bərqərar olunması yolunda səmərəli fəaliyyət göstərmiş, yaxın tarixi keçmişdə xalqımızın yaşamış olduğu taleyüklü hadisələr zamanı həm dini rəhbər, həm də ictimai xadim kimi yüksək vətənpərvərlik və əsl vətəndaş mövqeyi nümayiş etdirmişdir".

Ali Məclisin Sədri Şeyxülislam Allahşükür Paşazadəyə nəcib və şərəfli fəaliyyətində böyük uğurlar arzulayıb, əlamətdar yubileyləri münasibəti ilə bir daha təbrik edib.

Ali Məclisin Sədri "Naxçıvan Muxtar Respublikasının 90 illiyi" yubiley xatirə qızıl medalını Şeyxülislam Allahşükür Paşazadəyə təqdim edib.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev, Naxçıvan Muxtar Respublika Qazısı Yanında Şuranın Sədri Sahib Məmmədov, Azərbaycan Yeparxiyasının Arxiyepiskopu Aleksandr İşein, Dağ Yəhudiləri Dini İcmasının rəhbəri Milix Yevdayev, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Azərbaycan Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli çıxış etdilər.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə 70 illik yubileyinin Naxçıvanda qeyd olunmasına görə Ali Məclisin Sədrinə minnətdarlıq edərək deyib: "Bu gün ölkəmizdə dini dəyərlər yaşadılır. Ulu Öndərin yolunu davam etdirən ölkə Prezidenti dövlət-din münasibətlərinin möhkəmləndirilməsinə xüsusi diqqət yetirir. Ölkəmizdə 70 illik yubileyimin qeyd olunması, bu gün isə qədim Naxçıvanda yubiley tədbirimin keçirilməsi fəaliyyətimə verilən yüksək dəyər və qiymətdir. Naxçıvanın mənim qəlbimdə xüsusi yeri vardır. Həyatda nəyə nail olmuşamsa, nə qazanmışamsa, onların hamısında Naxçıvanın payı var. Vaxtilə məni mərkəzdən uzaqlaşdırmaq üçün Naxçıvana qazı göndərdilər. Lakin burada qazı kimi fəaliyyət göstərdiyim illər həyatımın ən dəyərli mərhələsini təşkil etdi və məni formalaşdırdı. Əgər mən Azərbaycan Respublikasının Milli Məclisinə Naxçıvan seçki dairəsindən deputat seçilməsəydim, ölkəmiz üçün ağır günlərdə sözümü deyə bilməzdim. Bu şəraiti mənə naxçıvanlılar yaradıb. Ulu Öndər Heydər Əliyev isə mənə həqiqəti görməyi, doğru yola getməyi, azərbaycançılığı, vətəni və dini sevməyi öyrətdi. Allah mənə nə qədər ömür veribsə, bundan sonra da xalqıma, vətənimə xidmət edəcəyəm".

Sonra "Humanizmə çağırış" filminə baxış olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Şeyxülislam Allahşükür Paşazadə tədbir iştirakçıları ilə xatirə şəkli çəkdiriblər.

## Ordubadda "Allahşükür məscidi" istifadəyə verilib

Dekabrın 4-də Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin yubiley tədbiri çərçivəsində Ordubad rayonunun Dırnıs kəndində "Allahşükür məscidi" istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə açılış tədbirində iştirak ediblər.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə çıxış edərək deyib: "Yeni məscidin istifadəyə verilməsi Naxçıvanda dini dəyərlərə göstərilən qayğının nümunəsidir. Bu yol Ulu Öndər Heydər Əliyev yoludur. Bu yol Azərbaycanı daha işıqlı sabahlara aparır. İlk dəfə adım bir məsciddə əbədiləşir. Bu, mənim üçün böyük qürur və iftixardır. Bütün bunlara görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığımı bildirirəm. Allah doğma Azərbaycanımızı, Naxçıvanımızı qorusun".

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Allahşükür məscidinin istifadəyə verilməsi münasibətilə dindarları və kənd sakinlərini təbrik edərək deyib: Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamına uyğun olaraq Şeyx Həzrətlərinin anadan olmasının 70, Şeyxülislamlıq fəaliyyətinin 40 illiyi ölkəmizdə qeyd olunur. İnsanın dəyəri onun əməyindədir. Zəhmət insanı şəxsiyyətə, ölkələri isə qüdrətli dövlətə çevirir. Şeyx Həzrətlərinin də bu illər ərzində zəhməti onun şəxsiyyət kimi formalaşmasına səbəb olmuşdur. Şeyxülislam Allahşükür Paşazadə Naxçıvanın qazısı olmuş, SSRİ Ali Sovetinin və Azərbaycan Milli Məclisinin deputatı seçilmişdir. Naxçıvanda onun adının əbədiləşdirilməsi Şeyxülislama göstərilən ehtiramın ifadəsidir. Çünki Allahşükür Paşazadə kimi dəyərli insanların fəaliyyəti nəticəsində bu gün ölkəmizdə dini sabitlik hökm sürür.

Ali Məclisin Sədri Allahşükür Paşazadəyə uzun ömür, cansağlığı arzulayıb, məscidin tikilməsində əməyi olanlara təşəkkürünü bildirib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə məsciddə yaradılan şəraitlə tanış olublar.

Məlumat verilib ki, məsciddə axund otağı, qadın və kişi ibadət zalları, eləcə də digər otaqlar yerləşir. Minarəsinin hündürlüyü 19 metr olan məscidin həyətində dəstəmaz yeri tikilib, geniş abadlıq işləri aparılıb, işıqlandırma və suvarma sistemləri qurulub, istilik sistemi ilə təmin edilib.

Sonra məsciddə ilk namaz qılınıb, dualar oxunub.

Ali Məclisin Sədri sakinlərlə görüşüb.

---

Elm xadimləri

# Zəhmət uğur gətirir



Onun fəaliyyətinin böyük bir hissəsi 100 yaşlı Bakı Dövlət Universiteti ilə bağlıdır. Bu təhsil ocağında tələbəlikdən başlayan yolunu İfrat Əliyeva indi Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasının müəllimi, dosent, filologiya elmləri doktoru, professor, Əməkdar müəllim olaraq davam etdirir.

## Arzulardan-arzulara...

Xatirələr həmsöhbətimi uzaqlara aparır: "Uşaqlıq illəri başqa aləmdir, - deyir. - O çağları yada salmaq gözəldir... Mən Bakı şəhərində dünyaya göz açmışam. Amma əslən şirvanlıyıq. Göyçay rayonunun Zərdab qəsəbəsindənik. Atamla anam əmioğlu-əmiqızı idlər. Babalarım xeyriyyəçi olublar. Böyüklərimizdən bu barədə çox eşitmişəm. Nənəm deyərdi ki, babanız çörək verən adam olub, kasıblara əl tutub. Nənəm, babam ali təhsil almayıblar. Amma təhsil tərəfdarı olublar. Həmişə deyirdilər ki, uşaqları oxudub bir ağ günə çıxartmaq lazımdır. Onların bu tövsiyələri, istəkləri bizim ailə ənənəmizə çevrildi".

Bakının şanlı-şöhrətli 132 saylı orta məktəbində oxuyub. Aradan çox illər keçsə də, xatirələrində o günlərin yeri bambaşqadır... Hər dəfə o məktəbin qarşısından keçəndə ayaq saxlayır. Unudulmaz müəllimləri, məktəb yoldaşları gözlərinin önündə canlanır. Deyir ki, bu məktəbin hələ də davam edən gözəl ənənəsi var: "Müəllimlərimiz savadlı və tələbkar olduqları qədər qayğıkeş idilər. Mülayim, sakit, alicənab, humanist idilər. Hətta ən zəif oxuyan şagirdi də danlamırdılar. Təhsilin əhəmiyyətini izah edir, tədris etdikləri fənni başa salırdılar".

O vaxtlar bu təhsil ocağında ancaq qızlar oxuyurdu. Sinifdən-sinfə keçdikcə arzuları qol-qanad açırdı. İfrat Əliyeva həkim olmaq istəyirdi. Uşaqlıqda gəlinciklərini "müalicə edirdi". Anasından xahiş edirdi ki, ona ağ xalat, ağ papaq alsın. Anası gülümsəyirdi: "Qızım, sən hələ Tibb İnstitutuna daxil ol, mən sənə bir deyil, iki xalat, iki papaq alaram".

Həkimlik arzusuyla 8-ci sinifə çatdı. Və bir gün qapı açıldı, sinif otağına hündür boylu, yaraşıqlı, səliqəli, qəhvəyi paltar geyinmiş bir xanım daxil oldu. Salamlaşandan sonra: "Mən sizə Azərbaycan ədəbiyyatı fənnini tədris edəcəyəm" dedi. O günün təəssüratlarını İfrat Əliyeva belə xatırlayır: "Yeni müəllimimiz sakit, aramla şifahi xalq ədəbiyyatı haqda danışmağa başladı. İlk cümlələrindən bizi böyük bir aləmə apardı. Azərbaycan ədəbiyyatının zənginliyi, bayatıları, laylaları, sayaçı sözləri, qoşmaları, dastanları barədə söylədikləri hamımızı heyran etdi. Danışdıqları qulaqlarımızda nəğmə kimi səslənirdi. O gün mən öz-özümə dedim: "Əlvida, həkimlik!". Müəllimin gücünə baxın. Birinci dərsi ilə arzularıma yeni, həm də ömürlük istiqamət verdi. Məni həmişəlik ədəbiyyata bağladı. Həmin müəllim respublikada ən tanınmış pedaqoqlardan biri - Bilqeyis Məmmədova idi...".

## Tələbəlikdən müəllimliyə...

1956-cı ildə orta təhsilini əla qiymətlərlə başa vurdu. 132 saylı orta məktəbin 10b sinfinin məzunu İfrat Əliyeva arzularının ardınca yollandı: "Məktəbimiz də, universitet də o zaman Kommunist (indi İstiqlaliyyət) küçəsində yerləşirdi. O səkidən bu səkiyə keçdim və sənədlərimi Bakı Dövlət Universitetinin Filologiya fakültəsinə verdim. İmtahanlarda ən yüksək bal toplayaraq tələbə adını qazandım. Yenə müəllimlər sarıdan bəxtim gətirdi. Məmməd Arif Dadaşzadə, Mir Cəlal Paşayev, Həmid Araslı, Cəfər Xəndan, Məmməd Cəfər Cəfərov, Cəfər Cəfərov, Feyzulla Qasımzadə, Hadı Mirzəzadə, Muxtar Hüseynzadə, Hidayət Əfəndiyev, Xalid Əlimirzəyev, Muxtar Qasımov kimi böyük alimlərdən dərs aldım. Sevimli müəllimlərimizdən biri də mənə ədəbiyyatı sevdirən Bilqeys Məmmədovanın həyat yoldaşı, filologiya elmləri doktoru, ilk folklorşünas alimlərdən biri Məmmədhüseyn Təhmasib oldu. Bizə dərs deyən bu müəllimlər filologiya elmimizin bayraqdarları idilər. Onlar respublikamızdan kənarda da tanınmış alimlər idi. Hər müəllimdən bir xüsusiyyət götürürdük. Onlar sankı dərs demirdilər, şam kimi əriyirdilər. Bədii ədəbiyyatla nəzəri ədəbiyyatı paralel şəkildə o qədər gözəl, aydın şəkildə təhlil edirdilər ki, söylədikləri beynimizə həkk olurdu. Müəllimlərimiz bizə yalnız elmi biliklər aşılamırdılar, həm də vətənimizi, xalqımızı sevməyi öyrədirdilər. Mən o müəllimlərə borcluyam...".

Bakı Dövlət Universitetində də adı əlaçı tələbələrin sırasında çəkilib. Elə buna görə 1961-cı ildə ona məzunu olduğu ali məktəbdə qalıb işləməyi təklif ediblər. İfrat Əliyeva o günləri xatırlayır: "Filologiya fakültəsində adicə laborant kimi işə başladım. Xeyli müddət sonra baş laborant təyin edildim. Pillə-pillə qalxdım və heç zaman gileylənmədim ki, niyə belə gec oldu. Böyük şəxsiyyətlərlə bir yerdə çalışdım, onlardan öyrəndim. Cəfər Xəndan vəfat etdikdən sonra, 1962-ci ildən Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müdiri Mir Cəlal Paşayev oldu. O, humanist bir insan idi, hamıya xeyirxahlıq göstərirdi. Müəllimlərimizdən çox çəkinirdik. Mir Cəlal müəllimin yanında necə deyəydim ki, mənə mövzu verin?! Bir gün müəllimim bu məsələ ilə maraqlandı. Mən nəsri də sevirəm, amma uşaqlıqdan poeziyaya heyranlığım başqadır. Bunları Mir Cəlal müəllimə söylədim. O da Bəxtiyar Vahabzadənin yaradıcılığını tədqiq etməyi məsləhət gördü. "Bəxtiyar Vahabzadənin lirikası" mövzusunda elmi araşdırmalara başladım. Günlərimin çox hissəsi kitabxanalarda keçirdi. O vaxtlar indiki kimi kitab bolluğu, internet yox idi. Amma bütün çətinliklərin öhdəsindən gəlirdik. Çünki oxumağa, öyrənməyə həvəsimiz güclü, arzularımız sonsuz idi. Bəxtiyar Vahabzadənin yaradıcılığını təhlil etmək o qədər də asan deyildi. Əsərlərində sətiraltı ifadələr çox idi. Şairin yaradıcılığını tədqiq etdim. İlk dəfə mən Bəxtiyar Vahabzadə yaradıcılığı haqqında elmi əsər yazdım. Elmi rəhbərim filologiya elmləri doktoru, ədəbiyyatşünas, müəllimlər müəllimi professor Pənah Xəlilov idi. Onun xeyir-duası ilə 1971-ci ildə "Bəxtiyar Vahabzadənin lirikası" mövzusunda dissertasiya müdafiə etdim. O vaxtlar Ali Attestasiya Komissiyası Moskvada idi. Oradan adətən iki-üç ilə cavab verirdilər. Mənim elmi işimin təsdiqi barədə cavab üç aya gəldi. Filologiya elmləri namizədi alimlik dərəcəsi aldım. Yenə illər keçdi. Məndən soruşurdular ki, niyə doktorluq elmi dərəcəsi almaq üçün mövzu götürmürsən? Mövzu müəyyənləşdi və Məmməd Rahimin yaradıcılığını araşdırdım. 1988-ci ildə "Məmməd Rahimin yaradıcılıq yolu" mövzusunda dissertasiya müdafiə edib, filologiya elmləri doktoru elmi dərəcəsi aldım".

Uzun illərdir Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin müəllimidir. Aradan xeyli vaxt keçsə də, ilk dəfə tələbələrin qarşısına müəllim kimi çıxdığı o günün həyəcanını unutmadığını söyləyir: "Çox gənc idim. Auditoriyaya qorxa-qorxa getdim. Elə bildim sinif otağı başıma dolanır. Danışmağa başladım və gördüm ki, tələbələr məni dinləyirlər..."

## Əməyin bəhrəsi şirin olur

Hərdən müəllimlər gileylənirlər ki, tələbələrin ixtisasa sevgisi, mütaliə səviyyəsi əvvəlki kimi qənaətbəxş deyil. İfrat Əliyeva deyir: "Mən bu fikirlə razı deyiləm ki, tələbələr mütaliə etmirlər. Oxuyan da var, oxumayan da. Mən humanist adamam. Eyni zamanda savadsızı sevmirəm. Hiss edəndə ki, dəryada damladır, onun əlini buraxmıram. Düşünürəm ki, yəqin o da sabah başqalarının əllərindən tutacaq. Tələbələrlə münasibətlərim həmişə qarşılıqlı olub. Hamısından mərifət, qanacaq, tərbiyə görmüşəm. Bəzən şuluq tələbə də olur, qaşımı qaldırıram, qurtardı... Magistraturada dərs deyirəm. Mən cığır açıram, deyirəm ki, bu yolla gedək. Kimsəni məcbur etmərəm. Sadəcə, tövsiyə edə bilərəm. Tələbələri məcbur oxutmuram. Elə şərait yaradıram ki, özləri öyrənməyə həvəs göstərsinlər. Deyirəm ki, istəyirsən sənə 1 deyil, 10 dənə 5 verim. Ancaq bu qiymət sənə nə verəcək? Axı sən də sabah kiməsə dərs deməlisən. Bu gün Bakı Dövlət Universitetində, Azərbaycan Milli Elmlər Akademiyasında elmi dərəcələri, titulları olan, özlərinə mövqe qazanmış neçə-neçə tələbəmiz var. Fəxr edirəm ki, onların formalaşmasında, yetişməsində dəryada damla qədər də olsa, mənim də xidmətim olub".

Həyat hər insanı bir ömür içərisində çox sınaqlara çəkir. Gərək dözməyi bacarasan. İfrat xanım Bəxtiyar Vahabzadənin bu misralarını yada salır:

*Həyat səni güldürəndə*
*gülmüsən.*
*Hünərin var ağlayanda*
*gül görüm.*

Və yenə xatirələrin cığırıyla ötənlərə dönür: "Anam müəllim, atam aqronom idi. Onlar zəhmətkeş insanlardı. Bizim yolumuzda çox əziyyətlər çəkdilər. Atam əlli yaşında dünyadan köçdü. Anam mənim elmlər namizədi adını aldığım, işgüc sahibi olduğum günləri gördü... Hərdən öz-özümə deyirəm ki, bir vaxtlar həkim olmaq istəyirdim, ədəbiyyat bu arzudan önə keçdi. Bunun üçün heç zaman peşman olmadım. Neçə-neçə tələbəyə dərs dedim. Bizim ailədə filoloq mənəm. Ancaq qardaşım qızı Jalə Əliyeva filologiya elmləri doktoru, universitetmizin aparıcı müəllimlərindən biridir, Türk xalqları ədəbiyyatı kafedrasının professorudur".

Əməyin bəhrəsi şirin olur. Zəhmət uğur gətirir. Doğrudur, həmişə belə olmur. Bəzən əməyin müsbət nəticəsini görə bilmirsən. Amma bu, həmişəlik belə qalmır. Səbr etmək və ruhdan düşməmək lazımdır: "Həmişə çalışmışam haqqı nahaqqa verməyim. On dörd il dekan müavini, iki il dekan əvəzi, altı il yarım da prorektor olmuşam. Hər zaman üzərimə düşən vəzifəni layiqincə yerinə yetirməyə səy göstərmişəm. Prorektor işləyəndə heç vaxt qapını bağlı saxlamırdım. Belə qayda qoymuşdum ki, qəbulumda gün və ya saat yoxdur, kim gəlsə, içəri girsin. Ömrüm boyu çox çalışmışam. Ancaq heç vaxt özümdən razı qalmamışam. Bəxtiyar Vahabzadə demiş:

*Bircə ondan razıyam ki,*
*Özümdən narazıyam".*

Deyir ki, yazacaqlarım hələ çoxdur: "Qələm sanki yetim uşaq kimi üzümə baxır. "Niyə dayanmısan?" deyə xəbər alır. Ədəbiyyatı çox sevirəm. Amma mən şair, nasir deyiləm. Elə qabiliyyətim yoxdur. Mən ədəbiyyatşünasam. Düşünürəm ki, hər kəs bacardığı işlə məşğul olmalıdır. Bir də... Həyatın öz qanunları var. Bir yandan boşalır, bir yandan dolur... Amma zəhmət, alicənablıq, nəzakətlilik və humanistlik insanı həmişə yaddaşlarda saxlayır".

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

---

# C.Cabbarlının "Solğun çiçəklər"i alqışlarla qarşılandı





Sumqayıt Dövlət Dram Teatrı son illər respublikamızda keçirilən tədbirlərdə maraqlı repertuarı ilə çıxış edir.

Dövlət başçısının görkəmli dramaturq C.Cabbarlının 120 illiyinin xüsusi qeyd edilməsi ilə bağlı imzaladığı sərəncama uyğun olaraq Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə noyabrın sonu Cəfər Cabbarlı həftəsi çərçivəsində teatr bayramı keçirilir. Bakı və bölgə teatrlarının qatıldığı tədbirdə ədibin ayrı-ayrı əsərləri nümayiş etdirilir.

Sumqayıtlılar bu bayrama əliboş gəlməmişdilər. Azərbaycan Dövlət Akademik Musiqili Teatrının səhnəsində Sumqayıt Dövlət Dram Teatrında ərsəyə gəlmiş "Solğun çiçəklər" tamaşası oynanıldı. Tamaşanın quruluşçu rejissoru Elşən Zeynallı, quruluşçu rəssamı Elşən Sərxanoğludur. Plastik həll və rəqslərin quruluşu Vüsal Mehrəliyevə, musiqi tərtibatı isə İradə Muradovaya məxsusdur. Quruluşçu rejissor E.Zeynallının klassikaya yeni baxış bucağı özünü maraqlı traktovkada göstərdi. Teatr ictimaiyyəti, gənclər, ziyalılar, bir sözlə, müxtəlif kontingentdən olan insanlar iki saat ərzində truppanın mükəmməl oyununu seyr etdi.

Səhnədə obrazları Əməkdar artistlər İzaməddin Bağırov, Cəlal Məmmədov, Sədaqət Nuriyeva, aktyorlar İlahə Səfərova, Şəhla Məmmədova, İlqar İbrahimov və Rövşən Əsgərov canladırırdılar. Tamaşadan sonra maraqlı müzakirə oldu. Cəfər Cabbarlının nəvəsi Qəmər xanım yaradıcı heyətə minnətdarlığını bildirdi. O söylədi ki, Cəfər Cabbarlı təfəkkürünü və ruhunu qoruyub saxlamaqla səhnə əsərində müxtəlif dəyişikliklər, eksperimentlər yerinə düşür və pyesin uzunömürlülüyünə fayda gətirir.

Digər sənətsevərlər belə bir tamaşaya görə yaradıcı heyəti təbrik etdilər və vurğulandı ki, eksperimentə, improvizəyə, aktyor məharətinin açılmasına rəvac verən əsərlər ölməzdir. Böyük Cabbarlının ədəbi materialları da özündə məhz bu nüansları birləşdirir.

Tamaşanın sonunda maraqlı anlar yaşandı. Səhnədən zala enən aktyorlar tamaşaçılarla söhbət edib diskussiya apardılar.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***




# 10 ayda ölkə üzrə 6,9 milyard manatlıqdan çox kənd təsərrüfatı məhsulları istehsal edilmişdir

## Bitkiçilikdə 11,4, heyvandarlıqda 3,2 faiz artım qeydə alınmışdır



Ölkədə həyata keçirilən iqtisadi islahatlar real sektorun bütün sahələri kimi, kənd təsərrüfatını da xeyli canlandırmışdır. Əvvəllər bir çox ərzaq məhsulları sarıdan idxaldan asılı olan Azərbaycanın ixracatında indi neft və qazdan sonra növbəti yeri aqrar sektor tutur.

Artıq, nəinki bu sahə üzrə ənənəvi ticarət tərəfdaşlarımız olan qonşu ölkələrdə, eləcə də Avropa və digər regionlarda Azərbaycanın kənd təsərrüfatı məhsulları yaxşı tanınır. Bunun bir səbəbi istehsalın artması və keyfiyyətin tələb olunan standartlara cavab verməsidirsə, digər səbəbi məhsullarımızın xaricdə tanıdılması üçün görülən tədbirlərdir.

Bəs başa çatmaqda olan cari il ölkənin kənd təsərrüfatı üçün hansı göstəricilərlə yadda qalır? Bu suala Dövlət Statistika Komitəsinin (DSK) cari ilin 10 ayı üzrə hesabatında ətraflı cavab verilir.

Hesabatda bildirilir ki, göstərilən müddətdə ölkədə faktiki qiymətlərlə ümumi dəyəri 6 milyard 900,3 milyon manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur. Bunun 3 milyard 350,8 milyon manatlığı heyvandarlıq, 3 milyard 549,5 milyon manatlığı bitkiçilik məhsullarıdır. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ölkə üzrə kənd təsərrüfatı məhsullarının istehsalı ümumilikdə 7,2, o cümlədən heyvandarlıq üzrə 3,2, bitkiçilik üzrə 11,4 faiz artmışdır.

DSK-nın məlumatına görə, noyabrın ayının 1-nə kimi bitkiçilik üzrə dənlilərin və dənli paxlalı bitkilərin (qarğıdalısız) əkin sahələrinin 99,9 faizi, yaxud 1 milyon 38,9 min hektarı biçilmişdir. Həmin sahələrdən 3 milyon 249,4 min ton (əvvəlki ilin eyni dövründəkindən 6,3 faiz çox) məhsul götürülmüşdür. Orta hesabla hər hektarın məhsuldarlığı 31,3 sentner olmuşdur. Eyni zamanda 31,9 min hektardan 227,4 min ton qarğıdalı yığılmışdır ki, bu da 71,3 sentner məhsuldarlıq deməkdir. Beləliklə, ümumilikdə qarğıdalı da nəzərə alınmaqla ölkədə taxıl istehsalı 3 milyon 476,8 min tona çatmışdır.

Bundan əlavə, göstərilən müddətəcən sahələrdən 1,5 milyon tondan çox (keçən ilin müvafiq dövrünə nisbətən 10,7 faiz çox) tərəvəz, 966,5 min ton (9,1 faiz çox) kartof, 447,6 min ton (11,4 faiz çox) bostan məhsulları yığılmışdır.

DSK-nın hesabatında o da bildirilir ki, cari mövsüm ölkə üzrə 100,1 min hektarda pambıq, 16,6 min hektarda dən üçün günəbaxan, 7,3 min hektarda şəkər çuğunduru, 3,1 min hektarda tütün əkilmişdir. Noyabrın əvvəlinəcən həmin sahələrdən 264,1 min ton (40,5 faiz çox) pambıq, 34,3 min ton (42,2 faiz çox) dən üçün günəbaxan, 173,2 min ton (36,2 faiz az) şəkər çuğunduru, 5,1 min ton (7 faiz çox) tütün toplanmışdır. Bu mövsüm, həmçinin ölkədə 908,2 min ton (12,9 faiz çox) meyvə və giləmeyvə, 190,5 min ton (30,2 faiz çox) üzüm, 894,3 ton (5,8 faiz çox) yaşıl çay yarpağı istehsal edilmişdir.

Hesabatda ölkədəki istixanalar haqqında da məlumat verilmişdir. Bildirilir ki, cari il oktyabr ayının 1-nə Azərbaycanda ümumi sahəsi 1,3 min hektar olan 3 mindən çox vahid istixana fəaliyyət göstərmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə istixanaların ümumi sayında 3,3, onların sahəsində isə 6,3 faiz artım olmuşdur. Yanvar-sentyabr aylarına olan məlumata görə, həmin istixanalarda 189,2 min ton (0,1 faiz çox) pomidor, 11,6 min ton (7,2 faiz çox) xiyar istehsal edilmişdir.

Heyvandarlığa gəldikdə, bu sahədə də xeyli irəliləyiş müşahidə olunmuşdur. Belə ki, cari ilin 10 ayı ərzində diri çəkidə ət istehsalı 2,9 faiz artaraq 429,9 min, süd istehsalı 1,8 faiz çoxalaraq 1 milyon 751,4 min tona çatmışdır. Artım, həmçinin yumurta və yun istehsalında da qeydə alınmışdır - müvafiq olaraq 8,1 və 1,5 faiz. Bundan başqa, təsərrüfatlarda 643,7 ton (25,3 faiz çox) barama da istehsal edilmişdir.

***"Azərbaycan"***

## Qubada bu il 717 arıçıya subsidiya verilib

"Mən dədə-babadan arıçılıqla məşğul olmuşam. Quba rayonunda arıçılıq son illər daha da inkişaf edir. Təsərrüfatımda 80-dən çox arı ailəsi saxlayıram. Subsidiyaların verilməsi təsərrüfatçılarda arı ailələrinin sayının artırılmasına maraq yaradıb".

Bu sözləri qubalı arıçı Təvəkgül Allahverdiyev deyib. T.Allahverdiyev kimi Quba rayonundan bu il ümumilikdə 717 arıçıya subsidiya verilib.

Quba Dövlət Aqrar İnkişaf Mərkəzinin mütəxəssisi Telman Balabəyov bildirib ki, rayon komissiyası tərəfindən ötən il Qubada 18 min 946 arı ailəsi qeydə alınıb. Arıçılıqla məşğul olan 717 arıçının təsərrüfatındakı arı ailələri pasportlaşdırılıb və hər arı ailəsinə identifikasiya kodu verilib. Kənd Təsərrüfatı Nazirliyində arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə (pətəyə) görə subsidiyanın verilməsi üzrə Respublika Komissiyasının iclasında bu barədə qərar qəbul olunub. Qubalı arıçılara ümumilikdə 189 min 460 manat subsidiya ödənib.

AZƏRTAC-ın yaydığı məlumatda daha sonra bildirilir ki, Qubada hər il orta hesabla 120 tondan çox bal istehsal olunur.

## Kartofçuluq tovuzluların əsas gəlir mənbəyinə çevrilir

Son illər ölkədə kartof istehsalında öndə gedən tovuzlular bu il də sahələrdə bol məhsul yetişdirmişlər. Keçən il 6 min 600 hektarda kartof əkən rayon sakinləri 144 ton məhsul istehsalna nail olmuşlar.

Əkinçilər faraş kartof istehsalında da fərqlənmişlər. İstixanalarda yetişdirilmiş 2542 ton məhsulun satışından 3 milyon 800 manat gəlir götürən fermerlər cari ildə bu göstəricini xeyli yaxşılaşdırmışlar.

Bu il əvvəlki illərdən fərqli olaraq əkin sahələri bir qədər azaldılaraq intensiv texnologiyaya üstünlük verilmişdir. Belə ki, 5 min 112 hektar sahədə daha məhsuldar toxum sortları əkilmişdir. Bunun üçün Rusiya, Türkiyə və Ukraynadan 2 min 270 ton kartof toxumu gətirilmişdir. Hazırda yığım davam edir. Fermerlər indiyədək sahələrdən 158,7 min tondan çox məhsul toplamışlar. Hər hektardan 250 sentner kartof yığılmışdır.

Əvvəlki illərdən fərqli olaraq builki əkinlərin 90 faizi kənd təsərrüfatı texnikasının köməyi ilə aparılmışdır. Kartofsəpən texnikanın təxminən 100 nəfərin bir həftəyə görə biləcəyi işi bir gündə yerinə yetirməsini nəzərə alsaq, bunun istehsal olunan məhsulun maya dəyərinə nə qədər xeyri olduğunu təsəvvür etmək çətin deyil. Bundan başqa, təsərrüfat sahiblərinin dediklərinə görə, texnika ilə becərilən sahələrdə məhsuldarlıq da yüksək olur.

Rayonda ən çox kartof əkən kəndlərdən biri Əyyubludur. Burada əhalinin 90 faizi kartof əkir. Kənddə 2 min hektar əkin sahəsinin yarısında kartof yetişdirilir. Kartofçuluq üçün əlverişli olan əkin sahələrinin hər hektarından 40 tondan çox məhsul götürülür. Yığılan kartofun bir hissəsi sahədə satılır. Qalanı kənddə olan soyuducu anbarda saxlanılır.



Bozalqanlı kəndindən olan fermer Kamal Ələkbərov keçən il 94 hektar sahənin hər hektarından 45 ton məhsul götürmüşdür. O, bu il intensiv texnologiyaya üstünlük verməklə əkin sahələrini 100 hektara çatdırmışdır. Fermerlə söhbətdən məlum oldu ki, mövsüm ərzində təsərrüfatda 200 nəfərdən artıq işçi qüvvəsi çalışır. Əkin sahələrinin suvarılması çiləyici aqreqatlarla aparılır. Təsərrüfatda inşa edilmiş 3 min tonluq soyuducu anbar məhsulu uzun müddət saxlamağa imkan verir. Təsərrüfatda bu yaxınlarda daha bir 3 min tonluq soyuducu anbarın tikintisinə də başlanmışdır.

Dönük Qırıqlı kəndinin sakini Elçin Əliyev də əvvəlki illərdən fərqli olaraq bu il kartof istehsalında yüksək göstəriciyə nail olub. 70 hektarda kartof əkən fermer nəzərdə tutduğundan çox məhsul əldə edib. Dedi ki, kartofçuluq hər il ona xeyli gəlir gətirir. Bu sahədən götürdüyü qazancla yaxşı ev-eşik qurub.

Əyyublu kəndində kartofçuluqla məşğul olan Fərrux Qurbanov da qazancdan razıdır. Kartofun satışından əldə etdiyi gəlir ailəsinin dolanışığını artıqlaması ilə təmin edir. Fermer deyir ki, keçən il hər hektardan 35 ton məhsul götürməsi onu daha da ruhlandırmış və əkin sahəsini bir qədər də genişləndirərək 1,5 hektara çatdırmışdır.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

## Fermerlərin alacağı subsidiyanın miqdarı bəyan edilən əkin növündən asılı olacaq

"Subsidiyaların elektron hökumət üzərindən verilməsinə hazırlıq işləri başa çatmaq üzrədir. Artıq Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində (EKTİS) qeydiyyatdan keçmiş fermerlər payızlıq əkinləri bəyan etməyə başlayıblar. Bu, aqrar xidmətlərin elektronlaşdırılması prosesində son dərəcə mühüm bir mərhələdir. Fermerlərin gələn il alacağı subsidiyanın miqdarı bəyan edilən əkin növündən asılı olacaq".

Bu sözləri Kənd Təsərrüfatı nazirinin müavini İlham Quliyev Saatlıda rayon ictimaiyyətinin nümayəndələri və fermerlərlə görüşdə deyib. Bildirib ki, Aqrar Subsidiya Şurası əkin, məhsul və toxum subsidiyası üzrə əmsalları artıq açıqlayıb: "Əmsallar bitki növlərinə görə fərqlənir, buna görə də fermerin nə əkdiyini EKTİS-də bəyan etməsi vacib sayılır. Fermerlər artıq subsidiya almaq üçün sənəd toplamalı olmayacaqlar, EKTİS üzərindən elektron müraciət edəcəklər. Bu, subsidiyaların verilməsində vaxt itkisini aradan qaldırmış olacaq. Yeni sistemin üstünlüyü ondadır ki, fermerlər EKTİS-də bir dəfə qeydiyyatdan keçir və hər il qeydiyyatdan keçməyə ehtiyac qalmır. Onlar hər il yalnız birillik, yaxud çoxillik əkmələri bəyan etməklə subsidiya almaq hüququndan yararlanacaqlar".

İ.Quliyev payızlıq əkinlərin bəyan edilməsi prosesinin davam etdiyini deyib: "Artıq 115 mindən çox fermer payızlıq əkinlərini bəyan ediblər. Bu rəqəm hər gün artır. Biz rayonlarda silsilə görüşlər keçiririk, fermerlər EKTİS-lə bağlı təlimlərə cəlb olunur, səyyar qruplarımız kəndlərə ezam olunaraq fermerlərə yeni subsidiya mexanizminin tətbiqi ilə bağlı informasiya-məsləhət xidməti göstərirlər. Hesab edirik ki, payızlıq əkinlərin bəyan edilməsi prosesi optimal müddətdə başa çatacaq".

## Qobustanın Sündü kəndində yeni məktəb binasının inşasına başlanılıb

Qobustan rayonunun Sündü kəndində tam orta məktəb üçün 360 şagirdlik yeni binanın tikintisinə başlanıb.



Kənd məktəbi üçün təzə bina Prezident İlham Əliyevin sərəncamı ilə ayrılan vəsait hesabına tikilir. İnşaat işləri "Litosfer" MMC tərəfindən həyata keçirilir. Artıq bünövrədə torpaq işləri görülüb, bərkitmə aparılır.

AZƏRTAC-ın yaydığı xəbərə görə, gələn ilin sentyabrınadək istifadəyə verilməsi nəzərdə tutulan təhsil ocağı ikimərtəbəli olacaq. Müasir arxitektura üslubunda inşa edilən binada təhsilin yüksək səviyyədə təşkili üçün bütün lazımi şərait yaradılacaq.



## Saatlı: 41.600 tondan çox "ağ qızıl" hazırdır

### Bu, son hədd deyil

Ölkədə pambıq yığımı başa çatmaq üzrədir. Saatlı rayonunda da pambıqçıların builki nailiyyətləri sevindiricidir. Cari ildə rayonun təsərrüfatlarında 13,741 hektar sahədə pambıq əkilmiş, becərmə dövründə bəzi ərazilərdə tarlaların suvarılmasında sudan korluq olsa da, görülən tədbirlər öz bəhrəsini vermişdir.

İndiyədək tədarük məntəqələrinə 41.635 ton "ağ qızıl" təhvil verilmişdir. Rayon üzrə hər hektarın orta məhsuldarlığı 30 sentnerə çatır. Hələ tarlalarda xeyli məhsul var. Əlverişsiz hava şəraitinə baxmayaraq, Saatlı pambıqçıları böyük zəhmət bahasına yetişdirilmiş məhsulu son qramınadək yığıb təhvil vermək əzmindədirlər.

MKT İK, "P-Aqro", "Aqro Az", "Azər-Pambıq" Məhdud Məsuliyyətli cəmiyyətlərin Saatlı filialları rayonda pambıqçılığın mütərəqqi texnologiyalar, innovativ üsullar əsasında inkişaf etdirilməsi istiqamətində səmərəli fəaliyyət göstərirlər. Torpaq istifadəçiləri ilə bağlanılan müqavilələr əsasında MKT İK MMC-nin filialı 4691 hektar, "Aqro Az" MMC-nin filialı 4500 hektar sahədə pambıq əkilib-becərilməsini, eyni zamanda aqrotexniki tələblərə ciddi əməl olunması hesabına yetişdirilmiş bol məhsulun itkisiz yığılıb tədarük olunmasını təmin etmişlər. Rayonda pambıqçılıqla məşğul olan digər şirkətlərin nümayəndəlikləri də üzərlərinə düşən vəzifəni layiqincə yerinə yetirmişlər. Rayon icra hakimiyyətinin başçısı Nazim İsmayılov söhbət zamanı bu barədə belə dedi:

- Prezident İlham Əliyevin kənd təsərrüfatında ənənəvi sahələri inkişaf etdirmək, o cümlədən pambıqçılıqda əvvəlki şöhrəti qaytarmaq barədə tapşırıq və tövsiyələri ölkənin pambıqçılıqla məşğul olan bütün bölgələrində böyük dönüş yaratdı. Bizim rayonda da dövlətin dəstəyindən, qayğı və diqqətindən güc alan torpaq istifadəçiləri pambıqçılığın yeni inkişaf mərhələsinin ilk günlərindən qabaqcıl mövqeyə çıxdılar. Onlar cari ildə 41.635 ton "ağ qızıl" istehsal etmişlər. Qazanılmış nailiyyətdə təbii ki, hər bir əməkçinin payı var. Cəlil Süleymanov, Famil Əzimov, Eminağa Ağayev, Elxan Hüseynov, Qurban Sərdaroğlu kimi pambıq ustalarının adlarını rayonda hamı hörmət və ehtiramla çəkir.

Cari ildə pambığın əkilib-becərilməsinə, yetişdirilmiş məhsulun yığılıb tədarük edilməsinə minlərlə işçi qüvvəsi cəlb edilmiş, əmək qabiliyyətli kənd əhalisinin böyük əksəriyyəti üçün sərfəli iş yerləri açılmışdır. Pambıqçılıqda çalışan ailələrin büdcəsinə istehsal olunan pambığın qarşılığında milyonlarla manat vəsait daxil olmuşdur.

Qazanılan nailiyyət heç kəsdə arxayınçılıq yaratmır. Məqsəd qarşıdakı illərdə bu nailiyyəti daha da artırmaqdır.

***Lazım QULİYEV, "Azərbaycan"***

## Cari il Naxçıvan MR-də 9 heyvandarlıq təsərrüfatı yaradılıb

Naxçıvan Muxtar Respublikasında aqrar sahənin inkişafı daim diqqət mərkəzində saxlanılır. Bu sahədə əhəmiyyətli yer tutan heyvandarlığın inkişafı, əhalinin müxtəlif çeşidlərdə heyvandarlıq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi istiqamətində bir sıra işlər görülür.

Naxçıvan MR Kənd Təsərrüfatı Nazirliyinə istinadən AZƏRTAC xəbər verir ki, dövlət dəstəyi nəticəsində bu ilin ötən dövrü ərzində muxtar respublikada 9 heyvandarlıq təsərrüfatı yaradılıb, 2-si isə genişləndirilib. Daha 10 təsərrüfatın yaradılması, 4-nün isə genişləndirilməsi işləri davam edir. Əhalinin heyvandarlıq məhsulları ilə təminatının daha da yaxşılaşdırılması, yüksək genetik potensialı olan heyvanların baş sayının artırılması, bu sahəyə olan marağın gücləndirilməsi üçün "Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılmasına dair dövlət dəstəyi" haqqında Prezidentin 2015-ci il 19 avqust tarixli sərəncamı ilə süni mayalanma yolu ilə alınmış hər baş buzova 100 manat həcmində subsidiyanın müəyyən edilməsi bu sahənin dinamik inkişafına təkan verən amillərdəndir.

Cari ilin yanvar-sentyabr aylarında heyvandarlıq təsərrüfatlarında 9654 baş inək, düyə və camış süni yolla mayalandırılıb və onlardan 6764 baş sağlam bala alınıb. Hesabat dövründə muxtar respublikada diri çəkidə 19 min 105,5 ton ət, 72 min 451,4 ton süd istehsal olunub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə müvafiq olaraq 6 və 1,8 faiz çoxdur.

Heyvandarlığın inkişaf etdirilməsi, məhsuldarlığın artırılması, keyfiyyətinin yaxşılaşdırılmasında mühüm məsələlərdən biri də yem bazasının yaradılmasıdır. Muxtar respublikada mal-qaranın qarışıq yemlərə böyük ehtiyacının olması nəzərə alınaraq 2012-ci il avqustun 23-də Naxçıvan şəhərində illik gücü 70 min tondan çox olan balanslaşdırılmış qarışıq yem istehsal edən müəssisə istifadəyə verilib. Həmin müəssisədə ətlik, südlük, yumurtalıq istiqamətləri üçün qarışıq yem hazırlanır. Bu da heyvandarlığın və quşçuluğun illik qarışıq yemə olan tələbatını tam ödəyir. Mal-qaranın qaba və şirəli yemlərə olan tələbatının tam ödənilməsi məqsədilə yonca, silosluq qarğıdalı, silosluq günəbaxan kimi qiymətli yem bitkilərinin əkin sahələrinə aqrotexniki qaydalara uyğun qulluq edilməklə məhsuldarlıq artırılır.

## Əkinçilikdə innovativ texnologiyaların roluna həsr edilmiş təlim keçirilib

Aqrar Elm və İnnovasiya Mərkəzinin Əkinçilik Elmi-Tədqiqat İnstitutunun Kürdəmir Təcrübə Sınaq Stansiyasında "Aqrar sahənin inkişafında innovativ texnologiyaların rolu" mövzusunda təlim keçirilib.

İnstitutun alimlərinin, eləcə də Kürdəmir Dövlət Aqrar İnkişaf Mərkəzinin (DAİM) mütəxəssisləri, fermerlər, kənd təsərrüfatı məhsulu istehsalçılarının iştirak etdikləri təlimdə Əkinçilik Elmi-Tədqiqat İnstitutunun direktoru Cavanşir Təlai kənd təsərrüfatının ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasındakı əhəmiyyəti, aqrar sektorda innovativ texnologiyaların iqtisadi cəhətdən səmərəli, rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalındakı rolu, institutun bu sahədə apardığı tədqiqat işlərinin nəticələri haqqında məlumat verib. Kürdəmir DAİM-in baş mütəxəssisi Xanbala Əsədov isə yeni subsidiya mexanizmi, rayonun ölkənin ümumi kənd təsərrüfatı məhsulunun istehsalındakı payı, rayonun kənd təsərrüfatının inkişafında rol oynayan prioritet istiqamətləri, cari təsərrüfat ilində payızlıq taxıl əkinlərinin mövcud vəziyyəti, qarşıda duran vəzifələr barədə danışıb.

Sonra Əkinçilik Elmi-Tədqiqat İnstitutunun istehsalat üzrə direktor müavini Atif Zamanov "Payızlıq buğdanın tirəli səpin texnologiyasında əkilməsinin üstünlükləri", Əkinçilik Elmi-Tədqiqat İnstitutunun Kürdəmir Təcrübə Sınaq Stansiyasının direktoru Saday Məmmədov "Cərgəarası becərilən bitkilərdən sonra payızlıq buğda səpini üçün torpağın becərilməsi", institutun "Davamlı əkinçilik və bitki diversifikasiyası" şöbəsinin müdiri Məzahir Rzayev "Növbəli əkin tarlalarında becərilən bitkilərdən asılı olaraq torpağın becərilməsi xüsusiyyətləri" mövzularında çıxış ediblər.

5 dekabr Beynəlxalq Könüllülər Günüdür

# Sərbəst fəaliyyətin təmənnasız forması

## Bu, həm də öz seçimi əsasında insanlara göstərilən diqqət və qayğıdır



Könüllülük prinsipi xalqımızın tarixində milli adət-ənənələr sırasında minilliklər boyu yol gələn bir norma və prinsipə çevrilən xidmətdir. Doğrudan da bu, xeyirxahlıq missiyası daşımaqla, hər kəsin öz iradəsinə, sərbəst seçiminə əsaslanır. Adından da göründüyü kimi, bu xeyirxahlıq, təmənnasız xidmət əxlaq kodeksinin bəndlərindən biri kimi də daim diqqət mərkəzində olub. Lakin xalqımızın milli-mənəvi sərvətlərindən olan və qorunub saxlanan bu xeyirxahlıq nümunəsi “Bakı-2015” I Avropa Oyunları dövründə könüllülərin fəaliyyətində özünü daha qabarıq formada göstərdi.

Beynəlxalq Könüllülər Gününün vacibliyi, səmərəsi dünyanın bir çox ölkələrində sanki yenidən canlanır. Bir daha təsdiqləndi ki, könüllülük insanların öz iradəsi və sərbəst seçimi əsasında əvəzi ödənilməyən fəaliyyəti həyata keçirməkdir.

Könüllülüyün məqsədi tapşırıqları yerinə yetirmək, fərdlərə və ya ictimai təşkilatlara maliyyə dəstəyi olmadan, fədakarcasına insanların rifahını inkişaf etdirmək və yaxşılaşdırmaqdan ibarətdir. Əvəzi ödənilməyən bu fəaliyyət növü ilə hər kəs qarşılığını gözləmədən cəmiyyətə (“ASAN xidmət” könüllülüləri də məhz bu kateqoriyaya daxildirlər), təbiətə, insan haqlarının qorunmasına xidmət edə və ya öz peşəsi üzrə təcrübə, bilik, dostlar qazana bilər.

Hər il dekabrın 5-i Beynəlxalq Könüllülər Günü kimi qeyd edilir ki, bu da BMT Baş Məclisinin 1985-ci ildə hökumətlərə etdiyi müraciətə əsaslanır. Könüllülərin özlərinin də bildirdiyi kimi, bu, öz maraqları, şəxsi bacarıqları və öyrənmə vasitəsilə cəmiyyətə xidmət göstərilmədir ki, qarşılığında maddi vəsait əvəzinə mənəvi dəyər və hörmət qazanılır.

Könüllülük həm də bacarıqların inkişafı, sosiallaşma və əyləncə növü kimi də anlaşılır. O, həmçinin mümkün məşğulluq və digər başqa səbəblərə görə nəzərdə tutulan əlaqə vasitəsidir. BMT-nin Könüllülər Proqramı milli inkişaf cəhdlərini dəstəkləmək üçün hər il 7500-ə yaxın gəncin əməyindən təmənnasız istifadə edir. Ölkəmizdə də son zamanlar daha fəal və çevik fəaliyyət növünə çevrilən könüllü xidmətə qoşulanların sayı durmadan artmaqdadır. I Avropa Oyunlarında könüllülərin fəaliyyətini yüksək qiymətləndirən Gənclər və İdman naziri Azad Rəhimov onları “Bakı-2015”-in mühüm parçası olduqlarını bildirmişdi.

Azərbaycanda peşəkar könüllülərin qazandığı təcrübənin yeni nəslə bu işin sirlərini öyrətməkdə yardımçı olacaqlarını ifadə edən nazir onu da söyləmişdi ki, bizim könüllülərlə işbirliyimiz bundan sonra da davam edəcək.

Onu da qeyd edək ki, bu il martın 18-də Təhsil Nazirliyində “Bir” Tələbə-Könüllü proqramının 2018-ci il üzrə ən fəal 14 tələbə-könüllüsü mükafatlandırılıb. Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Texniki Universiteti, Bakı Mühəndislik Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, Qərbi Kaspi Universiteti, Azərbaycan Texnologiya Universiteti və Sumqayıt Dövlət Texniki Kollecindən 2018-ci il üzrə ən fəal tələbə-könüllülər sertifikatla mükafatlandırılıb.

Xatırladaq ki, 7 şəhər, 37 təhsil müəssisəsindən 20 mindən çox tələbə-könüllünü birləşdirən proqram indiyədək “Formula-1” Azərbaycan Qran-prisi, IV İslam Həmrəyliyi Oyunları, “Nəsimi” - şeir, incəsənət və mənəviyyat festivalı, Bakı marafonları, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş tədbir, Bakı Şopinq Festivalı, Bakı Humanitar Forumu, ümumilikdə 6 istiqamət üzrə 400-dən çox tədbirdə uğurla fəaliyyət göstərib.

Könüllülərin ölkəmizdə son illər keçirilən beynəlxalq kütləvi tədbirlərdəki fəaliyyətinin mühüm əhəmiyyət daşıması təhsil sahəsində də özünü göstərir. I Avropa Oyunlarında könüllülərin 14 min nəfərdən çoxu məhz təhsil sistemindən qoşulmuşdu. I Avropa Oyunlarında xidmət göstərən könüllülərin əksəriyyəti tələbə-gənclərdən ibarət idi. Onlar bu gün də fəxr və qürurla “biz həm tarix yazdıq, həm də tarixə yazıldıq” deyirlər. Bu fikirdə olan, əsasən gənclər kontingentində formalaşmış könüllülərin arasında Azərbaycan Texniki Universitetinin tələbələri də az deyildi. Bu təhsil müəssisəsinin də vətənpərvər və intellektual səviyyəli, bacarıqlı, müxtəlif kurs və ayrı-ayrı fakültələri təmsil edən tələbələrindən 700-dən artıq tələbəsi könüllülər sırasında təmənnasız xidmətlə şərəfli missiya daşıdıqlarını təsdiqlədilər.

Azərbaycan Respublikasının Gənclər Fondu, Əmək və Əhalinin Sosial Müdafiəsi, Təhsil, Gənclər və İdman nazirlikləri və “ASAN xidmət”in birgə təşkilatçılığı ilə yüzlərlə gəncin və bütün könüllü təşkilatlarının iştirak etdiyi “Azərbaycan Könüllülərinin Həmrəylik Festivalı” çərçivəsində ölkədə fəaliyyət göstərən bütün könüllülük hərəkatlarının stendləri quraşdırılıb və ziyarətçilərə nümayiş olunub. Həmçinin, tədbir keçirilən məkanda gənclər üçün 70 şirkətin iştirak etdiyi xüsusi əmək yarmarkası təşkil edilib.

Gənclərin Dünya Assambleyası Beynəlxalq təşkilatının baş katibi Ediola Pashollari ilə Rusiya Federasiyasının Milli Gənclər Şurasının sədri Qriqoriy Petuşkov gənclərə öz tövsiyələrini və Beynəlxalq Könüllülər Gününün tarixi barədə məlumat çatdırıblar.

Tədbirin gedişatında ASAN Könüllülər, Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyinin, “Formula-1” könüllüləri rəhbərləri çıxış edərək bu hərəkatın uğur və fəaliyyəti barədə məlumat veriblər. Azərbaycan Respublikası Gənclər Fondunun “Gənc Könüllü” proqramının təqdimatı nümayiş olunub.

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 1 fevral tarixli Azərbaycan Gənclər Gününə həsr olunmuş respublika toplantısında söylədiyi “Mənim də tövsiyəm ondan ibarətdir ki, gəncləri dövlət təşkilatları önə çəksinlər. Çünki gənclərin həm potensialı, həm fəallığı, həm də məsələlərə yeni baxışları cəmiyyət üçün çox lazımdır. Bütün dövlət təşkilatlarına tövsiyə etmişəm ki, könüllüləri cəlb etsinlər” fikirlərə əsaslanaraq bəzi qurumlar yeni proqramın icrasına başlayıblar.

Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə “ASAN Könüllüləri” təşkilatı tərəfindən keçirilən “Tələbə Oskarı: Tələbələrarası qısametrajlı film festivalı” layihəsinin bağlanış mərasimində final mərhələsinə vəsiqə qazanmış 5 film nümayiş etdirilib. Filmlər münsiflər heyəti tərəfindən “çəkiliş”, “sosial mesaj-süjet xətti” və “kreativ yanaşma” meyarları üzrə qiymətləndirilib. Ən çox səs toplamış “Arzuların ardınca” filmi qalib elan olunub və müəllifi Orxan Babayev “Tələbə Oskarı”na layiq görülüb.

ASAN könüllüsü İbrahim Osmanovun ideya müəllifi olduğu bu layihə “Azərbaycan kinosu 2008-2018-ci illərdə” Dövlət Proqramı çərçivəsində kino sahəsində istedadlı və yaradıcı gənclərin fəaliyyətini stimullaşdırmaq məqsədilə həyata keçirilib.

Ümumiyyətlə, 19 min nəfər gənci birləşdirən “ASAN Könüllüləri”ndə 2500 təlim keçirilib. Könüllülük prinsipli 550 layihənin müəllifi olan “ASAN Könüllüləri” “Əsgərə məktub”a 2016-cı ildən start verib. “ASAN Könüllüləri”nin “ASAN məktub”, “Qarabağa doğru”, “Könüllülər Parlamenti”, “Birliyin səsi”, “Hərəyə bir kitab bölüşək”, “Yaradıcı könüllülər”, “Özünü tanı”, “Xəmsə”, “Könüllülər yurdu-Azərbaycan”, “Debat çempionatı”, “Yol layihəsi-nəqliyyat bələdçisi”, “Diplomatik psixologiya” və s. kimi layihələr cəmiyyət tərəfindən dərin rəğbətlə qarşılanıb.

Beynəlxalq Könüllülər Günü ölkəmizdə hər il yüksək səviyyədə qeyd edilir: müxtəlif aksiyalar keçirilir. Onu da deyək ki, könüllülərin əksəriyyəti həm də Qızıl Aypara Cəmiyyətinin üzvləridirlər. Məhz onların səyi nəticəsində hər gün yüzlərlə insan maarifləndirilir, pis vərdişlərdən uzaqlaşması naminə müxtəlif layihələr həyata keçirilir.

***Məhəmməd NƏRİMANOĞLU,***
***“Azərbaycan”***

# Bakıda "İqlim dəyişikliyi və iqtisadi dəyişikliklər. Həmkarlar ittifaqlarının reaksiyası mühümdür" adlı konfrans keçirilir

Dekabrın 4-də Bakıda Beynəlxalq Əmək Təşkilatının (BƏT) dəstəyi və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) təşkilatçılığı ilə konfrans öz işinə başlayıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan və Türkmənistan həmkarlar ittifaqlarının birgə iştirakı ilə keçirilən konfransda ”İqlim dəyişikliyi və iqtisadi dəyişikliklər. Həmkarlar ittifaqlarının reaksiyası mühümdür” mövzusu müzakirə olunur.

Azərbaycan və Türkmənistan xalqları arasında dostluq və qardaşlıq əlaqələrindən danışan AHİK sədrinin birinci müavini İlyas Əliyev Dayanıqlı İnkişaf Məqsədlərindən birinin məhz iqlim dəyişikliyinə yönəldiyini bildirib. O deyib ki, bu məqsəd iqlim dəyişikliyi və onun təsirlərinə qarşı təcili tədbirlər görülməsini tələb edir. AHİK Dayanıqlı İnkişaf Məqsədlərindən irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün mövcud olan bütün imkanlardan istifadə etməyə çalışır. 2018-2019-cu illər üçün bağlanmış Baş Kollektiv Sazişin ”Əmək hüquqlarının müdafiəsi, əməyin mühafizəsi, texniki və ekoloji təhlükəsizlik” bölməsində iş yerlərində sağlam və təhlükəsiz əmək şəraitinin yaradılmasına diqqətin artırılmasını vacib sayır, işçilərin sağlamlığının qorunmasını prioritet vəzifələrdən hesab edir.

Bildirilib ki, AHİK-in V Qurultayından irəli gələn vəzifələr çərçivəsində ekoloji mədəniyyətin əsasları artıq 10 ildən artıqdır Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının təhsil kurslarında həmkarlar ittifaqları fəallarına öyrədilir. Azərbaycanda ”yaşıl iqtisadiyyat”ın yaradılması üçün əlverişli şərait var və ölkəmizdə müasir texnologiyalara əsaslanan yeni müəssisələr yaradılır, ətraf mühitim qorunması prinsiplərinə əməl olunur.

Vurğulanıb ki, Azərbaycan və Türkmənistan arasında yaranmış dostluq və qardaşlıq əlaqələri hər iki ölkənin həmkarlar ittifaqı birlikləri arasında da əməkdaşlığın yaradılması zərurətini meydana çıxarıb. Biz türkmənistanlı qardaşlarımızla bütün beynəlxalq təşkilatlarda, tədbirlərdə həmrəy olmaq niyyətindəyik. İnanırıq ki, Türkmənistan həmkarlar ittifaqları Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasında da, MDB ölkələrinin həmkarlar ittifaqları birliyində də bizimlə bir yerdə olacaqlar.

Konfransda çıxış edən BƏT-in Avropa bürosunun sektor müdiri Sergeyus Qlovaskas, Türkmənistan Dövlət Müəssisələri İşçiləri Həmkarlar İttifaqının sədri Beqens Bayramov və BƏT-in Azərbaycandakı milli koordinatoru Yaşar Həmzəyev iqlim dəyişikliyi, ətraf mühit və təhlükəsizliyin qorunması, əmək münasibətləri barədə fikirlərini bildiriblər.

Qeyd edək ki, iki gün davam edəcək konfransda ”BƏT-in yüzillik sessiyasının nəticə və tövsiyələri”, ”BƏT-in 144 saylı Konvensiyası beynəlxalq əmək standartlarının milli səviyyədə inkişaf etdirmək üçün səmərəli vasitə kimi”, ”Yaşıl iş yerləri”, ”Milli vəziyyət- məşğulluq-enerji-ətraf mühit” və digər mövzularda müzakirələr aparılacaq.




# Sumqayıt təxribatında DTK izləri

1988-ci il fevralın 28-29-da Sumqayıtda erməni xüsusi xidməti və SSRİ Dövlət Təhlükəsizlik Komitəsi (DTK) tərəfindən iğtişaşlar həyata keçirildi, talanlar edildi. İki gün davam edən ajiotajda erməni mənşəli Azərbaycan vətəndaşları ilə yanaşı, 6 nəfər azərbaycanlı həlak oldu.



Təəssüflər olsun ki, bu gün də erməni millətçiləri bu hadisələrlə bağlı Azərbaycana qara yaxmaqla məşğuldurlar.

Bu məsələyə Prezident İlham Əliyev Sumqayıtın 70 illiyi ilə bağlı tədbirdəki çıxışında da xüsusi toxundu və bir daha bəyan etdi ki, Sumqayıt hadisələri erməni millətçilərinin təxribatı idi: “Biz bunu açıq deməliyik. Çünki artıq neçə ildir ki, erməni millətçiləri Sumqayıt şəhərinə qara yaxmaq, ləkə vurmaq istəyirlər. Tamamilə əsassızdır və cəfəngdir. Tam məsuliyyətlə deyirəm ki, Sumqayıt hadisələrini törədən erməni millətçiləridir və erməni dəstələridir. Biz hamımız yaxşı bilirik ki, on nəfərə yaxın ermənini öldürən milliyyətcə erməni Qriqoryan və onun quldur dəstəsi idi. Sonra nə baş verdi? İstintaqı Moskvadan gəlmiş qrup aparırdı, yəni, tam ədalətli aparırdı. Verilmiş bütün ifadələr, şahidlərin ifadələri, üzləşmələr sübut etmişdi ki, həmin o Qriqoryan erməni xalqının nümayəndələrini qətlə yetirmişdir. O, həbs edilir, bütün sübutlar təsdiq olunur. Ondan sonra o, cəza çəkmək üçün Ermənistana göndərilir və ancaq orada sərbəst buraxılır. Bax, sual yaranır. On nəfərə yaxın ermənini öldürən bir qatili Ermənistan niyə sərbəst buraxır? Ona görə buraxır ki, o, onların tapşırıqlarını icra edirdi. Sumqayıt hadisələrindən istifadə edib Azərbaycana qarşı qarayaxma kampaniyası daha geniş vüsət almışdır və nəticə etibarilə Dağlıq Qarabağda münaqişə baş vermişdir. Mən dəfələrlə bunu demişəm, əgər, Heydər Əliyev o vaxt Azərbaycanda olsaydı, heç vaxt Dağlıq Qarabağ münaqişəsi baş verməzdi, heç vaxt torpaqlarımız işğal altına düşməzdi”.

### Talanın arxa planda qalmış təşkilatçıları axtarılmayıb

O dövrdə hadisələrin nədən baş verdiyi, bunu planlaşdıranların, təşkilatçıların kim olması barədə dərin bir müəmma var idi və sanki gizli bir əl bütün bu izləri asanlıqla silirdi. Ən birinci müəmma talanların başlanmasının səbəbkarı və sübut olunmuş faktlara əsasən talan zamanı bilavasitə 6 nəfəri şəxsən öldürmüş “Paşa” ləqəbli Eduard Robertoviç Qriqoryan adlı erməni idi. Onun Dağlıq Qarabağdan gəlmə ermənilərlə əlaqələri, əlində ermənilərin yaşadığı evlərin siyahısının olması, talan üçün cinayətkarlardan ibarət qrupu təşkil etməsi, ajiotajı mümkün qədər nümayişkaranə həyata keçirməyə cəhd göstərməsi haqda cinayət materiallarında kifayət qədər faktların olmasına baxmayaraq, istintaq onları araşdırmayıb. İstintaq həm də talanın arxa planında qalmış, amma istintaq əlamətləri bəlli olan təşkilatçılarını axtarmağa cəhd göstərməyib, hətta onları ört basdır etməyə də çalışıb.

Bu da məlumdur ki, SSRİ DTK-sında Qriqoryan və digər təşkilatçılar haqda məlumatlı olublar...

### Sumqayıt boru-prokat zavodunun DTK-dan olan erməni kuratorunun iğtişaşla birbaşa əlaqəsi vardı

İğtişaşlarda bir məqam xüsusi olaraq diqqəti cəlb edir: Eduard Qriqoryanın və eyni zamanda həyat yoldaşı Rita Qəhrəmanyanın işlədikləri Sumqayıt boru-prokat zavodunun DTK-dan olan kuratoru da Sergey Ohanesyan adlı erməni idi. O, 1986-cı ildə Moskvadan Sumqayıta təyinat almışdı. İstintaqa məlum idi ki, küçədə və avtovağzalın yanında cinayətkar qruplar üçün naməlum şəxslər tərəfindən müxtəlif nömrəsiz maşınlarda daş parçaları, eyni həcmdə kəsilmiş armaturlar gətirib və bunlar xeyli ermənininin işlədiyi boru-prokat zavodunda kəsilib hazırlanaraq Qriqoryanın qardaşı Albert və başqa bir yerli olmayan ermənininin köməyi ilə adamlara paylanılıb.

Təsadüfi deyil ki, məhz Sergey Ohanesyan Sumqayıt boru-prokat zavodundan qaynaqlanan talana hazırlıq haqda məlumatların gizlədilməsində əsas rol oynayıb və buna görə məsuliyyət həm də onun üzərindədir. Bu məqam Sumqayıt hadisələrində erməni və DTK izlərinin bütün istiqamətlərdə kəsişdiyini göstərən çoxsaylı nümunələrdən yalnız biridir.

### Sumqayıt iğtişaşlarında erməni Kamo müəmması...

Məsələ ilə bağlı əldə olunan arxiv sənədləri də sübut edir ki, Qriqoryanın şəxsiyyəti və hərəkətləri SSRİ DTK-sına tam məlum idi.

17 oktyabr 1988-ci ildə Azərbaycan DTK-nın Sumqayıt şəhər şöbəsinin rəisi podpolkovnik V.N.Lebedev Eduard Qriqoryanın törətdiyi əməllər və Qarabağdan gəlmiş ermənilərlə görüşdüyü haqda Azərbaycan SSR DTK-nın ozamankı sədri İ.İ.Qorolevskiyə məxfi məktub göndərir. Məktubda deyilirdi: “Eduard Robertoviç Qriqoryan bu ilin fevralında Sumqayıt şəhərində baş vermiş kütləvi iğtişaşların təşkilatçılarından və fəal üzvlərindən biri olub. Dindirmə zamanı Qriqoryanın qrupunun üzvləri ifadə veriblər ki, talan və qətllər başlamazdan əvvəl o, erməni millətindən olan şəxslərlə görüşüb, onlardan narkotik təsirli həblər alıb və sonra bunları qrup üzvlərinə paylayıb. Həbsdə olan Qriqoryan belə bir fikirlə yaşayır ki, həyat yoldaşı vasitəsilə Dağlıq Qarabağdakı əlaqələrini fəallaşdırsın və özünün istintaqdakı davranışı ilə bağlı onlara məlumat versin. Odur ki, Qriqoryan haqda istintaqın materiallarını, o cümlədən onun təşkilatçı rolu haqda sübutları aşkarlamağı, eyni vaxtda Qarabağ komitəsinin Sumqayıt hadisələrində iştirakı məsələsini dərindən öyrənmək üçün Ermənistan SSR DTK-sı və DTK-nın Dağlıq Qarabağ Muxtar Vilayəti şöbəsi ilə koordinasiyada əməliyyat-istintaq qrupu yaratmağı məqsədəuyğun hesab edirəm”.

Bununla Lebedev də talanı məhz ermənilərin təşkil etdiyini təsdiqləyir.

Qriqoryan qrupunun üzvləri də onun tanımadıqları Kamo adlı erməni ilə görüşdüyünü hələ 1988-ci ildə bildirmişdilər. Qrup üzvü həbsxanada olan Nizami Səfərov deyib ki, fevralın 27-də kafedə yığışdıqları gün və fevralın 28-i talana başlamazdan əvvəl də Eduard Qriqoryan Kamo ilə görüşüb: “Biz yenə orada görüşdük. Mən Kamonu gördüm. Onlar yenə təkbətək danışdılar. Sonra Edik əlində kağızla qayıtdı. Orada familiyalar, ünvanlar var idi”.

Göründüyü kimi, SSRİ DTK-sı Eduard Qriqoryan və digər təşkilatçılar haqda hər şeyi bilirdi, amma bütün bu yazışmalar DTK-nın ən yuxarı eşelonlarında laqeydliklə qarşılanırdı. DTK təşkilatçıları axtarmaq niyyətindən uzaq idi. Halbuki talanın məhz təşkilatçılarının üzə çıxarılması iş bölgüsünə görə DTK-nın üzərinə düşürdü. Təşkilatçıların araşdırılması üçün Pavel Kondratyeviç Xodenkovun və Aleksey Alekseyeviç Xripkovun rəhbərliyi ilə 16 nəfərdən ibarət qrup da yaradılır.

### Təşkilatçılarla bağlı bütün sorğular cavabsız qalırdı...

SSRİ prokurorluğunun Sumqayıt hadisələrini araşdıran istintaq qrupunun üzvü Niyazi Vəlixanov məlumat verib ki, Eduard Qriqoryanın əlaqələrinin müəyyən edilməsi üçün o vaxt həm istintaq, həm də əməliyyat tapşırıqları verilirdi, istintaq hərəkətləri aparılırdı: “Yenə də bu əməliyyat tapşırıqları həmin o işlə məşğul olan qrupa göndərilirdi. Lakin DTK-nın Sumqayıta ezam etdiyi şəxslər təşkilatçılarla bağlı istintaqçıların qaldırdıqları məsələləri araşdırmırdılar. Və sorğular cavabsız qalırdı”. Həmin sorğulara təxminən belə cavablar alınırdı: “Tərəfimizdən aparılan çevik tədbirlər nəticəsində həmin kəslərin müəyyənləşdirilməsi mümkün olmadı”.

Sumqayıt şəhərinin keçmiş güc strukturları əməkdaşlarının bir neçəsi faktiki olaraq 28 fevral hadisələrinin istintaq və əməliyyat yolu ilə təhqiqindən kənarlaşdırılsa da, müəyyən etmişlər ki, şəhərdə özlərini “Qafandan qovulmuş azərbaycanlılar” kimi təqdim edən 20-25 nəfərlik təxribat qrupu fəaliyyət göstərib. Bu barədə onlara hətta bəzi zərərçəkmiş ermənilər də məlumat veriblər. Həmin məlumatlar SSRİ Baş Prokurorluğunun istintaq-əməliyyat qrupuna çatdırılsa da, naməlum səbəblərdən yoxlanılması təşkil edilməmiş və nəticəsiz qalmışdır.

### Bütün izlər Yerevana, Daşkəndə və Moskvaya qədər uzanaraq oralarda itir...

Bundan əlavə, DTK-nın Sumqayıt şəhər şöbəsi tərəfindən hadisələrin əsas təşkilatçılarından və icraçılarından biri olan Eduard Robertoviç Qriqoryan barəsində məlumat SSRİ DTK-nın Sumqayıt hadisələri üzrə əməliyyat sahəsinə rəhbərlik edən Yevgeni Popova çatdırılsa da, o buna şübhə ilə yanaşmış, milliyyətcə erməni olan şəxsin öz soydaşlarına qarşı cinayət törətdiyinə inanmadığını demişdir. Martın əvvəllərində DTK-nın Sumqayıt şöbəsinin rəisi Vladimir Lebedev onu çağıraraq Eduard Qriqoryan barədə məlumatın doğru çıxdığını və artıq həbs olunduğunu bildirmişdir. Eduard Qriqoryanın hadisələrdə iştirakı və onun əlaqələrinin müəyyən edilməsi üçün qeydiyyat-əməliyyat işi açılmış, əməliyyatın gedişində Qriqoryanın əslən qarabağlı, milliyyətcə erməni olan Osipov və ya Osipyan soyadlı bir “həmkarı” ilə söhbətlər aparılmışdır. Sonradan Osipovun (Osipyanın) Özbəkistan SSR ərazisində yerləşən islah-əmək müəssisəsində cəza çəkməsi barədə məlumat alınıb və bu ölkənin müvafiq orqanlarına sorğu göndərmək qərarına gəlinmişdir. Lakin SSRİ DTK-dan gəlmiş nümayəndələr həmin sorğunu müxtəlif bəhanələrlə imzalamaqdan və göndərməkdən imtina etmişlər.

Ümumiyyətlə, istintaq materiallarında təşkilatçılarla bağlı bütün izlər Yerevana, Stepanakertə (Xankəndi), Daşkəndə və Moskvaya qədər uzanaraq oralarda itir...

### SSRİ DTK-nın sabiq sədr müavini Sumqayıtdakı iğtişaşların qarşısını almaqdan boyun qaçırır...

Sumqayıt hadisələrinin törədilməsində sovet rəhbərliyinin hansı dərəcədə maraqlı olduğu göz qabağındadır. Bu şəhərdə güc strukturlarının kifayət qədər hərbi və silahlı qüvvələri olduğu halda hadisələrin qarşısının alınması üçün də lazımi tədbirlər görülməmiş, bununla bağlı hətta SSRİ DTK-nın sabiq sədr müavini Filip Denisoviç Bobkov Sumqayıtda olarkən ona müraciət etdikdə bildirmişdir ki, hadisələrin qarşısını almaq barədə əmr verməyə yalnız SSRİ rəhbərliyinin səlahiyyəti var.

SSRİ Baş Prokurorluğunun istintaq qrupu isə yalnız iğtişaşların icraçıları ilə maraqlanmış, cinayətin təşkilatçılarının müəyyən edilməsi istiqamətində obyektiv iş aparmamış, çox vaxt təşkilatçılar qismində azərbaycanlıları məsuliyyətə cəlb etməyə çalışmış, beləliklə, əməliyyat tapşırıqlarının nəticələri, demək olar ki, kölgədə qalmışdır.

Bu cinayətin əsl mahiyyətini açmaq, SSRİ Baş Prokurorluğunun üstündən sükutla keçdiyi məqamları araşdırmaq üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi ilə həmin kütləvi iğtişaşlarla əlaqədar keçmiş SSRİ Baş Prokurorluğu tərəfindən istintaqı aparılaraq sonradan dayandırılmış beş cinayət işinin icraatı təzələnərək vahid icraatda birləşdirildi və istintaqın aparılması prokurorluq, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin müstəntiq və əməliyyatçılarından ibarət yaradılmış istintaq-əməliyyat qrupuna həvalə edildi...

***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***

# Ermənistan ordusu snayper tüfənglərindən istifadə etməklə atəşkəs rejimini 21 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə atəşkəs rejimini 21 dəfə pozub. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın İcevan rayonunun Berkaber, Berd rayonunun Ayqepar kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Qazax rayonunun Qızılhacılı, Tovuz rayonunun Əlibəyli kəndlərində və Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Yusifcanlı, Füzuli rayonunun Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

Azercell

## abunəçilərinin diqqətinə

04.12.2019-cu il tarixdə dərc edilmiş elan mətni aşağıdakı kimi nəzərə alınmalıdır:

09 yanvar 2020-ci il tarixdən etibarən korporativ abunəçilər istisna olmaqla, bütün fakturalı və fakturasız (SimSim) xətt nömrələrinin abunəçiləri üçün "50 MB" günlük internet paketinə yeni qoşulmalar dayandırılacaq. Qeyd olunan tarixə kimi bu paketə qoşulan nömrələr isə müvafiq abunəlik ləğv olunana qədər internet paketindən ümumi əsaslarla istifadəyə davam edə biləcəklər.

**Qeyd:** Abunəçilər göstərilən dəyişikliklər, Mobil İnternet Paketlərinin sifariş, başqası ilə əvəz etmə və imtina qaydası barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.

## BİLDİRİŞ

Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün mənzillərin satın alınması üzrə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə "SARAY-H" MTK, "ŞA İnşaatçı" MTK, "Bakı Mexanikləşdirmə-1" ASC, fiziki şəxs - Natiq Allahverdi oğlu Əliyev və fiziki şəxs - Asif Akif oğlu Əsədzadə arasında müvafiq satınalma müqavilələri bağlanmışdır.

*Tender komissiyası*

## BİLDİRİŞ

Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin mətbəə mallarının satın alınması məqsədilə 16 oktyabr 2019-cu il tarixdə elan etdiyi açıq tenderdə Tender komissiyasının qərarına əsasən "Kəmər-Qaya" MMC tenderin qalibi elan edilmiş və qalib müəssisə ilə müvafiq müqavilə bağlanmışdır.

*Tender komissiyası*

## BİLDİRİŞ

Dövlət Radiotezliklər İdarəsinin "Sərgi avadanlıq və qurğuların dizayn, montaj və demontajı işləri"nin satın alınması məqsədilə keçirdiyi açıq tenderdə Tender komissiyasının 15 noyabr 2019-cu il tarixli yekun protokoluna əsasən "Elcom" MMC qalib elan olunmuşdur.

*Tender komissiyası*

## BİLDİRİŞ

"Azərpoçt" MMC tərəfindən 02 dekabr 2019-cu il tarixdə keçirilmiş "10 saylı poçt şöbəsinin əsaslı təmiri, mebel və reklam avadanlıqları ilə təchizi işlərinin satın alınması", "96 saylı poçt şöbəsinin əsaslı təmiri, mebel və reklam avadanlıqları ilə təchizi işlərinin satın alınması" və "154 saylı poçt şöbəsinin əsaslı təmiri, mebel və reklam avadanlıqları ilə təchizi işlərinin satın alınması" üzrə hər bir LOT üzrə açıq tenderdə tender təklifləri təqdim etmiş iddiaçıların sayı 3 (üç)-dən az olduğundan tender baş tutmamış hesab olunmuş və davamından imtina edilmişdir.

*Tender komissiyası*

# Beynəlxalq aləm

## ABŞ Nümayəndələr Palatası uyğurları dəstəklədi



ABŞ Konqresinin Nümayəndələr Palatası praktiki olaraq yekdilliklə Çin Xalq Respublikasının Sintzyan-Uyğur Muxtar Rayonunda uyğurların hüquqlarının müdafiəsi haqqında qanun layihəsini dəstəkləmişdir. Sənədin lehinə 407 konqresmen, əleyhinə bir nəfər səs vermişdir. Bu barədə "Assoşieyted Press" agentliyi xəbər verir.

Sənəd əsasən müsəlmanların yaşadığı Sintzyan-Uyğur Muxtar Rayonunda insan hüquqlarını pozan çinli məmurlara qarşı sanksiyaların tətbiq olunmasını nəzərdə tutur.

İndi qanun layihəsinə Senat baxmalıdır. Sənəd parlamentin yuxarı palatasında qəbul olunacağı təqdirdə Prezident Donald Tramp tərəfindən imzalanıb qanun statusu qazanacaq.

Bir müddət əvvəl qəbul olunmuş və qüvvəyə minmiş "Honq Konqda insan hüquqlarının və demokratiyanın müdafiəsi haqqında" qanun kimi bu qanun layihəsi də Çinlə ABŞ arasında münasibətləri gərginləşdirə və ikitərəfli ticarət danışıqlarının gedişinə təsir edə bilər.

Çin Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Xua Çunyin bildirmişdir ki, qanun layihəsi bilərəkdən Çinin antiterror səylərinə qara yaxır, Vaşinqtonun terrorizmlə mübarizə məsələlərində ikili standartlarını və riyakarlığını açıq şəkildə nümayiş etdirir. Çin rəsmisi qanun layihəsinin qəbulunu ölkənin daxili siyasətinə müdaxilə kimi qiymətləndirmişdir.

## NATO ölkələrinin müdafiə xərcləri gələn il 130 milyard dollar artacaq



NATO ölkələrinin ümumi müdafiə xərcləri 2016-cı illə müqayisədə 2020-ci ildə 130 milyard dollar, 2024-cü ildə isə 400 milyard dollar artacaq. Bu barədə Şimali Atlantika alyansının baş katibi Yens Stoltenberq məlumat vermişdir.

"Müdafiə xərcləri indiyədək bu qədər artırılmamışdı. Bu, NATO-nu daha da gücləndirir" deyə baş katib vurğulamışdır.

NATO-nun yaydığı statistik məlumatlara görə, hazırda alyansın üzvü olan 29 ölkədən 9-u öz xərclərini ÜDM-in 2 faizi səviyyəsindən yuxarı qaldırmışdır.

2014-cü ilin sentyabrında NATO-nun Uelsdə keçirilmiş sammitinin qərarına görə, on il ərzində, yəni 2024-cü ildə NATO-nun bütün dövlətləri 2 faizlik göstəriciyə nail olmalıdır.

## Filippində "Kammuri" qurbanlarının sayı 17-yə çatdı



Filippində "Kammuri" fırtınasının törətdiyi qasırğalar və daşqınlar nəticəsində ölənlərin sayı 17 nəfərə çatmışdır. Bu barədə yerli KİV xəbər verir.

Məlumata görə, dünən fırtına ölkənin paytaxtı Manilanın cənubunda güclənmişdir. Nəticədə bir çox evlər dağılmışdır.

Fırtına Bikol və Luson adalarında kənd təsərrüfatına azı 15,7 milyon dollarlıq ziyan vurmuşdur.

"Kammuri" bu il ölkəni vurmuş sayca 20-ci fırtınadır.

## Qogenin rəsm əsəri 9,5 milyon avroya satıldı



Parisdə "Artcurial" hərrac evində fransız rəssamı Pol Qogenin "Qalın ağac" rəsm əsəri 9,5 milyon avroya satılmışdır. Bu barədə "Frans Press" agentliyi xəbər verir.

Əsərin satışqabağı qiyməti 5-7 milyon avro idi. Hərrac evindən verilən məlumata görə, şəkli beynəlxalq kolleksiyaçı əldə etmişdir. Əsər Fransada qalacaq.

Qogen "Qalın ağac"ını 1897-ci ildə Taitidə çəkmişdir.

## Türkiyədən Suriyaya 370 min qaçqın qayıdıb



Suriyanın Türkiyə Silahlı Qüvvələrinin dəstəyi ilə terrorçulardan təmizlənmiş rayonlarına 369680 qaçqın qayıtmışdır. Bu barədə Türkiyə Daxili İşlər Nazirliyinin mətbuat katibi İsmayıl Çataklı məlumat vermişdir.

Çataklı həmçinin bildirmişdir ki, keçən ayın 11-dən bəri Türkiyədən əcnəbi mənşəli 59 terrorçu deportasiya edilmişdir.

Ötən ay Türkiyənin kənd rayonlarında 8409, şəhərlərdə 1480 antiterror əməliyyatı keçirilmişdir. Ölkənin şərqində və cənub-şərqində keçirilmiş "Kıran" əməliyyatı zamanı 124 terrorçu zərərsizləşdirilmiş, PKK-nın 16 əlaltısı saxlanmış, ekstremistlərin gizləndiyi 281 sığınacaq dağıdılmışdır.

# Ölkə ərazisində hava yağıntılı olacaq, bəzi bölgələrdə yollar buz bağlayacaq

Ölkə ərazisində dekabrın 5-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın buludlu olacağı, arabir yağış yağacağı, gündüz tədricən kəsiləcəyi gözlənilir. Güclü şimal-qərb küləyi əsəcək, günün ikinci yarısında mülayimləşəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 3-5°, gündüz 6-9° isti, Bakıda gecə 3-5°, gündüz 7-9° isti olacaq. Atmosfer təzyiqi 769 millimetr civə sütunundan 775 millimetr civə sütununa yüksələcək, nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında arabir yağış, dağlıq və dağətəyi rayonlarda qar yağacağı, bəzi yerlərdə intensiv olacağı ehtimalı var. Ayrı-ayrı yerlərdə duman olacaq, arabir güclənən qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 0-4°, gündüz 5-9° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 0-3° isti olacağı ehtimal edilir.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, dekabrın 5-də Abşeron yarımadasında şimal-qərb küləyinin güclənməsi fonunda temperaturun aşağı enəcəyi və rütubətli hava şəraiti gözlənilir ki, bu da əksər meteohəssas insanlarda narahatlıq hissi yarada bilər.

Naxçıvan Muxtar Respublikasının bəzi yerlərində havanın yağıntılı olacağı, qar yağacağı gözlənilir. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 0-5°, dağlıq ərazilərdə 7-9° şaxta, gündüz 3-8° isti olacağı proqnozlaşdırılır.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Daşkəsən, Gədəbəy rayonlarında havanın arabir yağıntılı olacağı, qar yağacağı ehtimalı var. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 0-5° şaxta, gündüz 0-3° isti olacağı bildirilir. Gecə saatlarında yolların buz bağlama ehtimalı var.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Axşam tədricən kəsiləcək. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 1° şaxtadan 4°-dək isti, gündüz 5-9° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında havanın arabir yağıntılı olacağı, qar yağacağı, bəzi yerlərdə intensiv olacağı ehtimalı var. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturu gecə 0-5° şaxta, gündüz 2-6° isti, dağlarda gecə 5-10°, gündüz 0-3° şaxta olacaq. Gecə saatlarında yolların buz bağlama ehtimalı var.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında arabir yağış yağacağı, bəzi yerlərdə intensiv olacağı ehtimalı var. Axşam yağıntı tədricən kəsiləcək. Gecə və səhər ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 0-4°, gündüz 5-9° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında arabir yağış, dağlıq ərazilərdə qar yağacağı, bəzi yerlərdə intensiv olacağı ehtimal edilir. Dağlarda duman olacaq. Şimal-şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 2-5°, gündüz 6-9° isti, dağlarda gecə 0-3° şaxta, gündüz 2-5° isti olacağı ehtimalı var.

# Ermənistanı yeni etiraz dalğaları bürüyür

## N.Paşinyan iqtidarının atdığı addımlar işğalçı ölkədə ciddi narazılıqla qarşılanır

Sosial və siyasi ədalətsizliyin getdikcə geniş vüsət aldığı Ermənistanda gərginlik artır. Buna əsas səbəb isə Nikol Paşinyanın hakimiyyətə gəlməsindən sonra sosial-iqtisadi vəziyyətin düzəlməsi əvəzinə daha da ağırlaşmasıdır. Ermənilər birmənalı şəkildə bəyan edirlər ki, baş nazir Nikol Paşinyan hakimiyyətdə olduğu müddətdə vəziyyət düzəlməyəcək. Getdikcə daha gərgin xarakter almağa başlayan ictimai-siyasi vəziyyət bu ölkədə həm də xaotik bir durum formalaşdırmağa başlayır. Çünki hakimiyyətə qarşı artan etiraz dalğaları fonunda aksiyalar səngimir.

Aksiyaların hədəfi müxtəlifdir. Bəziləri əvvəlki kütləvi etirazlar zamanı irəli sürdükləri tələb və problemləri yenidən baş nazirin yadına salırlar. Bu günlərdə Yerevanda avtomobil idxalçıları Ermənistan Dövlət Gəlirlər Komitəsinin binası qarşısında da etiraz aksiyası keçiriblər.

Etirazçılar Gümrüdəki yeni avtomobil gömrüyünün işindən narazıdırlar. Onlar Yerevandakı Xorenasi küçəsini bağlayıblar. Qeyd edək ki, cari ilin sentyabrında avtomobil idxalçıları hökumət binasının qarşısında etiraz aksiyası keçirmişdilər.

Son günlərdə isə erməni əhalisinin narazı kütləsinə Yerevanda təhsil alan tələbələr və müəllimlər də qoşulub. Yerevan Dövlət Universitetinin tələbələri noyabrın əvvəllərindən etiraz əlaməti olaraq dərslərə getməyiblər. Onların narazılığı isə "Ali təhsil və elm haqqında" yeni qanun layihəsindəndir. Ötən ayın ortalarında universitetin müəllimləri də aksiyaçılara qoşularaq birgünlük tətil elan ediblər. Onların narazılığı yeni qanun layihəsində ali məktəblərin qeyri-humanitar fakültələrində erməni dili, ədəbiyyatı və tarixini öyrənməyin vacib olmaması barədə müddəanın nəzərdə tutulmasıdır.

Ötən ayın əvvəllərindən etibarən davam edən etirazlar, nəhayət, nəticə verib. Ölkənin Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi xüsusi bəyanatla çıxış edərək bildirib ki, hətta qanunun qəbul edilməsindən sonra belə istənilən universitetin elmi şurası bütün fakültələrdə bu fənlərin məcburi qaydada tədris edilib-edilməməsi ilə bağlı müstəqil qərar qəbul edə bilər. Amma bu da vəziyyətin sabitləşməsinə kömək etməyib. Aksiyalar hələ də davam edir.

Yerevan Dövlət Universitetinin filologiya fakültəsinin müəllimləri aksiyaçıları müdafiə etmələrinin səbəbini belə izah ediblər ki, məqsəd qanun layihəsində "erməni dili" və "erməni tarixi" fənlərinin tədrisinin məcburi olması barədə maddənin saxlanmasıdır.

Yeri gəlmişkən xatırladaq ki, "Aravot" qəzetinin sosial şəbəkədəki kanalı hazırladığı reportajda məhz Paşinyan rejimi şəraitində Ermənistanda yoxsulluq və korrupsiyanın sürətlə inkişaf etdiyini bildirib. Aparılmış araşdırma nəticəsində Ermənistanda gənclərin üçdə ikisinin ölkəni tərk etmək haqqında düşündüyü, həmçinin onların ölkədə mövcud olan siyasi, sosial və iqtisadi vəziyyətdən məyus olmaları bildirilir. Rəsmi məlumatlarda ölkə əhalisinin 30 faizinin yoxsul yaşadığı göstərilsə də, real vəziyyətin daha da acınacaqlı olduğu ehtimal edilir.

"Lragir" qəzeti isə yazır ki, ölkədə hakimiyyət özbaşınalığı və perspektivin olmaması səbəbindən gənclərin qruplar halında əsasən Rusiya istiqamətində miqrasiya etmələri və Sovet İttifaqının süqutundan sonra Ermənistanın 16-30 yaş arasındakı vətəndaşlarının bir milyonundan çoxunun öz gələcəyini itirdiyi qeyd olunur: "Ermənistan hökuməti əhalinin, xüsusilə gənclərin ölkəni birdəfəlik tərk edərək digər ölkələrə üz tutmasından heç bir narahatlıq keçirmir, əksinə, miqrasiya edən gənclərlə narazı elektoratın və gələcək potensial inqilabçı-gənclərin sayının azalmasına və bu yolla hakimiyyətdə qalmaqda davam etməyə ümid edir".

Yeri gəlmişkən, bu günlərdə Rusiyanın Xalq Təsərrüfatı və Dövlət İdarəçilik Akademiyası "Rusiyadakı iqtisadi vəziyyətin monitorinqi" ilə bağlı hesabat yayıb. Hesabatda daha çox Qazaxıstan, Ukrayna, Tacikistan və Ermənistan vətəndaşlarının Rusiyaya iş axtarmaq adı ilə gəldiyi bildirilir. Son zamanlar Belarus və Moldovadan gələn miqrantların sayında azalma olsa da, Ermənistandan gələn miqrantların sayında, əksinə, çoxalma müşahidə edilməkdədir. Rusiya rəsmi idarəsinin bildirdiyinə görə, əgər 2018-ci ildə Ermənistandan Rusiyaya birdəfəlik yaşamaq üçün 4,9 min nəfər gəlmişdisə, 2019-cu ilin yanvar-aprel aylarında bu göstərici 12,8 min nəfəri ötüb.

Göründüyü kimi, bütün sahələrdə yaranan narazılıqla bağlı genişlənən aksiyalar Ermənistanda vəziyyəti daha da ağırlaşdırır. Nikol Paşinyan hökumətinin heç iki ili bitməmiş aksiyaların keçirilməsi müəyyən qüvvələrin, xüsusən də revanşistlərin marağının təmin olunmasına cəhd kimi də qiymətləndirilə bilər. Başqa sözlə, həmin qüvvələrin maraqları təmin olunmayacağı halda Ermənistanda perspektivdə qarşıdurma yaranmasına zəmin hazırlanır. Əslində, bu qarışdurma artıq başladığından Ermənistanı daha çətin günlər gözləyir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən 07 oktyabr 2006-cı il tarixdə Mustafa Hüseyn oğlu Əhmədovun adına verilmiş Bakı şəhəri, Səbail rayonu, Şeyx Şamil küçəsi 15, mənzil 7 ünvanına dair MH № 0039538 seriyalı (reyestr nömrəsi 004011000795-05101-093001, qeydiyyat nömrəsi 110648960) Çıxarış itdiyi üçün etibarsız sayılır.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Vüqar Rəhimzadəyə əzizi

**İSMAYIL KİŞİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi nazirliyin Ümumi şöbəsinin müdir müavini Arif Əliyevə həyat yoldaşı

**TƏRANƏ ƏLİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin kollektivi Mürsəl Vəliyevə qardaşı

**CƏFƏR VƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mətbuat Şurasının İdarə Heyəti Vüqar Rəhimzadəyə əzizi

**İSMAYIL KİŞİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR

Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8906
Sifariş 4053
Qiyməti 40 qəpik